**ISSN 2221 – 7584**

**e-ISSN 3005-9941**

**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ**

**AZERBAIJAN STATE UNIVERSITY OF CULTURE AND ARTS**

# МИР КУЛЬТУРЫ
# MƏDƏNİYYƏT DÜNYASI
# THE WORLD OF CULTURE

**XXXXV**

**BAKI – 2024**

Crossref

ÜZVÜ

doi

ISSN

## Redaksiya heyəti

| | |
|---|---|
| ***Ceyran Mahmudova*** | Sənətşünaslıq elmləri doktoru, professor (sədr) |
| ***İsa Həbibbəyli*** | Akademik, filologiya elmləri doktoru |
| ***Nizami Cəfərov*** | Akademik, filologiya elmləri doktoru |
| ***Kamal Abdulla*** | Akademik, filologiya elmləri doktoru |
| ***Rafael Hüseynov*** | Akademik, filologiya elmləri doktoru |
| ***Məryam Əlizadə*** | Sənətşünaslıq elmləri doktoru, professor |
| ***İsrafil İsrafilov*** | Sənətşünaslıq elmləri doktoru, professor |
| ***İlham Rəhimli*** | Sənətşünaslıq elmləri doktoru, professor |
| ***Oqtay Mirqasımov*** | Xalq artisti, professor |
| ***Niyazi Mehdi*** | Fəlsəfə elmləri doktoru, professor |
| ***Məlahət Fərəcova*** | Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent |
| **Lalə Hüseynova** | Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor |
| ***Sevinc Şaxhüseynova*** | Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent |
| ***Laşa Çxartişvili (Gürcüstan)*** | Şota Rustaveli adına Dövlət Teatr və Film Universitetinin professoru, sənətşünaslıq elmləri doktoru |
| ***Tuba Gültekin (Türkiyə)*** | Türkiyə Cümhuriyyəti Doqquz Eylül Universitetinin professoru |
| ***Yelena Polyakova (Rusiya)*** | Altay Dövlət Mədəniyyət İnstitutunun dosenti, tarix elmləri doktoru |
| ***Olqa Sapanja (Rusiya)*** | Sankt-Peterburq Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, kulturologiya elmləri doktoru |
| ***Nəbi Xuşvakov (Özbəkistan)*** | Əmir Teymur adına “Şəhrisəbz” Dövlət Muzey-Qoruğunun baş direktoru, tarix elmləri doktoru, dosent |
| ***Alina Jumaqulova (Qazaxıstan)*** | Qazaxıstanın Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyinin (IAAR) baş direktoru |

**Baş redaktor**

Sədaqət Əliyeva sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Redaktor**

Aslan Xəlilov sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Məsul katib**

Səbinə Namazova Elm və doktorantura şöbəsinin müdiri

**Təsisçi: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Məcmuə ildə iki dəfə dərc olunur.**
**ISSN 2221 – 7584**
**e-ISSN 3005-9941**
**Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, XXXXV buraxılış,** Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2024, 200 səh.
**Ünvan: AZ – 1065, Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 39**
**Адрес: Азербайджанская Республика, AZ – 1065, город Баку, пр. Строителей39**
**Address: 39, İnshaatçılar avenue, Baku, Azerbaijan Republic, AZ – 1065**
**Tel: (012) 599-00-54 (130)**
**www.medeniyyetdunyasi.az** **©ADMİU, 2024**

# Sahələr üzrə redaksiya komissiyaları:

**- Sənətşünaslıq ixtisası üzrə:** pedaqogika üzrə fəlsəfə doktoru, dosent Yeganə Eyvazova (sədr), fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Tamilla Əhmədova, fəlsəfə elmləri doktoru, professor Mübariz Süleymanlı, kulturologiya üzrə fəlsəfə doktoru, dosent Xaləddin Sofiyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Sevinc Əsgərova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Günay Qafarova, filologiya üzrə fəlsəfə doktoru Sevinc Əhmədova;

**- Teatr sənəti ixtisası üzrə:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Aydın Talıbzadə (sədr), sənətşünaslıq elmləri doktoru, professor Məryam Əlizadə, sənətşünaslıq elmləri doktoru, professor İsrafil İsrafilov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Elçin Cəfərov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, baş müəllim Lalə Səlimova, müəllim Tərlan Rəsulov, müəllim Aygün Süleymanova;

**- Kino, televiziya və digər ekran sənətləri ixtisası üzrə:** Əməkdar incəsənət xadimi, professor Əli Əmirli (sədr), sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Rafiq Quliyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Fazilə Abbasova; sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Elnur Mehdiyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Kifayət Bünyatova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Gülnarə Hüseynova, müəllim Anar Verdiyev;

**- Təsviri sənət ixtisası üzrə:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Sevil Kərimova (sədr), Xalq rəssamı, professor Arif Əzizov, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Məlahət Fərəcova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günel Seyidəhmədli;

**- Musiqi sənəti ixtisası üzrə:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaş-zadə (sədr), sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ellada Hüseynova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Səbinə Mehdiyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Güllü İsmayılova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Gülnar Verdiyeva; sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Nərmin Qaralova;

**- Fəlsəfə ixtisası üzrə:** fəlsəfə elmləri doktoru, professor Niyazi Mehdi (sədr), kulturologiya üzrə fəlsəfə doktoru, dosent Xaləddin Sofiyev, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Sevinc Şahhüseynova, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Tamilla Əhmədova;

**- Psixologiya ixtisası üzrə:** psixologiya elmləri doktoru, professor Ramiz Əliyev (sədr), psixologiya elmləri doktoru, professor Elnarə Səfiyeva, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Zərifə Əliyeva, psixologiya üzrə fəlsəfə doktoru Vasif Muradzadə, beynəlxalq Mediator, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova

***Jurnal Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında (protokol N 10-R) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər"in siyahısına daxil edilmişdir.***

# M Ü N D Ə R İ C A T

## S Ə N Ə T Ş Ü N A S L I Q

**Ayxan Şahbaz oğlu Qəhrəmanov.** Ailədə uşaqlara qarşı psixoloji zorakılıq..........9
**Rəşidə Rəşadət qızı Bəşirova.** Beynəlxalq mülki müdafiə təşkilatının fəaliyyət xronologiyasına tarixi baxış.....................................................................15
**Pünhani Səyyad oğlu Əsgərli, Sahilə Lazım qızı Cabbarova.** Azərbaycanda məktəb sosial işinin tətbiqində çətinliklər.........................................22
**Бабир Зейнал.** Развитие Азербайджанской мугамной культуры в контексте глобализации ......................................................................................27
**Firəngiz Sabir qızı Məhərrəmova.** İslamda tolerantlıq ideyasının nəzəri məsələləri və təcrübəsi...........................................................................35

## T E A T R   S Ə N Ə T İ

**Aydın Ağa Yunus oğlu Talıbzadə.** Azərbaycan teatrı: külək və su (teatr tarixinin mikro-konseptual modeli)...............................................................41
**İsrafil Ramazan oğlu İsrafilov.** Müasir teatr mozaikası haqqında bəzi qeydlər........................................................................................................56
**Nəzirə Məmmədqulu qızı Əliyeva.** Teatrda süni intellektin tətbiqi.......................61
**Sahib Bayram oğlu Novruzov.** "Səhnə hərəkəti" fənninin metodikası haqqında...66

## KİNO, TELE VƏ DİGƏR EKRAN SƏNƏTLƏRİ

**Samıma Salımova.** Sinema izleyicilerinin film izleme alışkanlıklarında izleyici mekan ilişkisi analizleri..........................................................................72

## M U S İ Q İ   S Ə N Ə T İ

**Humay Saleh qızı Mansurova.** Robert Şumanın fortepiano üçün "Vena karnavalı" əsərinin ifaçılıq xüsusiyyətləri..................................................93
**Gülnaz Vahid qızı Rzayeva.** Termenvoks: yaranması, etimologiyası və morfoloji xüsusiyyətləri...............................................................................98
**Rövşən Əbdürrəhman oğlu Əmrahov.** Oqtay Zülfüqarovun fortepiano triosunun xüsusiyyətləri.....................................................................................105
**Günel Məmmədrasul qızı Bəkirova.** Türkər Qasımzadənin "Zikr" əsərində bəzəklərin bəzi interpretasiya xüsusiyyətlərinə dair.................................128
**Sevinc Əmiraslan qızı Balabəyova.** Qərbi Azərbaycan – "Çəmbərək/Daban Durma", "Çəmənkənd" yallılarının özəllikləri.........................137

## T Ə S V İ R İ  S Ə N Ə T

**Акмал Фозилжонович Улмасов**. Исследование металлической курильницы из дальверзинтепа: техника, символика, происхождение..................................143
**Ayan Arif qızı Əzizova.** Portret rəngkarlığının metodik xüsusiyyətləri................154
**Xəyalə Yusifova.** Azərbaycan plakat sənətinin inkişafı.........................................160
**Натаван Алиева.** Художественная вышивка – как центр декоративной композиции национального женского костюма Азербайджана........................166
**Nərgiz Novruz qızı Quliyeva.** Yeni texnologiyaların musiqili tamaşaların səhnəqrafiyasında əhəmiyyəti........................................................174

## FƏLSƏFƏ

**Səxavət Nəsrəddin qızı Əliyeva**. Kişi və qadın ünsiyyətinin cinsi və gender xüsusiyyətləri.........................................................................182

**S Ə N Ə T Ş Ü N A S L I Q**

**UOT31.**
**DOI: 10.52094/3005-9941.45.2024.005**

**Ayxan Şahbaz oğlu Qəhrəmanov**
**Azərbaycan Turizm və Menecment Universiteti**
**Doktorant**
**E-mail: ayxanshahbazoglu@mail.ru**

# AİLƏDƏ UŞAQLARA QARŞI PSİXOLOJİ ZORAKILIQ

**Xülasə:** Məqalədə ailədaxili uşaqlara qarşı psixoloji zorakılığın ümumi təhlili verilmiş, bununla əlaqəli beynəlxalq təşkilatların fəaliyyətləri və dünyadakı statistik məlumatlar təqdim olunmuşdur. Məqalədə bu məsələnin Azərbaycan hökumətinin diqqət mərkəzində olduğu qeyd edilir. Ölkəmizdəki ən çətin ictimai-siyasi və hərbi vəziyyətdə belə, uşaq hüquqlarının qorunması həmişə prioritet olmuşdur. Bununla bağlı Azərbaycanda uşaqlara qarşı psixoloji zorakılığın qarşısının alınmasına dair dövlət siyasəti barədə ətraflı məlumat və təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** ailə, uşaq, zorakılıq, psixoloji zorakılıq, depressiya, Azərbaycan

Zorakılıq, uşaqlarda son verməyə çalışdığımız dəhşətli bir epidemiyadır. Bunu etmək üçün əvvəlcə problemin özü barədə məlumatlılığı artırmaq vacibdir. Uşaqlara qarşı zorakılıq, valideynlər və ya digər tərbiyəçilər, həmyaşıdları eləcə də, kənar insanlar tərəfindən 18 yaşınadək insanlara qarşı hər cür şiddəti əhatə edir.

Zorakılıq dedikdə, beynimizdə əsasən döymək, fiziki şiddət göstərmək, cinsi təcavüzə məruz qoymaq və s. kimi hallar canlanır. Lakin zorakılıq təkcə fiziki təması nəzərdə tutmur. Bura həm fiziki, həm cinsi, həm psixoloji, həm də sosial zorakılığı daxil edirik. Nə qədər də zorakılıq dedikdə fiziki mənada başa düşsək də, ən böyük travma illərlə, uzunmüddətli təsir bağışlayan psixoloji zorakılıqdır.

Psixoloji zorakılıq, uşaqlara qarşı ən çox görülən zorakılıq növlərindən biridir. Bunun nəticələri cinsi və ya fiziki zorakılıq qədər dağıdıcı ola bilər lakin, bir çoxumuz hələ də bunun fərqində deyilik. Psixoloji zorakılığa emosional zorakılıq da deyilir. Bu termin, bəzi xoşagəlməz sözlərlə uşağın periodik və ya daimi təhqir olunmasını, insan ləyaqətinin alçaldılmasını, təhdid ifadələrini ifadə edir. Bu, uşaqlarda patoloji xarakter xüsusiyyətlərinin formalaşmasına səbəb olur və ya şəxsiyyətin inkişafına maneə törədir. Bu zorakılıq formasına aşağıdakılar daxildir:

- uşağın açıq rədd edilməsi və davamlı tənqid edilməsi;
- ləyaqətinin təhqir edilməsi və alçaldılması;
- fiziki zorakılıq olmadan şifahi şəkildə təzahür edən uşağa qarşı təhdidlər;
- uşağın qəsdən fiziki və ya sosial təcrid olunması;

- ona yaşına və ya imkanlarına uyğun olmayan, həddindən artıq tələblər irəli sürmək;
- böyüklər tərəfindən verilən yalan vədlərin yerinə yetirilməməsi;
- uşağın zehni travmasına səbəb olan ümumi zehni təsir və s.

Erkən uşaqlıqda emosional istismar duyğusal ifadəni və ətrafa olan marağı azalda bilər. Psixoloji zorakılıq ümumiyyətlə, aktiv inkişaf etməməklə nəticələnir və buna tez-tez zəka geriliyi və ya fiziki məhdudiyyət kimi səhv diaqnoz qoyulur. Psixoloji zorakılığa məruz qalan uşaqlar özlərini güvənsiz, narahat, inamsız və şəxsiyyətlərarası münasibətlərdə dayaz hiss edə və passiv ola bilərlər. Uşaqlardakı emosional təsir ümumiyyətlə, məktəb yaşında, müəllimlər və yaşıdları ilə əlaqələr qurmaqda və inkişaf etdirməkdə çətinlik çəkdikdə aydın olur. İstismar olunan uşaqlar qanunları pozmağa, alkoqol və ya narkotik maddələrdən sui-istifadə etməyə meyilli olurlar.

Azərbaycanda hər bir uşaq doğulduğu andan Azərbaycan cəmiyyətinin bərabərhüquqlu nümayəndəsi sayılır. 1998-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasının Uşaq hüquqları haqqında qanunu" 18 yaşına çatmayan və tam qabiliyyət əldə etməyən hər bir şəxsi əhatə edərək, onların hüquqlarını, bərabərliyini, sağlamlığını, təhlükəsizliyini və s. əhatə edir. Qanunun 11-ci maddəsi uşağın tərbiyə almaq hüququ haqqındadır. Burada əsas müddəalardan biri kimi, uşağın milli və ümumbəşəri dəyərlərə uyğun, humanizm və əxlaqi prinsiplər əsasında tərbiyələndirilməsindən eləcə də, zorakılıq və qəddarlığın uşaqlara qarşı qadağasından bəhs edilir **[1]**.

Hər il iyun ayının 1-də Azərbaycanda Uşaqların Beynəlxalq Müdafiəsi günü kimi qeyd olunur, lakin dünyamızın problemləri artdıqca, uşaqların tərbiyəsi sıradan problemə çevrilir və müxtəlif zorakılıq növləri ilə meydana gəlir.

Uşaqlarda psixoloji zorakılığı dəqiq müəyyən etmək daha çətindir. Uşağa kifayət qədər sevgi göstərməmək, təhdidkar davranmaq və uşağı rədd etmək emosional istismar və laqeydlik hallarıdır. Aydına **[2]** görə psixoloji zorakılıq təsirləri və nəticələri müşahidə edilməsi və araşdırılması baxımından ən çətin zorakılıq növüdür.

Psixoloji zorakılıq, uşağın alçaldılması, günahlandırılması, rədd edilməsi təkrarlanaraq, ayrı-seçkilik edilməsi və ya qəsdən və zorla təcrid edilməsi, təhlükəsizlikdən və sevgidən məhrum edilməsidir. Uşağı öz qardaşı və ya digər uşaqları ilə müqayisə etmək, aşağılamaq, harayasa bağlamaq kimi cəzaların tərbiyəvi xüsusiyyəti yoxdur və bu cür cəzalar emosional depressiyaya və daxili münaqişələrə səbəb olur **[3]**.

Emosional travma müstəqil şəkildə görülə bilsə də, çox vaxt fiziki travma ilə birlikdə görülür. Psixoloji zorakılığa məruz qalan uşaqlar heç də həmişə fiziki zorakılığa məruz qalmırlar. Bunun əksi olaraq, fiziki və cinsi istismara məruz qalan uşaqlar həmişə emosional olaraq da zorakılığa məruz qalırlar. Fiziki və cinsi zorakılığın maddi ziyanı və izləri aradan qalxdıqdan sonra belə, psixoloji zorakılıq

və ya sui-istifadənin izləri davam edir.

Uşaqlıq illərində normal sevgi münasibətlərindən məhrum olan insanların gələcək həyatlarında da heç kim tərəfindən sevilmədiklərini və arzulanmadıqlarını hiss etmələri intihar hadisələrinin mühüm amilidir **[6]**.

Psixoloji zorakılıq uşaq istismarının bütün formalarında mövcuddur. Zorakılığın psixoloji ölçüləri çox vaxt fiziki zorakılıq və zərərlə əlaqələndirilir. Misal üçün: hədə-qorxu tez-tez fiziki zorakılıq aktlarına daxil edilir və yaralanmalara səbəb ola bilər **[5]**.

Depressiyaya meyilli insan, dözümsüz və ittihamçı valideyn rəftarı ilə tərbiyə olunduğu üçün onun eqosu yetərincə inkişaf etmir və buna görə də ətrafdakı insanlardan həddindən artıq asılı olur. Günahlandırmaq, tənqid etmək uşaqlarda özünə inamsızlıq və günahkarlıq hissi yarada bilər. Baymura **[7]** görə, insanları ən çox narahat edən şeylərdən biri də başqaları tərəfindən tənqid olunmasıdır.

Hissləri və həyəcanları rədd edilən uşaqlar bu hissləri hiss etdikcə içində qəribə bir şey olduğunu, normal olmadıqlarını düşünür, həm duyğularından, həm də öz mənliklərindən uzaqlaşırlar. Yəni təbii hisslərindən, həyəcanlarından utanmağa başlayırlar. Belə insanlar sosial maskalar arxasında öz şəxsiyyətlərini gizlətməyə çalışırlar. Gülən, xoşbəxt və ya diqqətsiz insan kimi görünən maskaların altında tənha bir insan formalaşır. Uşaqlarda öyrənilmiş çarəsizlik çatışmazlıqları ilə depressiyada motivasiya, idrak və emosional çatışmazlıqlar arasında oxşarlıqlar var. Fərdlərin yaxşı və pis nəticələrlə bağlı gözləntiləri gələcək nəticələrlə bağlı gözləntilərinə təsir edir **[8]**.

Hart, Brassard və Karlsona görə, psixoloji zorakılığın formaları:

(Burada qeyd olunan hərəkət və davranışların təkrarlanması psixoloji zorakılığı təşkil edir. Bunlar uşağa onun dəyərsiz, sevilməyən, qüsurlu, təhlükə altında olduğu və ya sadəcə başqa bir insanın ehtiyaclarına cavab verən bir dəyər olduğu mesajını verir)

**1.** Rədd etmə (zorakılıqla rədd edilmə və ya alçaldılma): uşağın alçaldılması və rədd edilməsi tərbiyəçinin şifahi və şifahi olmayan davranışlarını əhatə edir. Bura aşağıdakılar daxildir:

- lağ etmə, alçaldıcı və açıq-aşkar rədd edən və düşmənçilik edən fiziki olmayan davranış formaları,
- kədər və ya hüzn kimi normal emosional reaksiyalara görə uşağa lağ etmək və ya utandırmaq,
- ailədə uşağı tənqid edib cəzalandırmaq və uşağa davamlı olaraq məsuliyyət (iş və s.) vermək və başqalarından daha az mükafatlandırmaq,
- uşağı ictimai yerlərdə biabır etmək.

**2.** Zorakılıq tətbiq etməklə qorxutmaq: tərbiyəçi uşağın sevdiklərini və əşyalarını təhlükəli vəziyyətlərə salır. Tərbiyəçi uşağa fiziki zərər verə bilər. Bura aşağıdakılar daxildir:

- uşağı mürəkkəb vəziyyətlərə və gözlənilməz vəziyyətlərə salmaq,

- uşağı təhlükəli yerdə qoyub, uşağın sevdiyi insanlar və əşyalarla hədələmək,
- tərbiyəçinin uşaqdan sərt və qeyri-real gözləntilərinin olması. Bu gözləntilərin yerinə yetirilmədiyi təqdirdə, uşağa zərər vermək və ya təhlükə yaratmaqla hədələmək.

**3.** İzolyasiya: Yeniyetmələrin və həmyaşıdların evdə və evdən kənarda ünsiyyət və ya qarşılıqlı əlaqə ehtiyaclarını qarşılamalarının qarşısının alınması. Bura aşağıdakılar daxildir:

- uşağın ətraf mühitdə hərəkət azadlığının əsassız olaraq məhdudlaşdırılması,
- həmyaşıdları və yeniyetmələrlə sosial əlaqələrin məhdudlaşdırılması.

**4.** Uşaqdan istifadə etmək və əxlaqını pozmaq: bura tərbiyəçinin uşaqda uyğun olmayan davranışların (özünü məhv edən, antisosial, cinayətkar, deviant davranışlar və s.) formalaşmasına səbəb olan hərəkətləri daxildir. Bura aşağıdakılar daxildir:

- antisosial davranışın formalaşdırılması, ona icazə verilməsi və təşviq edilməsi,
- inkişaf baxımından uyğun olmayan davranışı formalaşdırmaq, ona icazə vermək və təşviq etmək,
- uşağın fikirlərini, istəklərini, hisslərini ifadə etməsinə az və ya heç bir dəstək verməmək,
- uşağın koqnitiv inkişafına mane olmaq və ya məhdudlaşdırmaq.

**5.** Uşağa məhəl qoymamaq: uşağın qarşılıqlı əlaqəyə olan ehtiyacının ödənməməsi, valideyn laqeydliyi (məhəbbət göstərməməsi, uşağı sevməməsi, maraq göstərməməsi) və uşaqla qarşılıqlı əlaqədə duyğuların olmaması. Bura aşağıdakılar daxildir:

- motivasiyanın olmaması səbəbindən təcrid olunmaq və qarşılıqlı münasibətlərdə iştirak etməmək,
- yalnız çox zəruri hallarda ünsiyyət qurmaq,
- uşağa sevgi, diqqət və sevgi göstərməmək.

**6.** Fiziki və ruhi sağlamlıq və təhsillə bağlı etinasızlıq: bu, uşağın psixi, fiziki sağlamlıq problemləri və təhsil problemləri və ya ehtiyacları üçün lazımi müalicəni laqeyd edən, imtina edən və ya təmin etməyən valideynin uyğun olmayan davranışını əhatə edir. Bura aşağıdakılar daxildir:

- uşağın ciddi emosional ya da davranış problemləri və ya ehtiyacları üçün laqeydlik, müalicənin təmin edilməməsi və ya ondan imtina edilməsi,
- uşağın fiziki sağlamlığının və problemlərinin müalicəsinin təmin edilməməsi və ondan imtina edilməsi,
- uşağın təhsil problemləri və ehtiyaclarının təmin edilməməsi və rədd edilməsi **[5]**.

Yuxarıda qeyd edilənlər Azərbaycanda və dünyanın əksər ölkələrində mövcud olan psixoloji zorakılıq formalarına misaldır.

Erkmanın fikrincə, insanın içində olduğu vəziyyəti və ya özünə yönəlmiş davranışı necə qəbul etməsi də emosional təzyiqin mənfi nəticələrinin yaranmasında

təsirli olur. Bu qavrayışların mədəni meyarlara və qəbullara da təsiri var.

Əslində, bu cür zorakılığın mədəniyyətimizlə, psixoloji savadsızlığımızla çox əlaqəsi var. Türk ailə və təhsil sistemlərinə baxdığımızda bu sistemlər ümumiyyətlə, patriarxal, məhdudlaşdırıcı, həddindən artıq qoruyucu və nəzarətçi, uşaqların hörmətli, passiv, itaətkar və qaydalara uyğun davranışları mükafatlandırılarkən, aktiv, sorğulayıcı və iddialı davranışları cəzalandırılır **[9]**.

Hər bir uşağın şiddət görmədən böyümək haqqı var. Dünyanın demək olar ki, bütün ölkələri bunu BMT-nin Uşaq Hüquqları Konvensiyası ilə tanıyırlar. Ölkəmizdə və dünyada uşaqlara qarşı zorakılığın qarşısının alınması üçün bir sıra tədbirlər həyata keçirilir. Bu gün yenə də saysız-hesabsız uşaq döyülür, aqressivlik, laqeydlik görür və alçaldılır.

Paradoks ondan ibarətdir ki, müxtəlif zorakılıq formaları və onların uşaqlar üçün ciddi nəticələri barədə daha çox şey bilirik. Yenə də bu günə qədər cəmiyyətimiz buna çox vaxt göz yumur. Təəssüflər olsun ki, uşaqlara qarşı zorakılığın müxtəlif formalarına dair statistikaya rast gəlmək qeyri-mümkündür. Çoxları uşaqlara qarşı şiddətə dözməyə davam edir. Bəziləri onları qaçılmaz və ya hətta lazımlı hesab edirlər. Cəmiyyətdə uşaqlara qarşı zorakılıq barədə məlumatlılığın artırılması daha vacibdir. Eyni zamanda, müxtəlif sahə mütəxəssislərinin, psixoloqların, sosial işçilərin rolu ön plana gətirilməli, məktəblərdə, ailələrdə məlumatlılıq artırılmalıdır. Buna qarşı çıxmaq nəhayət, bütün cəmiyyətimizin daimi vəzifəsi kimi başa düşülməlidir. Yalnız bu şəkildə bütün uşaqlar təhlükəsiz və yaxşı böyüyə bilər.

## Ədəbiyyat siyahısı:

1. https://e-qanun.az/framework/3292
2. Aydın, İ. (2019). Türkiye’de çocuk istismarı, çocuk istismarını önleyici sosyal politikalar ve Diyarbakır Örneği, Yüksek Lisans Tezi. Gazi Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara.
3. Veltkamp & Miller, 1994, s. 21.
4. Fındıkçı, 1989). , səh. 30).
5. 0Hart, Brassard, & Karlson, 1996. s. 73, 74.
6. Gectan, 1993, s. 166.
7. Baymur (1985, s. 280) İhmal ve istismar açısından sokak çocukları.
8. Cüceloğlu, 1999, s. 109; Seligman, Hoeksema, & Girgus, 1986, s. 435.
9. Erkman, 1999, s. 129.

**Aykhan Shahbaz oghlu Gahramanov**

## PSYCHOLOGICAL VIOLENCE AGAİNST CHILDREN IN THE FAMILY

**Summary:** The article provides a general analysis of psychological violence against children within the family, the activities of international organizations related to it, and statistical data from around the world. The article mentions that this issue is the focus of the Azerbaijani government. Even in the most difficult socio-political and military situation in our country, protection of children's rights has always been a priority. In this regard, detailed information and suggestions were put forward about the state policy on the prevention of psychological violence against children in Azerbaijan.

**Key words:** family, child, violence, psychological violence, depression, Azerbaijan.

**Айхан Шахбаз оглы Кахраманов**

## ПСИХОЛОГИЧЕСКОЕ НАСИЛИЕ НАД ДЕТЬМИ В СЕМЬЕ

**Резюме:** В статье представлен общий анализ психологического насилия в отношении детей в семье, связанной с ним деятельности международных организаций и статистических данных со всего мира. В статье отмечается, что этот вопрос находится в центре внимания правительства Азербайджана. Даже в самой сложной общественно-политической и военной ситуации в нашей стране защита прав детей всегда была приоритетной задачей. В связи с этим была выдвинута подробная информация и предложения о государственной политике по предотвращению психологического насилия в отношении детей в Азербайджане.

**Ключевые слова:** семья, ребенок, насилие, психологическое насилие, депрессия, Азербайджан

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.02.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

**UOT 372**
**DOI: 10.52094/3005-9941.45.2024.010**

**Rəşidə Rəşadət qızı Bəşirova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**müəllim**

# BEYNƏLXALQ MÜLKİ MÜDAFİƏ TƏŞKİLATININ FƏALİYYƏT XRONOLOGİYASINA TARİXI BAXIŞ

**Xülasə:** Dünyada təhlükə törədən təbii, antropoloji hadisələrin aradan qaldırılmasında Beynəlxalq Mülki Müdafiə Təşkilatının (İCDO) rolu böyükdür. Təşəkkül tapdığı gündən fövqəladə halların aradan qaldırılmasında dünya ölkələrinə humanitar, metodiki köməklik göstərən bu beynəlxalq qurum öz fəaliyyətini daima təkmilləşdirmiş və hər tarixi dövrün şəraitinə uyğun məqsədəuyğun tədbirlər, layihələr həyata keçirmişdir. Hazırkı məqalədə bu beynəlxalq təşkilatın fəaliyyətinə tarixi ekskurs edilmişdir.

**Açar sözlər:** mülki müdafiə, İCDO, Cenevrə zonaları assosiasiyası, fövqəladə hallar

Beynəlxalq Mülki Müdafiə Təşkilatı (ICDO) hökumətlərarası təşkilatdır və məqsədi təbii və ya texnogen fəlakətlər zamanı mülki əhalinin, əmlakın və ətraf mühitin qorunması üçün nəzərdə tutulmuş milli strukturların inkişafına kömək etməkdir. Təşkilatın yaranması fransız tibb xidməti generalı Georges Saint-Paulun adı ilə bağlıdır. O, 1931-ci ildə bir neçə ştatın təşəbbüsü ilə ikitərəfli və çoxtərəfli razılaşmalar əsasında bütün ölkələrdə yerli təhlükəsizlik zonaları yaratmaq məqsədilə Parisdə  Cenevrə Zonaları Assosiasiyasını – təhlükəsizlik zonalarını təsis etdi. Müharibənin istər hərbçilərə, istərsə də mülki əhaliyə dəhşətli təsirlərini gözəl anlayan  hərbi həkim  Georges Saint-Paul hələ 1929-cu ildə tərəqqipərvər təşəbbüslə çıxış etmişdir: o, ilk dəfə olaraq bütün ölkələrdə beynəlxalq müqavilələrlə rəsmi tanınan və mülki əhalinin ən həssas qruplarının – uşaqların, qadınların, qocaların və xəstələrin hərbi əməliyyatlar zamanı sığınacaq tapa biləcəyi daimi təhlükəsizlik zonalarının təşkili ideyasını səsləndirdi.  Bu ideyanın məzmunu bütün ölkələrdə daimi əsaslarla dəqiq müəyyən edilmiş təhlükəsiz zonalar, ikitərəfli və ya çoxtərəfli razılaşmalarla sülh dövründə belə, tanınan ərazilər yaratmaqdan ibarət idi.

Fransa parlamenti 1935-ci ildə Cenevrə Zonaları Assosiasiyasının təşəbbüsü ilə yekdilliklə Qətnamə təsdiqlədi ki, bu qətnamədə Millətlər Liqası tərəfindən ratifikasiya olunmuş sazişlərə uyğun olaraq hər bir ölkədə Millətlər Liqasının yaradılması imkanlarının öyrənilməsi, hərbi münaqişələr zamanı hərbi əməliyyatlardan qoruna biləcək və hərbi məqsədlər üçün istifadə edilməyəcək ərazilər, yerlər və zonalar müəyyənləşdirilməsi tövsiyə olundu.

1937-ci ildə Parisdən Cenevrəyə köçürülən Assosiasiya əhatə dairəsinə görə

daha da genişlənərək müharibə dövründə Mülki Əhali və Tarixi Binaların Mühafizəsi üzrə Beynəlxalq Assosiasiyaya çevrildi. Generalın dostu və silahdaşı Henri Corc Assosiasiyaya rəhbərlik etdi və tezliklə Assosiasiyanın Baş katibi oldu. Məhz Henri Corcun təşəbbüsü ilə Assosiasiya İspaniya vətəndaş müharibəsi (1936-cı il Madrid və Bilbao) və Yaponiya ilə Çin arasındakı (1937-ci il Şanxay və Nankinq) münaqişə zamanı əhalinin müəyyən kateqoriyaları üçün neytral zonalar yaradıldı. Bu təcrübənin nisbətən az olmasına baxmayaraq, mülki şəxslər üçün təhlükəsiz zonaların mövcudluğu reallığı nümayiş etdirildi.

Yarandığı iyirmi il ərzində Beynəlxalq Cenevrə Zonaları Assosiasiyası 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarında müəyyən edilmiş müddəalara uyğun olaraq, humanitar yardım proqramı çərçivəsində bütün tərəflər tərəfindən tanınacaq "təhlükəsiz zonalar" – qaçqınlar üçün dinc dövrdə məkanların yaradılması ideyasını həyata keçirməyə çalışmışdır. Cenevrə Konvensiyalarının təmin etdiyi mühafizədən istifadə edərək, Cenevrə Zonaları Katibliyi potensial təhlükəsiz zonaları öyrənməyə və hazırlamağa başladı. Müxtəlif Avropa ölkələrinin hökumətləri ilə birlikdə əhalinin təhlükəsiz ərazilərə köçürülməsi planları hazırlanmağa başladı. Fikir və planlaşdırma təcrübəsinin mübadilələri faydalı və zəruri idi.

Assosiasiyanın fəaliyyətində bu istiqamətdə keçirilən tədbirlərin çox böyük əhəmiyyəti olmuşdur. Bu baxımdan 1954-cü ildə Berlində neytral zonaların və açıq şəhərlərin yaradılması və tanınması yolu ilə müharibə dövründə mülki əhalinin müdafiəsi üzrə keçirilmiş Beynəlxalq Konfrans ICDO-nun tarixində "Birinci Ümumdünya Mülki Müdafiə Konfransı" kimi yadda qaldı. Assosiasiya qaçqınlar üçün ərazilərin erkən hazırlanması prinsipini ölkələr arasında yaymağa cəhd göstərdi. Yeni genişmiqyaslı münaqişə təhlükəsi ilə üzləşmiş ölkələrdə yaradılmış milli mülki müdafiə qurumları və təşkilatları ilə məsləhətləşmələr aparılmağa başlanıldı.

1956-cı ilin iyulunda "Cenevrə zonaları xəbər bülleteni" "Mülki müdafiə" başlığı ilə nəşr olundu. Assosiasiyanın redaksiya məqaləsində deyilirdi: "Cenevrə Zona Təşkilatının müharibə zamanı uşaqların, qadınların, qocaların və əlillərin müdafiəsi sahəsində fəaliyyəti müxtəlif ölkələrdə inkişaf etməkdə olan milli mülki müdafiə orqanlarının vəzifələri ilə üst-üstə düşür. Biz mülki əhalinin "Cenevrə zonaları" adı ilə tanınan təhlükəsiz yerlərə köçürülməsi ideyasını inkişaf etdirməyə davam edirik, biz bu zonalar üçün planlar hazırlayır və beynəlxalq səviyyədə mülki müdafiə fəaliyyətini, yəni müxtəlif milli mülki müdafiə təşkilatlarını yayırıq" [7]. Mülki müdafiə üzrə ikinci Beynəlxalq Konfrans 1957-ci ildə Florensiyada keçirildi. Bu görüşdə nümayəndələr Cenevrə Zonalarının Beynəlxalq Assosiasiyasına öz fəaliyyətini insanların və ətraf mühitin mühafizəsi ilə bağlı bütün məsələlər üzrə genişləndirməyi, mülki müdafiə məsələləri üzrə Assosiasiyanın beynəlxalq təşkilata çevrilməsini tapşırdılar.

1958-ci ilin yanvarında Beynəlxalq Cenevrə Zonaları Assosiasiyası (qeyri-

hökumət təşkilatı) hökumətlərin, cəmiyyətlərin, assosiasiyaların və şəxslərin üzv kimi qəbul edilməsinə icazə verən yeni statusla Beynəlxalq Mülki Müdafiə Təşkilatına (ICDO) çevrildi. Təşkilatın məqsədləri əhəmiyyətli dərəcədə genişləndirildi: təşkilat qaçqınlar üçün təhlükəsiz zonalar üzrə fəaliyyətləri davam etdirməklə yanaşı, milli mülki müdafiə təşkilatları arasında əlaqələrin yaradılması, əhalinin müdafiəsi problemləri sahəsində tədqiqatların stimullaşdırılması, mövcud təcrübənin yayılmasını təmin etmək və koordinasiya edilməsi, fəlakətlərin qarşısının alınması və hazırlığı üzrə səylər və zəruri tədbirlərin həyata keçirilməsi məcburiyyətində idi.

1966-cı ildə Radioloji Mühafizə üzrə Beynəlxalq Konfransda, ICDO-ya üzv ölkələr təşkilata hökumətlərarası təşkilat statusu almağa imkan verən Xartiyanın mətnini elan edib təsdiqlədilər. Bu Xartiya faktiki olaraq, Nizamnamənin qəbul edilməsi haqqında sənədləri təşkilatın depozitarına göndərməklə ölkələrə təşkilata üzv olmaq hüququ verən beynəlxalq konvensiyaya çevrildi.

Təşkilatın Nizamnaməsində əsas məqsədlər sülh dövründə təbii fəlakət və ya hadisələr, münaqişələr zamanı silahdan istifadənin nəticələrinin qarşısının alınması və azaldılması, təşkilatın inkişafı və təkmilləşdirilməsinin, vasitə və üsulların dünya miqyasında intensivləşdirilməsi və əlaqələndirilməsi kimi müəyyən edilir. Nizamnamə 1972-ci il martın 1-də təşkilatın üzvü olan ölkələrin Birinci Baş Assambleyasının qərarı ilə qüvvəyə minmişdir. 1975-ci ildə bu Xartiya Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının Katibliyində qeydə alınmış və bu qurumun Sazişlər Toplusunda dərc edilmişdir. 1976-cı il martın 10-da ICDO ilə İsveçrə hökuməti arasında bu ölkədə yerləşən beynəlxalq təşkilat kimi hüquqi statusun verilməsi haqqında saziş imzalandı.

1966-cı il Nizamnaməsi təşkilata istənilən fəlakət növü üzrə əhalinin və əmlakın təhlükəsizliyinin təmin edilməsi ideyalarını beynəlxalq səviyyədə təbliğ etmək üçün bir sıra vəzifələr həvalə etdi. ICDO mülki müdafiə məsələləri ilə məşğul olan milli təşkilatları birləşdirməyə başladı. Qeyd edək ki, BMT Baş Assambleyası 1965-ci il tarixli 2034 saylı qətnaməsində "hökumətləri yerli şəraiti nəzərə alan, tələb olunan yardımın həcmini və xarakterini müəyyən edə bilən və xilasetmə əməliyyatlarını idarə edə bilən müvafiq planlaşdırma və icra orqanları yaratmağa çağırmışdır".

ICDO-nun rəhbər orqanları hüquqi bazadan, öz statusundan və beynəlxalq humanitar hüquqdan istifadə edərək, fəlakətlərin qarşısının alınması, hazırlıq və fəaliyyət problemləri üzrə bilik və vasitələrin təşviqi siyasətini bütün mümkün yollarla həyata keçirmiş və davam etdirirlər. Mülki Müdafiə üzrə on bir Ümumdünya Konfransı (Berlin 1954, Florensiya 1957, Cenevrə 1958, Montrö 1961, Cenevrə 1963, Cenevrə 1972, Karakas 1974, Tunis 1978, Rabat 1980, Əmman 1991) təşkil edilmişdir.

Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının IX sessiyası 1990-cı il dekabrın 18-də qəbul edilmiş qətnamə ilə hər il martın 1-də (18 dövlət

tərəfindən bəyənilən ICDO-nun Nizamnaməsi həmin tarixdə qüvvəyə mindiyinə görə) Ümumdünya Mülki Müdafiə Gününün qeyd edilməsi haqqında qərar qəbul etmişdir. Ümumdünya Mülki Müdafiə Gününün iki əsas məqsədə xidmət edir: dünya ictimaiyyətinin diqqətini mülki müdafiənin vacibliyinə cəlb etmək, fəlakətlər və ya qəzalar zamanı əhalinin özünümüdafiəyə hazırlığını artırmaq; milli mülki müdafiə personalının fəlakətlərə qarşı mübarizədə göstərdiyi səylərə və fədakarlıqlara hörmət bəsləmək. Ümumdünya Mülki Müdafiə Günü çıxışların, konfransların, radio və televiziya debatlarının, açıq qapıların, təlimlərin təşkili, əhalinin mülki müdafiə haqqında məlumatlandırılması və mövcud fəlakətlərin idarə olunması alət və avadanlıqlarının nümayişi üçün istifadə olunur.

Beynəlxalq Mülki Müdafiə Təşkilatının funksiyaları aşağıdakılardır:

- insanların və əmlakın mühafizəsi və xilas edilməsi vəzifəsi həvalə edilmiş qurumlar arasında sıx əməkdaşlığın qurulması və saxlanması;
- Mülki müdafiə təşkilatının mövcud olmadığı ölkələrdə, xüsusilə də, inkişaf etməkdə olan ölkələrdə mülki müdafiə təşkilatının yaradılmasına və genişləndirilməsinə köməklik göstərmək, habelə onların xahişi ilə dövlətlərin müdafiəsi üçün təşkilatların yaradılması və genişləndirilməsində yardım göstərmək; insanların və əmlakın xilas edilməsi;
- ixtisaslaşmış qurumlar, dövlət xidmətləri, peşəkar qruplar və uyğun hesab edilə bilən digər təşkilatlarla səmərəli əməkdaşlığın qurulması və davam etdirilməsi;
- insanların və əmlakın mühafizəsi və xilas edilməsi sahəsində müxtəlif ölkələr arasında məlumat, təcrübə, kadr və ekspert mübadiləsinin təşviq və təmin edilməsi;
- üzv dövlətlərin xahişi ilə lazımi texniki yardımın, o cümlədən təşkilati planların, təlimçilərin, ekspertlərin, avadanlıqların və tələb olunan materialların təmin edilməsi;
- tələb oluna bilən texniki xidmətlərin, o cümlədən sənədlərin, avadanlıqların hazırlanması, tədqiqat və digər mərkəzlərin yaradılması və saxlanması;
- hakimiyyət orqanlarının müdafiə prinsipləri və hərəkətləri haqqında məlumatların toplanması və təqdim edilməsi;
- müdafiə və fəaliyyət prinsipləri haqqında məlumatların toplanılması və təmin edilməsi;
- daşqınlar, zəlzələlər, qar uçqunları, iri yanğınlar, qasırğalar, bəndlərin uçması və digər dağıntılar zamanı, habelə su və havanın çirklənməsi və ya müasir döyüş vasitələrindən istifadə edilməklə hücumlar zamanı əhalini təhdid edən təhlükə ilə bağlı məlumatların əldə edilməsi;
- təbii fəlakətin qarşısının alınması, mühafizəsi və aktiv müdaxilənin vacibliyi barədə əhali arasında şüurlu ictimai rəyin yaradılmasında üzv dövlətlərə köməkliyin göstərilməsi;
- təbii fəlakətlərin vurduğu ziyanla bağlı müvafiq qabaqlayıcı tədbirlərin görülməsi ilə bağlı toplanmış bilik və təcrübənin öyrənilməsi və mübadiləsinin aparılması;

• böyük təbii fəlakət zamanı müxtəlif xilasetmə təşkilatlarının və yardım qruplarının səylərinin gücləndirilməsi;
• böyük təbii fəlakətlər zamanı üzv dövlətlərin cəlb edilməsi və yardım əməliyyatlarında iştirak etmək təşəbbüsü ilə çıxış etmək;
• xilasetmə və mühafizə müəssisələri üçün kadrların təhsili, hazırlanması və təchizatı məsələsi üzrə biliklərin öyrənilməsi və yayılması;
• informasiyadan istifadə etməklə insanların və əmlakın mühafizəsi və xilas edilməsi üzrə elmi tədqiqatların təşviqi, tədqiqatların nəşri və hər hansı digər müvafiq vasitələrdən istifadə edilməsi;
• Təşkilatın üzvlüyünə qəbul bütün dövlətlər üçün açıqdır.

ICDO-nun fəaliyyət prioritetlərindən aşağıdakıları qeyd etmək lazımdır:

• fövqəladə halların idarə edilməsi sahəsində milli kadrların hazırlanması;
•fövqəladə halların qarşısının alınması sistemlərinin yaradılmasında və təkmilləşdirilməsində və əhalinin mühafizəsində dövlətlərə texniki yardımın göstərilməsi;
• fövqəladə hallar zamanı mülki müdafiə və idarəetmə məsələləri üzrə təcrübə və biliklərin yayılması.

Mütəxəssislərin hazırlığı İsveçrədəki Mülki Müdafiə Təlim Mərkəzində həyata keçirilir. Mülki müdafiə sahəsində beynəlxalq qanunvericiliyi tənzimləyən əsas sənədlər bunlardır:
- “Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında” 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyası;
- 12 avqust 1949-cu il tarixli “Ordularda yaralıların və xəstələrin səhrada vəziyyətinin yaxşılaşdırılmasına dair” Cenevrə Konvensiyası;
- Beynəlxalq münaqişələrin qurbanlarının müdafiəsi ilə bağlı 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarına Əlavə Protokol (1977-ci il 8 iyun tarixli I Protokol);
- Qeyri-beynəlxalq münaqişələrin qurbanlarının müdafiəsi ilə bağlı 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarına Əlavə Protokol (8 iyun 1977-ci il tarixli II Protokol).

1998-ci ildə Pekində keçirilən XI Ümumdünya Mülki Müdafiə Konfransında Mülki Müdafiənin İnkişafı üzrə Ümumdünya Fəaliyyət Planı qəbul edilmişdir. Plan mülki müdafiə strukturlarının inkişafını, yardım sahəsində beynəlxalq əməkdaşlığı, fəlakətlərin qarşısının alınması üzrə birgə fəaliyyətləri nəzərdə tutur. 2000-ci ildə ICDO konfransı mülki müdafiəni təbii və texnogen fəlakətlər qarşısında dövlətlərin davamlı inkişafı üçün mühüm alət kimi müəyyən etdi.

Bu gün ICDO-nun 60 üzvü və daha 16-sı müşahidəçi statusundadır. Azərbaycan da 1993-cü ildən Beynəlxalq Mülki Müdafiə Təşkilatının üzvüdür və təşkilatın fəaliyyətində fəal iştirak edir. Həmin təşkilata üzv olması Azərbaycan Respublikasının “Mülki müdafiə haqqında” Qanunun qüvvəyə minməsinə təkan

verdi. Ümummilli lider Heydər Əliyevin imzası ilə 30 dekabr 1997-ci ildə təsdiqlənmiş "Mülki müdafiə haqqında" Qanunun "Mülki müdafiə haqqında qanunvericilik" adlı ikinci maddəsində deyilir: "Mülki müdafiə haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir" [8]. Bu maddə əzəldən Azərbaycan Respublikasının Beynəlxalq Mülki Müdafiə Təşkilatı ilə əməkdaşlığın fəal şəkildə qurulmasına imkan yaratdı.

Respublikanın hökumət strukturunda Fövqəladə Hallar Nazirliyinin yaranmasında bu beynəlxalq təşkilatın prioritetlərindən irəli gələn prinsiplər mühüm yer tutmuşdur. İCDO ilə fəal əməkdaşlıq edən Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi bir sıra maraqlı layihələrə imza atmışdır. 2013-cü ildə İCDO-nun təklifi ilə Azərbaycan Fövqəladə Hallar Nazirliyi ilə birgə Qəbələdə "Mülki müdafiə və əhalinin fəlakət riskinin qarşısının alınmasına hazırlanması" mövzusunda təşkil olunmuş beynəlxalq konfransda bu istiqamətdə bəşəriyyətin aktual məsələləri ətrafında geniş müzakirələr aparılmışdır [9].

Təşkilatın gələcək inkişafı baxımından onun coğrafi nümayəndəliklərinin genişlənməsi müşahidə olunur ki, bu da fövqəladə humanitar sahədə qarşılıqlı fəaliyyətin inkişafı üçün yeni imkanlar açır. Bu baxımdan aşağıdakı hadisələri xüsusilə qeyd etmək lazımdır: 2021-ci il oktyabrın 28-də Beynəlxalq Mülki Müdafiə Təşkilatının 90 illik yubileyi qeyd olundu. Cenevrə Beynəlxalq Konfrans Mərkəzində (CICG) baş tutan mərasimdə ICDO-ya üzv və müşahidəçi ölkələrin nümayəndələri, digər təşkilatların nümayəndələri, yerli şəxsiyyətlər və hər şeydən əvvəl qurucusu general Georges Saint-Paulun varisləri iştirak etmişlər.

Noyabrın 12-dən 16-dək Daşkənddə (Özbəkistan Respublikası) Yanğınsöndürənlər və Xilasedicilərin Beynəlxalq İdman Federasiyasının XXII Beynəlxalq Konfransı keçirilmişdir ki, burada 28 ölkənin nümayəndəsi Yanğınsöndürənlər və Xilasedicilərin Beynəlxalq İdman Federasiyasının inkişafı, beynəlxalq əməkdaşlıq, o cümlədən 2022-ci ildə Yanğınsöndürənlər və Xilasedicilər üzrə Dünya İdman Çempionatının təşkili və keçirilməsi məsələlərini müzakirə etmişlər.

Beləliklə, aparılan təhlillər Beynəlxalq Mülki Müdafiə Təşkilatının dünyada təhlükəsizliyin müdafiəsi istiqamətində aparıcı bəşəri qurumlardan biri olduğunu sübuta yetirir.

## Ədəbiyyat siyahısı:

**1.** Azərbaycan Respublikasının "Mülki müdafiə haqqında" Qanunu. 30.12.1997.
**2.** Azərbaycan Respublikasının "Fövqəladə vəziyyət haqqında" Qanunu 08.06. 2004.
**3.** "Mülki müdafiə" fənnindən tədris-metodiki vəsait. Bakı, 2018. 47 s.

**4.** Грищенко Я.И. Методические рекомендации по обучению работников организации в области гражданской обороны и защиты от чрезвычайных ситуаций. М.: Термика, 2023. 218 с.
**5.** Шубин Е.П. Гражданская оборона. Москва, 1991.
**6.** Тихомиров Д.В., Грищенко Я.И. Гражданская оборона и защита от чрезвычайных ситуаций. М.: Термика, 2021, 330 с.
**7.** https://47.mchs.gov.ru/deyatelnost/grazhdanskaya-oborona/mezhdunarodnaya-organizaciya-grazhdanskoy-oborony/mezhdunarodnaya-organizaciya-grazhdanskoy-oborony
**8.** https://e-qanun.az/framework/4271
**9.** https://azertag.az/xeber/1_mart___umumdunya_mulki_mudafie_gunudur-2511452

**Рашида Рашадат кызы Баширова**

**ИСТОРИЧЕСКИЙ ОБЗОР ХРОНОЛОГИИ ДЕЯТЕЛЬНОСТИ МЕЖДУНАРОДНОЙ ОРГАНИЗАЦИИ ГРАЖДАНСКОЙ ОБОРОНЫ**

**Резюме:** Велика роль Международной организации гражданской обороны (ICDO) в ликвидации природных и антропологических явлений, угрожающих миру. С момента своего создания эта международная организация, оказывающая гуманитарную и методическую помощь странам мира в ликвидации чрезвычайных ситуаций, постоянно совершенствовала свою деятельность и реализовывала соответствующие меры и проекты в соответствии с условиями каждого исторического периода. В настоящей статье совершается исторический экскурс в деятельность этой международной организации.

**Ключевые слова:** гражданская оборона, Международная организация гражданского обороны, ассоциация Женевских зон, чрезвычайные ситуации

**Bashirova Rashida Rashadat**

**A HISTORICAL OVERVIEW OF THE CHRONOLOGY OF ACTIVITIES OF THE INTERNATIONAL CIVIL DEFENSE ORGANIZATION**

**Summary:** The role of the International Civil Defense Organization (ICDO) is great in eliminating natural and anthropological phenomena that threaten the world. Since its establishment, this international organization, which provides humanitarian and methodical assistance to the countries of the world in the elimination of emergency situations, has constantly improved its activities and implemented appropriate measures and projects in accordance with the conditions of each historical period. In the current article, a historical excursion into the activities of this international organization is taken.

**Key words**: civil defence, ICDO, association of Geneve zones, emergencies

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.02.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

**UOT 31.**

**DOI: 10.52094/3005-9941.45.2024.011**

**Pünhani Səyyad oğlu Əsgərli**
**müəllim**
**Sahilə Lazım qızı Cabbarova**
**magistrant**

# AZƏRBAYCANDA MƏKTƏB SOSİAL İŞİNİN TƏTBİQİNDƏ ÇƏTİNLİKLƏR

**Xülasə:** Tədqiqat işində Azərbaycanda məktəb sosial işinin tətbiqində qarşılaşılan çətinliklər, məktəb sosial işinin əhatə dairəsi və bu sahədə fəaliyyət göstərən sosial iş mütəxəssisinin vəzifə öhdəliləri və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin həyata keçirdiyi "Məktəblinin dostu" layihəsi ilə məktəb sosial işinin oxşar və fərqli cəhətləri araşdırılmışdır.

**Açar sözlər:** Təhsil, Sosial iş, Məktəb sosial işçisi, Məktəblinin dostu

Məktəblər, fərdlərin inkişafı və yetişdirilməsində, ixtisaslı insan gücü olaraq cəmiyyətdə yer almalarının təmin edilməsində və şagirdlərin sosiallaşma prosesində ciddi rol oynayan çox əhəmiyyətli təhsil müəssisələridir. Fərqli həyat şəraitində fərqli sosial-iqtisadi xüsusiyyətlərə malik ailələrdən olan şagirdlər məktəbdə uğurlarına, məktəbə davamiyyətinə və dostluq əlaqələrinə mənfi təsir edən və biopsixososial inkişafını təhdid edən müxtəlif problemlərlə qarşılaşa bilərlər. Bu problemlərin həllində həm ailənin, həm də müalicə müəssisələrinin vəzifələri olduğu kimi, təhsil müəssisələri də əhəmiyyətli rollara malikdir. Bunlar əsasən həll yolları tapmaq, istiqamətləndirmək, şagirdin psixososial rifahının qorunmasına dəstək verməkdir [2].

Məktəblərdə şagirdlərin ailələri ilə əməkdaşlıq edərək onların biopsixososial inkişafını dəstəkləmək üçün müxtəlif ixtisaslı şəxslər olur. Bunlardan ən başlıcası sosial işçilərdir. Sosial iş tibb, psixiatriya, cinayətkarlıq, qocalıq, əlillik, yoxsulluq, təhsil, ailə və uşaq rifahı kimi müxtəlif və geniş tətbiq sahəsinə malikdir. Məktəb sosial işi, sosial iş elminin xüsusi bir tətbiq sahəsidir və şagirdin məktəb performansına və məktəb şəraitində uğurlarına təsir edən biopsixsosial faktorlara diqqət yetirir.

Məktəb sosial işçisi şagirdlərin inkişaf dövrü, ailə və həyat şəraiti ilə əlaqədar yaşadıqları problemləri həll etmək, ehtiyac duyduqları xidmətlərdən faydalanmaq və bununla da təhsil fəaliyyətlərini uğurla davam etdirmələrini təmin etmək kimi psixososial xidmətləri həyata keçirir.

Məktəb sosial işçinin əsas vəzifələrinə aşağıdakıları aid etmək olar:

- Müxtəlif psixososial və iqtisadi risk altında olan şagird və valideynlərə peşəkar dəstək vermək.

- Şagirdləri və ailələri gücləndirmək.
- Məktəblə ailə arasında əlaqələri və əməkdaşlığı gücləndirmək.
- Valideynlərin uşaqlarının ehtiyaclarını və inkişafını anlamağa kömək etmək.
- Şagirdlərin həyat şəraitləri haqqında müəllimlərini məlumatlandırmaq.
- Risk qrupunda olan şagirdlər və valideynləri professional dəstək almalarına kömək edəcək qurumlara yönləndirmək və s. [2]

Məktəb sosial işçilərinin əksəriyyəti intizam problemləri olan, davamiyyəti aşağı olan, məktəbdən qaçan, istismara məruz qalan, ana-atası ayrı yaşayan və ya boşanan və s. uşaqlarla işləyirlər. Ancaq bu iş məktəblərdəki müəllimlər, məktəbdən kənar müalicə müəssisələri və sosial xidmət müəssisələri ilə paralel şəkildə aparılır. Məktəb sosial işçilərinin bir qrupu isə fərqli inkişaf xüsusiyyətləri olan, əlilliyi olan şagirdlər və onların valideynləri ilə işləyir [2].

**Azərbaycan məktəblərində məktəb sosial işçisinə olan ehtiyaclar**

Məktəblər şagirdlərin sosiallaşmasında ən əhəmiyyətli müəssisələrdəndir. Şagirdlər müxtəlif sosio-iqtisadi vəziyyəti olan ailələrdən gəldikləri, fərqli mədəni müxtəlifliyə sahib olduqları üçün həm şagirdlər arasında, həm müəllimlərlə şagirdlər arasında, həm də müəllimlərlə valideynlər arasında tez-tez münaqişələrin yaşandığına şahid ola bilirik. Azərbaycan məktəblərində də bu münaqişələri müşahidə etmək mümkündür. Xüsusilə internetdən istifadənin kütləvi hal alması ilə biz məktəblərdə baş verən prosesləri daha şəffaf şəkildə müşahidə edə bilərik [1].

Son dövrlərdə mətbuat və sosial şəbəkələrin müşahidəsi göstərir ki, Azərbaycan məktəblərinin ən böyük problemlərindən biri bullinqdir. Bullinq təkrarlanan və zorakılığa məruz qalan şagirdin özünümüdafiəsinin çətin olduğu hərəkətlərdir. Bullinq, cinsi istismar, dərsə davamiyyətin zəifliyi və s. kimi problemlər sadəcə müəllimlər və ya valideynlərin həll edə biləcəyi problemlər deyil. Bu problemlər multidisiplinar komanda tərəfindən nəzarətə götürülməli, öyrənilməli və həll yolları hazırlanmalıdır. Bəs yuxarıda sadaladığımız problemlərlə məşğul olmalı olan şəxslər kimlərdir?

- Məktəb sosial işçiləri.
- Məktəb psixoloqu.
- Məktəb rəhbərliyi.
- Müvafiq sosial xidmət müəssisələri.
- Ehtiyac yarandığı təqdirdə hüquq-mühafizə orqanları.
- Məktəb rəhbərliyi.
- Müəllimlər.
- Valideynlər.

Bu multidisiplinar komandanın koordinasiyası isə məktəb sosial işçisi tərəfindən həyata keçirilməlidir [3].

2019-cu ildə dünya üzərində bullinqlə bağlı aparılmış tədqiqatlar göstərir ki, 12-18 yaş arasında şagirdlərin 20% müxtəlif formalarda bullinqə məruz qalıb, respondentlərin 30%-i isə həmyaşıdlarını müxtəlif formalarda bullinq edib. Təəssüf

ki, Azərbaycanda şagirdlər arasında bullinqlər bağlı hər hansı bir statistika olmadığı üçün real vəziyyəti şərh edə bilmirik, ancaq dünyadakı ümumi göstəricilərdən çox da fərqlənmədiyini demək mümkündür [1].

Azərbaycanda məktəblərdə olan problemləri sadəcə bullinqlə məhdudlaşdırmaq mümkün deyil. Erkən nikahlar, cinsi qısnama və istismar, əlilliyi olan şagirdlərin inteqrasiyasındakı çətinliklər, narkotik vasitələrdən istifadə, cinayətkarlığa meyillilik və s. sadalana biləcək ən ciddi problemlərdəndir. Bütün bu problemlərin həllində peşəkar məktəb sosial işçilərinin rolu əvəzedilməzdir.

Azərbaycan məktəblərində məktəb sosial işçilərinin rolları sinif rəhbəri, məktəb psixoloqu, məktəblinin dostu və müəllimlər arasında bölünüb. Bununla yanaşı, Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi ilə əməkdaşlığı çərçivəsində həyata keçirilən "Təhsildə sosial iş" layihəsinin ölkə üzrə həyata keçirilməsinə başlanılıb [6]. Düşünürük ki, bu layihə zamanla məktəb heyətinə sosial işçilərinin əlavə edilməsi üçün başlanğıc olacaq.

**Azərbaycan məktəblərində sosial iş təcrübəsinin tətbiqi bir sıra problemlərlə üzləşə bilər. Bu çətinliklərdən bəziləri aşağıdakılardır.**

- **Məlumatlılığın olmaması:** məktəb rəhbərləri, müəllimlər, şagirdlər və valideynlər arasında məktəb sosial işinin rolu və faydaları haqqında məlumatlılıq məhdud səviyyədə ola bilər. Bu kontekst çərçivəsində yanaşdıqda, sosial iş təcrübəsinin tətbiqi məktəb ictimaiyyətinə gətirdiyi dəyər haqqında yanlış təsəvvürlər yaratması qaçılmazdır.
- **Ənənəvi ailə dəyərləri:** Azərbaycan cəmiyyəti ənənəvi olaraq ailə və icma dəstəyinə arxalanır və buna böyük önəm verir. Məktəb sosial işi konsepsiyasının tətbiqi uşaq və yeniyetmələrin dəstəklənməsində, onların problemlərinin həllində ailə və ya icma rollarına müdaxilə kimi qəbul edilərsə, bu zaman müqavimət ilə qarşılana bilər.
- **Stiqmaların mövcudluğu:** bir çox cəmiyyətlərdə olduğu kimi, Azərbaycanda sosial işçiyə müraciət məsələləri ilə bağlı stiqma ola bilər. Bu, şagirdlər və ailələr arasında məktəb sosial işçilərindən dəstək istəmək və ya psixi sağlamlıq xidmətləri ilə məşğul olmaq xüsusunda qərəz və istəksizlik yarada bilər.
- **Məhdud resurslar:** Azərbaycanda məktəblər məktəb sosial iş proqramlarının təşkil edilməsini dəstəkləmək üçün uyğun resursların və maliyyənin təmin edilməsində çətinliklərlə üzləşə bilər.
- **İnkişaf imkanları:** Azərbaycanda məktəb sosial iş təcrübəsinə uyğunlaşdırılmış peşəkar təlim və inkişaf üçün imkanlar məhduddur. Bu, məktəb sosial işçilərinin öz sahələri ilə bağlı təcrübələri və yenilikləri izləmək və məlumatlı qalmaq şansına mane ola bilər.
- **Hüquqi məhdudiyyətlər:** Azərbaycanda məktəb sosial işçiləri ölkənin təhsil sistemi və sosial xidmətlər çərçivəsinə aid edilən hüquqi məhdudiyyətlərə uyğun davranmalıdır. Azərbaycanda sosial işçilərin fəaliyyəti ilə bağlı hüquqi

bazanın zəif olması, məktəblərdə çalışacaq sosial işçilərin də fəaliyyətinə əngəllər yarada bilər.

Bu problemlərin həlli Azərbaycanın xüsusi sosial və institusional və mədəni vəziyyətini nəzərə alan fərdi yanaşma tələb edir. Məktəbin sosial iş proqramlarına dəstək göstərmək və Azərbaycan məktəblərinin bu qəbildən olan ehtiyaclarını ödəmək, təcrübələri uyğunlaşdırmaq üçün maraqlı tərəflərlə, o cümlədən məktəb rəhbərləri, müəllimlər, valideynlər və icma liderləri ilə əlaqə saxlamaq vacibdir. Bundan əlavə, peşəkar inkişafa, mədəni həssaslıq təliminə və resurs bölgüsünə sərmayə qoymaq Azərbaycanda məktəb sosial iş təcrübəsinin tətbiqi ilə bağlı bəzi çətinliklərin öhdəsindən gəlməyə kömək edə bilər [5].

**Məktəblinin dostu layihəsi və məktəb sosial işçisi**

Məktəblinin dostu layihəsi çərçivəsində fəaliyyət göstərən işçilərlə məktəb sosial işçisi arasında bir sıra fundamental fərqliliklər vardır. Bunlardan başlıcası məktəblinin dostundan fərqli olaraq sosial iş akademik bir sahədir. Buna əsaslanaraq deyə bilərik ki, sosial iş sahəsində daim tədqiqatlar aparılır, akademik sahə kimi tədris olunur və qlobal xarakter daşıyır [3].

Müqayisənin uğurlu aparılması nöqteyi-nəzərindən yenidən qeyd etmək faydalı olar ki, sosial işçilər məktəblərdə şagirdlərin ailələri ilə əməkdaşlıq edərək onların biopsixososial inkişafını dəstəkləmək üçün müxtəlif ixtisaslı şəxslərdir.

Lakin məktəblinin dostu sosial işçidən fərqli olaraq daha çox nəzarət funksiyasını həyata keçirir. Aşağıda məktəblinin dostunun vəzifə öhdəlikləri qeyd olunmuşdur:

- Kameralara, giriş-çıxışlara, təxliyyə qapılarına, tənəffüs zamanı məktəb koridorları və bufetə, yanğınsöndürən balonların işlək vəziyyətinə nəzarətin təşkil edilməsi.
- Şagirdlərin qarşılanıb yola salınması.
- Şagirddə halsızlıq halı yarandıqda dərhal məktəb rəhbərliyinə və valideynlərə məlumat vermək, ilkin tibbi yardımın göstərilməsi, tibb otağına yönləndirilməsi.

Göründüyü kimi, məktəblinin dostu daha çox administrativ fəaliyyət göstərir. Buna görə də daha ciddi məsələ və problemlərin həlli üçün məktəblərdə sosial iş təcrübəsinin tətbiqi labüd xarakter daşıyır [3].

## Ədəbiyyat siyahısı:

1. “Azərbaycan məktəblərində bullinqin profilaktikasına ətraflı yanaşma” – Lalə Mahmudova, Bakı Araşdırmalar İnstitutu, 2019.
2. “Okul sosyal hizmeti ve kapsamı” – Dr. Öğr. Üyesi Emel Yeşilkayalı, İstanbul Üniversitesi
3. Altshuler, S.J., Reid Webb, J. (2009). School Social Work: Increasing the Legitimacy of the Profession. Children & School, 31(4), 207-218.
4. “Schulsozialarbeit” - Susan Lunatschek, Titus Simun

5. "School Social Worker Performance Evaluation: Illustrations of Domains and Components from the National Evaluation Framework for School Social Work Practice" – Karla B Horton, Amy Prudencio
6. https://sxa.gov.az/media-sxa/xeberler/tehsilde-sosial-is-layihesinin-olke-uzre-heyata-kecirilmesine-baslandi

**Пюнхани Сайяд оглы Аскерли**
**Сахила Лазым кызы Джаббарова**

## ТРУДНОСТИ В ОСУЩЕСТВЛЕНИИ ШКОЛЬНОЙ СОЦИАЛЬНОЙ РАБОТЫ В АЗЕРБАЙДЖАНЕ

**Резюме:** В исследовательской работе рассмотрены трудности, возникающие при применении школьной социальной работы в Азербайджане, объем школьной социальной работы и обязанности специалиста по социальной работе, работающего в этой области, а также сходства и различия школьной социальной работы с «Другом Школы», реализуемый Министерством Науки и Образования Азербайджанской Республики.

**Ключевые слова:** Образование, Социальная работа, Школьный социальный работник, Друг ученика

**Pünhani Sayyad Askerli**
**Sahila Lazim Jabbarova**

## DIFFICULTIES IN THE IMPLEMENTATION OF SCHOOL SOCIAL WORK IN AZERBAIJAN

In the research work, the difficulties encountered in the application of school social work in Azerbaijan, the scope of school social work and the duties of a social work specialist operating in this field, and the similarities and differences of school social work with the "Schoolchild's friend" project implemented by the Ministry of Science and Education of the Republic of Azerbaijan were researched.

**Keywords:** Education, Social work, School social worker, Schoolchild's friend.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.01.2024**

**УДК 7.067**
**DOI: 10.52094/3005-9941.45.2024.012**

**Бабир Зейнал**
**Институт Архитектуры и Искусства НАНА**
**младший научный сотрудник**
**E-mail: b.zeynal@mail.ru**

# РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОЙ МУГАМНОЙ КУЛЬТУРЫ В КОНТЕКСТЕ ГЛОБАЛИЗАЦИИ

**Резюме:** В статье исследуется развитие азербайджанской мугамной культуры в процессе глобализации, которая рассматривается как объективный исторический процесс. Было определенно, что на каждом этапе процесса глобализации, азербайджанский мугам, в силу объективных требований времени, преобразовывался, приобретая новые формы и особенности, при этом сохраняя изначальную константу.

**Ключевые слова:** глобализация, мировоззрение, культура, мугам

Современный мир развивается в стадии глобализма. На официальном сайте ООН значение этого термина излагается следующим образом: «Глобализация-это усиливающаяся интеграция экономик и обществ во всем мире» [4]. Этот, и многие другие источники под «глобализацией», в первую очередь, акцентируют на экономической интеграции. Вместе с тем, термин «глобализация» употребляется в отношении разных сфер человеческой деятельности: «военно-политическая глобализация», «социально-правовая глобализация», «научно-технологическая глобализация» и др. Исходя из этого, самый объективный анализ глобализации может быть сделан на основе культур. Конечно же, тут понятие «культура» должна быть рассмотрена в широком значении. В толковом словаре русского языка С.И.Ожегова это термин в первом значении имеет следующее определение: «Культура совокупность достижений человечества в производственном, общественном и умственном отношении» [3,с.252].

Человечество на протяжение веков, постепенно и постоянно, как бы запрограммировано, развивалось в процессе всеобщей интеграции. Этот путь, как изначальная идея вложенная в материю, проходил как объективный процесс мирового общественного развития.

Идея мировой целостности и всеединства утверждалась во всех мировых религиях: в буддизме, индуизме, христианстве, исламе и др.

Идея концептуального единства в той или иной форме рассматривались Конфуцием, Гераклитом, Платоном, Парменидом, Ксенофаном, Анаксагором, Фамой Аквинским, Т.Мальтусом, Г.Гегелем, И.Кантом и др. Приведем ряд примеров: Гераклит «и из всего одно, и из одного – все», Ксенофан: «все

едино, единое же есть бог», Анаксагор: «во всем есть часть всего» [2].

В объективном историческом процессе формирования империй, глобализация также происходила военно-политическом путем. Причем, важно подчеркнуть, что религиозные, национальные, расовые критерии не имели никакого значения. В качестве примера можно назвать восточные походы Александра Македонского, когда он в ходе своих завоеваний распространял в восточных странах греческую культуру, восточные походы Цезаря, в средние века тюркские, арабские, впоследствии испанские, британские и др. завоевания.

Начало нового времени ознаменовало собой подъем новой культуры на Западе. Первые кругосветные путешествия, которые во многом были стимулированы поиском новых торговых путей, индустриальная революция, поднявшая промышленность на новый уровень развития, стали значительными событиями на пути к глобализации. Важным историческим фактом, вынесший глобализацию на качественно новый уровень, стала Французская Буржуазная Революция, открывшая путь национального развития государств, провозгласившая социальные права, либеральные свободы, которые определили принцип и характер грядущей культуры. И вот Карл Маркс впервые употребил термин «глобализация». В одном из писем Энгельсу конца 1850-х гг. он писал: «Теперь мировой рынок существует на самом деле. С выходом Калифорнии и Японии на мировой рынок глобализация свершилась» [1].

Тут предстает самая принципиально-определяющая особенность развития мировой культуры. На протяжении всей истории, развитие человечества шло в духовном (иррациональном) и светском (рациональном) ключе. Так устоялись два полюса культуры: Восток и Запад. Однако, при всем своем принципиальном различии, Восток и Запад, как единство и борьба противоречий, по сути, являются два в одном, как «инь» и «ян» – две части одного целого. Так, они, стимулируя друг друга, поочередно и поэтапно формировали новые и новые культуры, тем самым обеспечив полноценное общечеловеческое развитие.

Культура, первые государства зародились на Востоке. Со временем, в Древней Греции нашла свое развитие рациональная, логическая наука. До этого греческие умы почерпнули многое у восточных мудрецов. В свою очередь, после воцарения ислама восточные умы задались познанием античной науки. В последствии, западные умы обратились к наследию исламской цивилизации, переняв много ценного от нее. Исламская фундаментальная наука оказала большое влияние на развитие западной науки. В том числе ряд достижений античной культуры нашли на Западе свое новое возрождение благодаря факту их сохранения в исламской культуре. Это положение четко наблюдается во всех сферах деятельности в этих двух

полюсах культуры: в философии, поэзии, музыке и др. Приведем ряд примеров: на Востоке изучались работы античных ученных Платона, Аристотеля, Плотина, Порфирия, Прокола. В свою очередь на Западе изучались труды Лао-цзы, Конфуция, или же Ибн Рушда (Аверроэс), Ар-Рази, Замахшари, Ибн Хальдуна, Ибн Мискавейха, Джалаладдина Руми и др. На Западе высокого признания достигает поэзия восточных поэтов Фирдоуси, Хайяма, Саади, Хафиза, Джами, Низами, Насир Хосрова и др.

В XX веке развитие пошло еще интенсивнее. Рациональное мышление покорило космос. Развитие кибернетики установило качественно новый уровень и систему отношений, в том числе и в международной системе. Так канадский философ, филолог и литературный критик Маршалл Маклюэн отмечал: «Посредством телекоммуникаций, средств массовой информации и компьютеров электричество превращает весь земной шар в глобальную деревню».

В современном мире Восток не в состоянии в материальном отношение что-то противопоставить этой высокотехнологической цивилизации. Но, конечно же, и не ассимилируется под доминированием рациональной культуры, а стоит на своих традиционных, духовных позициях. Эта универсальная духовность частью которой вот уже 2000 лет питается западная цивилизация. И в этой перспективе одним из ключевых направлений мирового развития необратимо становится политика «Диалоги культур», по сути подразумевающая диалог восточной и западной культуры, составляющие одну общую целостность.

Перейдя об общего к конкретному, можно сказать, что Азербайджан на протяжении долгого исторического пути развития, и в первую очередь исходя из своего географического расположения, был активным участником процесса глобализации. В XIX веке по итогом Русско-Персидской войны (1826-1828 гг.) Северный Азербайджан попадает под господство Российской Империи. Так на территорию Азербайджана начинает широкое проникновение западной культуры. Появляется плеяда просветителей: Мирза Джафар Топчибашев, Аббас-Кули-ага Бакиханов, Мирза Казым-бек, Исмаил-бек Куткашенский и др. Начинается тенденция перехода от традиционно-восточной культуры к светски-западной. В 1930 году в Шуше была открыта первая светская школа. В 1873 году в Баку по пьесе М.Ф.Ахундова ставится первый спектакль – «Визирь Ленкоранского ханства». В 1875 году Гасан бек Зардаби издает в Баку первую газету – «Экинчи». В 1894 году в Баку Н.Наримановым открывается первая библиотека - читателя.

Начинает свое широкое развитие театральная жизнь. К концу XIX века в Шуше, Шеки, Кубе, Елизаветполе (Гяндже) ставятся спектакли на азербайджанском языке. В 1891 году в Шуше было построено здание театра, в котором, особенно в летние сезоны, когда на отдых съезжались обучавшиеся в

Москве, Петербурге, Варшаве, Вене, Париже студенты-азербайджанцы, силами любителей и профессионалов ставились пьесы М.Ф.Ахундова, А.Ахвердиева. Здесь, впервые на азербайджанском языке состоялась постановка «Отелло» Шекспира (1904 г.). Ядро театральной труппы составляли такие крупные мастера сценического искусства в Азербайджане, как Гусейнкули Сарабский (Рзаев), Гусейнбала Араблинский (Халафов), а также превосходные актеры – Дж.Зейналов, А.Велиев, Мирза Ага Алиев, А.Гусейнзаде, Г.А.Аббасов и др. Репертуар драматического театра включал как пьесы азербайджанских драматургов – М.Ф.Ахундова, Н.Б.Везирова, А.Ахвердиева, С.С.Ахундова, Дж.Мамедкулизаде, так и произведения Шекспира, Мольера, Гоголя, Толстого и др. По ходу действия, в связи с характерностью действующих лиц, с соответствующими сценическими ситуациями, в целях усиления драматических моментов и кульминаций, исполнялись народные песни, звучала ашугская музыка, вокально-инструментальные и инструментальные мугамы. Так, например, для оформления спектакля Н.Б.Везирова «Ягышдан Ягмура» («Из дождя да в ливень»), (как свидетельствует рецензент газеты «Каспий» от 2 декабря 1898 года) были приглашены азербайджанские ашуги.

Бакинская музыкальная жизнь откликалась на памятные даты. Так, были проведены концерты, посвященные памяти П.И.Чайковского (1893), 10-летию со дня смерти И.С.Тургенева (ноябрь, декабрь 1893), 100-летию со дня рождения А.С.Пушкина (1899). Концертную жизнь в Баку в 80-90 гг. значительно оживляют также гастроли русских и зарубежных музыкантов-исполнителей: русской певицы А.Г.Меньшиковой, артистов Тифлисской оперы В.М.Зарудной, И.В.Тартакова, известного русского певца Н.Н.Фигнера, зарубежных певиц: Дезире Арто, Альмы Фострем, Луизы Никита, Алисы Барби, Ольги де Рубини, Адель Борги. С большим интересом были встречены фортепианные вечера с участием С.Ментер, а также замечательных пианистов: В.Н.Сафонова, Э.Зауэра, А.Зилоти, концерты зарубежных исполнителей Я.Залесской и выдающегося пианиста И.Гофмана. Среди гастролирующих исполнителей этого периода встречаются имена скрипача Ф.Ондржичека, виолончелистов А.Вержбиловича, К.Давыдова и др. Крупнейшим событием музыкальной жизни Баку, знакомящих общественность города с оперной классикой, явились гастроли труппы Тифлисского оперного театра, состоявшееся в 1889 году. Впервые в Баку был исполнен широкий оперный репертуар: «Русалка» Даргомыжского, «Жизнь за царя» («Иван Сусанин») Глинки, «Евгений Онегин» Чайковского, «Севильский цирюльник» Россини, «Трубадур» и «Отелло» Верди, «Кармен» Бизе. В дальнейшем бакинская театральная жизнь оживляется гастролями товарищества украинских артистов, поставивших оперу «Запорожец за Дунаем» С.Гулака-Артемовского, в представлении артистов варшавского балета, возглавляемого Л.Н.Гейтманом и

дирижером А.П.Шарпантье, бакинцы впервые увидели «Корсар» и «Жизель» А.Адана, «Коппелию» Л.Делиба. Яркий след в музыкальной жизни Баку оставили в 1900 году выступление замечательного русского певца Ф.И.Шаляпина, талантливо исполнившего главные партии в операх «Моцарт и Сальери» Римский-Корсакова, «Борис Годунов» Мусоргского.

При этом развивался и мугам. В развитии мугамной традиции особую роль играли музыкальные школы. В Шуше существовали несколько исполнительских школ, среди которых выделялась школа Харрата Кулу. Выходцами этой школы были выдающиеся ханенде Гаджи Гуси, Мешади Иси, Джаббар Карягды, Кечачи-оглы Мамед, тарист Садыгджан. После смерти Харрата Кули популярностью пользовалась школа Кор (Слепого) Халивы, обучавшего пению мугамов, игре на таре, кеманче.

Особую роль в развитии мугамной традиции играли сформировавшиеся музыкально-литературные общества (меджлисы). Наряду с вопросами мугама, музыки на меджлисах обсуждались проблемы связанные с литературой, живописью. Особо ценным было значение этих меджлисов для начинающих исполнителей. В первой половине XIX века в Шуше существовал меджлис, руководимый поэтессой Ашуг-Пери. В Кубе действовало общество «Гюлистани-Ирем», созданное А.К.Бакихановым. В Гяндже, а позднее в Тифлисе функционировало общество «Дивани-Хикмет», созданное М.Ш.Вазехом. Во второй половине XIX века создаются новые общества: в Шуше – «Меджлиси-Унс», в Шемахе «Бейтус Сафа», возглавляемое Сеид Азимом Ширвани, в Баку – «Меджмеуш шуар». Другим известным меджлисом в Шуше был «Меджлиси-Фарамушан». Создательницей и активной участницей «Меджлиси-Унс» была одна из передовых женщин своего века, – поэтесса, Хуршид Бану Натаван. Создателем «Меджлиси-Фарамушан» был ученый-энциклопедист М.М.Навваб. Создателем музыкального меджлиса в Шемахе был богатый меценат, известный знатокам мугама Махмуд Ага, гостем которого в 1858 году был Александр Дюма (отец). Среди музыкантов-исполнителей шемахинской зоны выделялись такие ханенде, как Мирза Мамедгасан, Мехти, тарист Хумайи. Музыкальный меджлис в Баку возглавлялся Мешади Малик Мансуровым, оказавшим влияние на формирование таких музыкантов, как Ага Керим Салик, Мирза Фарадж, а также Мешади Сулейман, Мирза (оба последних были сыновьями Мешади Малика). Что говорит о развитии региональных школ азербайджанского мугама.

Наряду с традиционными формами исполнения мугама, во второй половине XIX века широкую популярность приобретали исполнения мугамов в открытых публичных концертах в общей программе с исполнителями европейской музыки, а также в антрактах драматических спектаклей русских и зарубежных театральных трупп. Создаются «Восточные концерты»,

«Восточные вечера».

В ряду известных исполнителей XIX-начала XX века, кроме выше перечисленных, среди представителей раннего периода, можно назвать: Алекпера, Джафара, Юсифа Шахсенем оглы, Гасанджа, Гарачи Асада, Мирза Гусейна, Мирза Исмаила, Алескера (учителя Садыгджана) и др.; среди представителей позднего периода: Мешади Джамиль Амиров, Ширин Ахундов, Мирза Фарадж Рзаев, Мешади Зейнал Хагвердиев и др.

В процессе всех этих общественно-культурных обновлений и преобразований, особо следует сказать о кардинальной реконструкции тара, которую в 70-ых годах провел Мирза Садыг Асад оглу (Сдыгджан), что, можно сказать, и послужило основой для формирования национального характера азербайджанского мугама.

В начале XX века национальные самосознание в Азербайджане еще более усилилось, что привело к созданию первой республика мусульманского Востока. В ряду ярких личностей, просветителей, способствовавших развитию национального самосознания были Фирудин-бек Кочарли**,** Али-бек Гусейнзаде**,** Ахмед-бек Агаев**,** Джалил Мамедкулизаде и др. В 1901 году в Баку открывается первая во всем мусульманском Востоке светская школа для девочек. В том же году в Баку открывается первая музыкальная школа. В 1912 году в журнале «Шахбал» издается запись мугама «Эйраты» М.Д. Амирова.

Грандиозным событием культурной жизни стало появление первой мугам-оперы «Лейли и Меджнун» У.Гаджибейли, премьера которой состоялась в 1908. В последствии У.Гаджибейли написал целый ряд мугам-опер: «Шейх Санан» (1909), «Рустам и Зохраб» (1910), «Шах Аббас и Хуршид Бану» (1912), «Асли и Керем» (1912), «Гарун и Лейла» (1915). Под влиянием творчества У.Гаджибейли другие композиторы также обращались к жанру мугам-опер: У.Гаджибейли «Ашуг Гариб» (1916), М.Магомаева «Шах Исмаил» (1916) и др.

Научно-техническое развитие начала XX века оказало свое влияние и на развитие азербайджанского мугама. Начинается запись мугама на граммофонные пластинки. Первая грампластинка азербайджанских мугам исполнителей увидела свет в 1906 году. Выпустило эту грампластинку английское акционерное общество «Граммофон». В период с 1906 по 1914 годы сразу несколько европейских фирм грамзаписи, среди которых были такие фирмы как французская компания «Братьев Пате», германское АО «Спорт-Рекорд», российские «Монарх-Рекорд», «Граммофон-Рекорд», «Концерт-Рекорд», «Премьер-Рекорд» и «Экстрафон», выпустили десятки пластинок с записями азербайджанских мугамов, теснифов и дестгяхов.

В советский период развитие азербайджанского мугама как искусство достигает высокого развития. У.Гаджибейли на основе 7 мугамов: «Раст»,

«Шур», «Чаргях», «Сегях», «Баяты-Шираз», «Шуштер» и «Хумаюн» определил ладовую основу азербайджанской музыки. В этот же период Фикрет Амиров, соединив «мугам» и «симфонизм» в новом жанре «симфонический мугам», создает свою блестящую дилогию «Шур» и «Кюрд-Овшары». В последствии плеяда азербайджанских композиторов представила свои сочинения в этом жанре. Так Ниязи создает «Раст», С.Алескеров «Баяты шираз», Т.Бакиханов «Хумаюн» и т.д. Вагиф Мустафазаде на основе общего принципа мугама и джаза – импровизации представил новую форму «джаз-мугам». Новым стали исполнения целого ряда азербайджанских ханенде и инструменталистов, представивших мугам как искусство, то есть в форме эстетического выражения. Совершенство голоса и незаурядная манера исполнения обеспечили высокое признание их искусства. В этом ряду можно выделить творчество Хан Шушинского, Муталлим Муталлимова, Абульфат Алиева, Ахсан Дадашова, Габиль Алиева и др.

С восстановлением своей независимости Азербайджанская Республика вышла на качественно новый уровень развития. Падение советского режима дало старт возрождению духовности, национальному самосознанию. Открытие границ всему миру, в том числе и восточным странам, создало перспективу нового гармоничного развития азербайджанского общества. Все это проявило себя и на примере развития азербайджанского мугама, как музыкального выражения национальной культуры и мировоззрения. В это время мировая общественно-культурная среда находилась в стадии постмодерна, главным принципом которого стало «никаких правил». Главными постулатами концепции постмодерна стали ирония, игра, использование готовых форм. Выверенной формой разрешения мугама в мире глобализации и постмодерна можно назвать известную композицию «When The Music Dies», исполненную Сабиной Бабаевой вместе с Алим Гасымовым на конкурсе «Евровидение 2012». Композиция построена на непростом, продуманном синтезе. На фоне мугама (иррациональное) звучит современная поп-музыка (рациональное), в общей сложности, выражающая единство «Восток-Запад». В начале композиции мугам дается как универсальное, но затем, голосом Алима Гасымова в композицию добавляется национальное. В итоге утверждается не только принцип единство Восток-Запад и универсальность мугама, но и сохраняется национальная особенность.

Заключая вышесказанное можно сказать, что на каждом этапе процесса глобализации азербайджанская мугамная культура, исходя из конкретных мировоззренческих принципов времени, обновляясь и преобразовываясь развивалась, при этом сохранял свою внутреннюю константность.

## Использованная литература:

1) Аттали Ж. Карл Маркс. Мировой дух. М., 2008, с.192.
2) Досократики: доэлеатский и элеатский периоды/ пер. с древнегреческого А.Маковельского. Минск: Харвест, 1999, с.784 (Классическая философская мысль.)
3) Ожегов С.И. Словарь русского языка, Москва, «Русский язык», 1988.
4) http://www.un.org/ru/youthink/globalization.shtml

**Bəbir Zeynal**

## AZƏRBAYCAN MUĞAM MƏDƏNİYYƏTİNİN İNKİŞAFI QLOBALLAŞMA KONTEKSTİNDƏ

**Xülasə:** Məqalədə Azərbaycan muğam mədəniyyətinin inkişafı qloballaşma prosesində tədqiq olunur. Öz növbəsində qloballaşma tarixi proses kimi baxılır. Müəyyən edilib ki, qloballaşma prosesinin hər bir mərhələsində, zamanın obyektiv tələblərindən irəli gələrək, Azərbaycan muğamı yeniləşib, müasir forma və xüsusiyyətlərə yiyələnməklə yanaşı ilkin konstantlığın saxlayır.

**Açar sözlər:** qloballaşma, dünyagörüşü, mədəniyyət, muğam

**Babir Zeynal**

## DEVELOPMENT OF AZERBAIJANI MUGHAM CULTURE IN THE CONTEXT OF GLOBALIZATION

**Summary:** The article examines the development of Azerbaijani mugham culture in the process of globalization, which is considered as an objective historical process. It was certain that at every stage of the globalization process, Azerbaijani mugham, due to the objective requirements of the time, was transformed, acquiring new forms and features, while maintaining the original constant.

**Keywords:** globalization, worldview, culture, mugam.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 17.01.2024**

.

**UOT 297.**
**DOI: 10.52094/3005-9941.45.2024.013**

**Firəngiz Sabir qızı Məhərrəmova**
**müəllim**
**E-mail: f.sabirqizi@gmail.com**

# İSLAMDA TOLERANTLIQ İDEYASININ NƏZƏRİ MƏSƏLƏLƏRİ VƏ TƏCRÜBƏSİ

**Xülasə:** Sülh və tolerantlıq problemi tarix boyu insanlıq qarşısında həyatın vacib amili olaraq dayanmışdır. Sülh və tolerantlıq məsələlərinin bəşər tarixində bu günə qədər öz aktuallığını qoruyub saxlaması təəccüblü deyil. Tarixə diqqətlə nəzər yetirsək görərik ki, qardaşlıq, qarşılıqlı anlaşma, əmin-amanlıq, birlik hökm sürən cəmiyyətlərdə insanların rifahı ilə yanaşı tərəqqi, firavanlıq və bolluq hökm sürürdü. Əksinə, müharibələrin və qarşıdurmaların, düşmənçiliyin və çəkişmənin tüğyan etdiyi cəmiyyətlərdə isə rəzillik hökmran olmuş, ölkələr viran qalmış, parçalanmışdır.

Bir fərd özünü digərindən üstün gördükdə, bir kəs hüquqlarını digər birinin hüquqlarından daha öndə tutduqda, bu hal son nəticədə sülhün pozulmasına gətirib çıxarır. Cəmiyyətdə bu qəbildən olan münasibətlər, insanlıq üçün Allah tərəfindən öncədən müəyyən edilmiş hüquq və qanunların gözardı edilməsi insanların şərəf və ləyaqətinin tapdalanmasına səbəb olur. İslam dini Qurana əsaslanaraq, bu tərz davranışları qəti şəkildə rədd edir, bir insanın digərindən heç bir üstünlüyünün olmadığını bəyan etməklə üstünlük anlamının ancaq təqvada – Allah qorxusunda cəmləndiyini bildirir.

**Açar sözlər:** Sülh, İslam tolerantlığı, Quranda dözümlülük, din azadlığı

"Tolerantia" kəlməsi latın dilindən tərcümədə “dözmək”, “dözümlülük”, “əzaba könüllü dözmək” kimi mənalar kəsb edir. Əslində, mütəxəssislər “Tolerantlıq” anlayışına dəqiq tərif verməkdə çətinlik çəkirlər. Tolerantlıq anlayışı mərhəməti, insanpərvərliyi və qarşılıqlı hörməti ifadə edir. Bu məfhum ərəb dilində “bağışlamaq”, “mehriban olmaq”, “diqqət yetirmək və ya mərhəmət göstərmək” kimi mənalar verən “TƏSAMUH” sözü ilə ifadə olunur. Türkcədə “dözmək”, “səbirli olmaq”, “anlayışla davranmaq”, “bağışlamaq” kimi tərcümə olunan HOŞGÖRÜ sözü ilə yaxın mənalıdır.

İslamda da “tolerantlıq” sözünün qarşılığı kimi anlaşılan kəlmələr “dözümlü”, “xeyirxah”, “səxavətli” və “müxtəlif dinlərə mənsub insanların fərqli baxış və inanclarına hörmət” mənalarını daşıyır.

İslam anladır ki, kainat tövhid prinsipi üzərində qurulub. Uca Allahın vəhdaniyyət sifətlərindən biri Onun şərikinin olmaması, Bir olmasıdır. Varlıqların yaşam ahəngini tənzimləyən, onları hərəkətə gətirən birlik və nizam hər hansı ziddiyyət, çəkişmə və münaqişəni inkar edir: “Əgər (yerdə və göydə) Allahdan

başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) fəsada uğrayardı" (Əl-Ənbiya surəsi, 22).

Dinimizdə tolerantlıq İslamın əsas ünsürü kimi qəbul edilir. Qurani Kərimin yüzlərlə ayəsi müsəlmanları sülhsevərliyə və başqa dinlərə qarşı dözümlü davranmağa çağırır. Zatən İslam bəşər övladını zorakılıq deyil, ədalətə, azğınlıq deyil, tərəqqiyə, xəyanət deyil, sədaqətə, fəlakət deyil, səadətə, məhvə deyil, nicata səsləyir. Rasulullah Muhəmməd (sallallahu aleyhi və səlləm) də Allahın buyruqlarına sadiq qalaraq peyğəmbərlik fəaliyyətində tolerantlıq prinsipinə riayət etmişdir. Peyğəmbərimiz (sas) 23 illik böyük missiyası ərzində heç kimi İslamı qəbul etməyə məcbur etməmişdir. Əksinə, başqa dinlərin nümayəndələri ilə barışığa dəvət etmişdir. Qurani-Kərimin Nəhl surəsinin 125-ci ayəsində Allah tərəfindən hər bir müsəlmana yaxşılıq və hikmətlə İslama dəvət etmək əmr edilmişdir: "Rəbbinin yoluna hikmətlə və gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl şəkildə mübahisə et".

"Mumtəhənə" surəsinin 8-ci ayəsində isə: "Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!", buyurulur.

"Kəfirun" surəsinin 6-cı ayəsi "Sizin dininiz sizə, mənim dinim mənə aiddir" kimi mənalanır. Bu ayədən aydın görünür ki, insanlar müxtəlif inamda, əqidədə, düşüncədə, dünyagörüşündə, fikirdə ola bilərlər və müsəlmanlar onlara qarşı necə münasibət formalaşdırmalıdır.

Uca Allah Qurani-Kərimdə aləmlərə rəhmət olaraq göndərdiyi sevimli Peyğəmbərinə (sas) belə buyurur: "Biz səni onların üzərində gözətçi qoymamışıq və sən onların vəkili də deyilsən! Sənin vəzifən ancaq təbliğ etməkdir" ("Ənam" surəsi, 107; "Ali-İmran" surəsi, 20), "Hər kəsin qazandığı günah ancaq özünə aiddir. Heç bir günahkar başqasının günahını daşımaz" ("Ənam" surəsi, 164). Bu ayələrdən bir daha anlaşılır ki, hər kəsin öz seçiminin nəticəsini görəcəyi, əməlinin qarşılığını alacağı baxımından onu öz inamında, dinində və düşüncəsində olduğu kimi qəbul etmək islam tolerantlığıdır.

Hətta başqa bir ayədə Uca Allah müsəlmanlara müşriklərin "tanrı" olaraq qəbul etdiyi, tanrılaşdırdıqlarına qarşı necə davranılmalı olduqlarını bu sayaq bildirir: "Allahdan başqalarına tapınanları söyməyin. Yoxsa onlar da bilmədikləri üzündən Allahı düşməncəsinə söyərlər..." ("Ənam" surəsi, 108-ci ayə).

Tolerantlıq, həmçinin, özündən zəif olana belə, daha güclüyə bəslədiyin eyni cür münasibəti göstərməyi bacarmaqdır. Müsəlmanlar İslamın yayılmağa başladığı, kafirlərdən sayca az və zəif olduqları ilkin dövrlərdə tolerantlıq göstərdikləri kimi, güclü olduqları dövrlərdə də eyni qaydada ona əməl edirdilər.

Bu fakt da danılmazdır ki, İslam dini həmişə insanlığa xeyirxahlıq nümunəsi olub, başqa dinlərin nümayəndələrinə hörmət və dözümlülük sərgiləyib. Bu dinlərin mənsubları ilə sülh şəraitində yaşamağı, fitnələrə, müxtəlif düşmənçilik münasibətlərinə isə son qoymağı təbliğ edib. "Kitab əhlinin zülm edənləri istisna

olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin! Və (onlarla söhbət etdikdə) belə deyin: "Biz həm özümüzə nazil olana (Qurana), həm də sizə nazil olana (Tövrata və İncilə) inanırıq. Bizim də Allahımız, sizin də Allahınız birdir. Biz yalnız ona təslim olanlarıq!" ( Əl-Ənkəbut surəsi, 46-cı ayə).

Dinimiz "əhli-kitab" sayılan din nümayəndələrinə dözümlüyüyü təbliğ etdiyi kimi, Allaha şərik qoşan müşriklərlə, bütpərəstlərlə münasibətdə də insanpərvərlik göstərməyi tövsiyə edir: "Əgər müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını dinləsin. Sonra onu əmin olduğu yerə çatdır. Çünki onlar bilməyən bir tayfadır!" ("Tövbə" surəsi, 6-cı ayə).

İslama görə tolerantlıq müxtəlif inanclı insanlar arasında bir körpüdür. Allah belə buyurur: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır." ("Hucurat" surəsi, 13-cü ayə). Ayədən anlaşılan mənaya görə, insanların bir-birini tanıması, müxtəlif xalq və millətlər olaraq aralarında qarşılıqlı münasibətlərin formalaşması İslamda tolerantlığın əsasıdır. İnsanlar eyni yaradılmadığı üçün cəmiyyətdə tolerantlıq qaçılmaz bir dəyər olaraq qarşımıza çıxır. Bu günə kimi yer üzünə gəlmiş və hazırda həyatda olan insanların heç birinin barmaq uclarındakı izlər belə eyni deyil. Hətta bir yumurtadan doğulan əkizlər də fərqli xarakter nümayiş etdirir, bəzi əlamətlərlə bir-birindən seçilirlər. Əgər bu müxtəliflik olmasaydı, tolerantlığa da ehtiyac duyulmazdı.

Allah Quranda müsəlmanların müxtəlif dinlərin mənsublarına, hətta inanmayanlara qarşı necə tolerant davranmalı olduqlarını insanların müxtəlif yaradılış prinsipi ilə izah edir. Uca Yaradan belə buyurur: " ... Sizin hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi vahid bir ümmət edərdi. Lakin (bu müxtəliflik) Allahın verdikləri ilə sizi imtahan etməsi üçündür. Elə isə yaxşı işlər görməkdə bir-birinzlə yarışın. Hamınızın axır dönüşü Allahadır..." ("Maidə" surəsi, 48). Göründüyü kimi Rəbbimiz hər zaman dözümlülüyü, tolerant olmağı əmr edir. Allah Hz.Musanı (ə) və qardaşı Hz.Harunu (ə) Rəbbini inkar edən, özünü tanrı olaraq qələmə verən, qəddar və azğın Misir hökmdarı Fironun yanına yollayarkən onunla necə davranmalı olduqlarını belə buyurur: "Fironun yanına yollanın. O, həqiqətən, azğınlaşıb həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun!" ("Taha" surəsi, 43-44).

Hz.Muhəmmədin (sas) Allahın dininə dəvət yolunda dözümlü davranması haqda Quranda belə açıqlama verilir: "Allahın mərhəməti səbəbinə sən onlarla yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün bağışlanmaq dilə, işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən Allah təvəkkül edənləri sevər!" ("Ali-İmran" surəsi, 159).

Qurani Kərim münasibətlərdə tolerantlığa nail olmaq üçün ədalətli davranmağı əmr edir: "Yetimin malına, xeyirxah məqsəd (onu qoruyub saxlamaq, çoxaltmaq)

istisna olmaqla, həddi-buluğa çatana qədər yaxın düşməyin. Ölçüdə və çəkidə düz olun. Biz hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyirik. Söz söylədiyiniz zaman (lehinə və ya əleyhinə danışdığınız adam) qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdi yerinə yetirin. (Allah) bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb öyüd-nəsihət qəbul edəsiniz!" ("Ənam" surəsi, 152-ci ayə).

Uca Allah "Bəqərə" surəsi, 256-cı ayədə: "Dində məcburiyyət (zorakılıq) yoxdur..." bildirməklə inam azadlığı prinsipini ortaya qoyur. Digər ayələrlə isə həmin fikri dəstəkləyir. "İsra" surəsinin 107-ci ayəsində: "De: "İstər inanın, istərsə də inanmayın...", "Kəhf" surəsinin 29-cu ayəsində: "De: "Haqq Rəbbinizdəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın...", "Kəfirun" surəsi 6-cı ayədə: "Sizin öz dininiz var, mənim də öz dinim!" kimi mənalanır. Beləliklə, sadalanan ayələr İslamın dini etiqad azadlığına verdiyi dəyəri göstərir. Ayəyə görə insanlar səhv əqidədə olsalar belə, varlıqları inkar edilə bilməz. İman daxili inamdan, qəlbdən gəlməlidir. İnsanı iman etməyə məcbur etmək mümkün deyil. Belə ki, insanların əqidəsindəki fərqliliklər Yaradanın hikmətindən qaynaqlanır və Onun iradəsinin təzahürüdür. Göründüyü kimi, İslam istənilən əks fikrə qarşı zorakılığı istisna edir, insanlar arasında dözümlülük və sülh münasibətini ön plana çəkir. Qurani Kərimdə açıqlanan bu fikirlər İslamda dözümlülüyün prioritet olduğunu göstərən ən bariz nümunələrdir.

İslam tolerantlığına daha bir mühüm dəlil kimi Peyğəmbərin (sas) 622-ci ildə (hicrətin birinci ili) Mədinənin müsəlman və qeyri-müsəlman (yəhudi) əhalisi arasında bağladığı müqaviləni göstərmək olar. Həzrəti Muhəmməd (sas) Məkkədən Yəsribə (Mədinəyə) köçdükdən sonra "Mədinədə yəhudilər və xristianlar müsəlmanlarla birlikdə ictimai həyat yaşayacaqlar" deyə bir qanun çıxardı, yəhudi və xristianların öz dinlərinə sadiq qalmalarını qadağan etmədi. Bu sənəd bəşər tarixində ilk Konstitusiya kimi tanınmaqla 47 maddədən ibarət olmuşdu: bunlardan 23-ü müsəlmanlar arasında münasibətləri tənzimləyir, onların hüquq və vəzifələrini müəyyənləşdirirdi; qalan 24 maddə isə müsəlmanlarla qeyri-müsəlmanlar arasında yaranan münasibətləri tənzimləyirdi. Bilindiyinə görə, həmin dövrdə Mədinə ətrafında bir çox yəhudi qəbilələri yaşayırdı. Konstitusiya onlara 25-ci maddəsində "zimmi" hüququ əsasında İslam ümmətinin bir hissəsi sayılmaq imkanı verdi. Sənəddə bildirilirdi ki, İslam icması üzvlərinin dili və mənşəyi coğrafi meyarlarla deyil, iman və əqidə vəhdəti ilə müəyyən edilir, başqa dinə mənsub insanların hüquqlarını qorumaq və onlarla yaxşı rəftar etmək hər bir müsəlmanın borcudur.

İslamda insanları etnik mənsubiyyətə görə bölmək cəhalət sayılır. Muhəmməd peyğəmbərin (sas) səhabələri arasında müxtəlif millətlərə mənsub insanlar var idi, fars, həbəş, misir, xorasan əsilli, hətta yəhudi və xristianlıqdan dönmə müsəlmanlar da az deyildi.

Yuxarıda sadalananlar İslamın tolerant din olduğu fikrini bir daha təsdiqləyir. Qurani Kərimdəki ayələrə və bir çox hədislərə istinadən İslamın sülh və xeyirxahlıq dini olduğunu əminliklə söyləyə bilirik.

## Ədəbiyyat siyahısı:

1. Qurani Kərimin Azərbaycan dilində məalı. Z.M.Bünyadov, V.M.Məmmədəliyevin tərcümə və şərhləri ilə, Bakı, 2009
2. Müsəlman əxlaqı. Məhəmməd Əl-Qəzali, Bakı, 2012
3. İslama giriş. Məhəmməd Həmidullah, Bakı, 2006

**Фирангиз Сабир Магеррамова**

## ИДЕИ ТОЛЕРАНТНОСТИ В ИСЛАМЕ: ВОПРОСЫ ТЕОРИИ И ПРАКТИКИ

**Резюме:** Проблема мира и толерантности на протяжении всей истории стояла перед человечеством как важный фактор жизни. Неудивительно, что вопросы мира и толерантности по сей день остаются актуальными в истории человечества. Если мы внимательно посмотрим на историю, то увидим, что прогресс, процветание и изобилие преобладали наряду с благополучием людей в обществах, где господствовали братство, взаимопонимание, мир и единство. Напротив, в обществах, где свирепствовали войны и конфликты, вражда и раздоры, царил порок, а страны были опустошены и разделены.

Если человек ставит себя выше других или свои права важнее прав другого, это в конечном итоге наталкивает к нарушению мира. Такие отношения в обществе, игнорирование прав и законов, предопределенных Богом для человечества, приводят к попранию чести и достоинства людей. Основываясь на Коран, исламская религия категорически отвергает такое поведение, заявляя, что ни один человек не имеет превосходства над другим, и утверждает, что превосходство заключается только в благочестии – страхе перед Богом.

**Ключевые слова:** Мир, ислам и толерантность, терпимость в Коране, свобода вероисповедания

**Firangiz Sabir Maharramova**

## THEORETICAL ISSUES AND PRACTICE OF TOLERANCE IDEA IN ISLAM

**Summary.** The problem of peace and tolerance has stood as an important factor of life in front of humanity throughout history. It is not surprising that the issues of peace and tolerance remain relevant in human history to this day. If we look carefully at history, we will see that progress, prosperity and abundance prevailed along with people's well-being in societies where brotherhood, mutual understanding, peace, and unity prevailed. On the contrary, in the societies where wars and conflicts, enmity and strife raged, vice reigned, and the countries were devastated and divided.

When one individual sees himself as superior to another, when one puts his rights before the rights of another, this ultimately leads to a breach of peace. Such relationships in society, ignoring the rights and laws predetermined by God for humanity, lead to the trampling of people's honor and dignity. Based on the Qur'an, the Islamic religion categorically rejects this kind of behavior, declaring that one person has no superiority over another, and states that the meaning of superiority is only in piety - the fear of God.

**Keywords:** Peace, Islam and tolerance, reconcilability in the Koran, freedom of religion.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 29.01.2024**

MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
МИР КУЛЬТУРЫ
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
THE WORLD OF CULTURE
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

**T E A T R S Ə N Ə T İ**

**UOT 792.**
**DOI: 10.52094/3005-9941.45.2024.014**

**Aydın Ağa Yunus oğlu Talıbzadə**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor**

# AZƏRBAYCAN TEATRI: KÜLƏK VƏ SU
## (teatr tarixinin mikro-konseptual modeli)

Teatr su kimidir: orada nə oynarsan, nəyə baxarsan, həməncə axar gedər.

Teatr külək kimidir: səni, məni gözləməz; anında qaçar gedər, tarixi aşar gedər.

Ona görə ki, teatr daim indidir: keçmişdən gəlmir, gələcəyə getmir. Ona keçmiş və gələcək fikirləşən, nəzəriyyə "düzəldən" "şünas"lardır, tədqiqatçılardır. Aktyorun seyrçi ilə ünsiyyəti zamanı tarix və nəzəriyyələrin hamısı mötərizə dışında qalır.

Çünki teatr sənətinin mayasında materiya yox, ruh dayanır.

Külək ruhu təmsil edər, ruha bənzər: onu görmək imkansız; hərçənd əlamətləri aşkar...

Azərbaycan folkloru "bu, nədir?" sualı ilə məntiqi sınağa çəkib də əbəsdən soruşmur ki:

"Bir atım var cahanı,
Gəzər cümlə cahanı,
Gələrəm başın kəsməyə,
Nə əti var, nə qanı."

"Küləkdir" bu tapmacanın cavabı: onu ruh kimi də, fikir kimi də çözüb anlamaq mümkün. Bu da o deməkdir ki, ***külək, ruh, fikir*** yox ola-ola var olan oxşar təzahürlərdir; onların mövcudluğu yalnız nişanələrindən məlum.

Teatrın da əti yox, qanı yox: amma cahanda mövcuddur və bir dünya güzgüsüdür. Əti, qanı olmayan bir nəsnəyə nə bina? Onda belə çıxır ki, "teatr binası" anlayışının özü də nonsensdir, tam şərtilikdir. Nə üçün? Mən məsələni niyə bu dərəcədə mürəkkəbləşdirirəm? Suala cavab verməkdən ötrü gərəkdir ki, qədim yunan teatrı tarixini təzədən vərəqləyib "teatr" sözünün mənasını, dünya elminə yetərincə bəlli olmasına rəğmən, bir də nəzərdən keçirək.

Filosof N.Speranskaya yazır ki, ***"teatron"*** sözü "baxmaq, görmək, seyr etmək" kimi başa düşülən ***"teomay"*** felindən törəmədir. Bu semantika sırası "ağlın müşahidəsi" anlamını da özündə qapsayır. "Teatron" sözü etimolojisinə görə ***"teoriya"*** sözünə yaxınlaşır ki, bu da, A.J.Festyucerin açıqladığı kimi, əvvəllər seyr, görmə ideyaları ilə qiyaslanırdı. Hərçənd peripatetiklər[1] sözün birinci hissəsini tanrı mənasında qavranılan ***"teos"*** kəlməsilə əlaqələndirirdilər. Ancaq romalılar

yunanlardan öncə "seyr" *(contemplare)* sözünə dini məna yükləyib bunu məbədə *(temple)*, yəni cahana heyranlıq kimi yozdular.[2] Teatr sənəti nəzəridir: ona görə ki, teatr eydosların zühurunun müşahidə məkanıdır, tanrı ilə insanların görüşdüyü aralıq dünyanın pilləsidir, darvazasıdır".[3]

Qədim yunan fəlsəfəsində eydos həm ideyanın özüdür, həm də konkret vizuallığa malik təzahürdür: Aristotelə görə isə eydos formadır, mahiyyətin, cövhərin görükməsidir.[4] Hər necə olursa olsun, həqiqətən, heç kəs tarix boyunca "teatr nədir?" sualını yüzfaizli əminlik və dəqiqliklə cavablandıra bilmir. Teatr nə aktyordur, nə dekor, nə rekvizit, nə butafor, nə geyim, nə qrim, nə maska, nə səhnə, nə pərdə, nə tamaşa, nə də seyrçi salonu. Barmağını konkret nəyinsə üstünə tuşlayıb demək olmaz ki, bax, teatr budur...

Elə isə nədir teatr?

Kiməsə qəribə görünsə də, söyləyəcəyəm: ***teatr boşluqdur.***

Tamaşanın mövcudluğu üçün məhz boşluq mütləq şərtdir. Bu kontekstdə eydosla tamaşa mahiyyət etibarı ilə bir-birinə müsavi olur.

Teatr elə bir boşluqdur ki, sən orada eydosu tamaşa kimi seyr edirsən; harada ki bir axşam hüdudlarında zamanla ***(bədən, söz-eyləm)*** zamansızlığın ***(ruh, tanrı, kosmos),*** insanla ***(şəxsiyyət)*** ideyanın ***(fəlsəfi fikir),*** fərdlə ***(tək bir nəfər)*** toplumun ***(qanunlar, başqaları və kütlə)*** sosial-siyasi, dini, kulturoloji, aksioloji, koqnitiv-psixoloji əlaqələri bədii sistemdə imtahan edilir, onlar arasındakı enerji dövriyyəsi və mümkün transformasiya paradiqmaları yoxlanılır.

Mənim düşüncələrimin doğruluğunu təsdiqləyən bir fakt da Çin mədəniyyətindən gəlir: Çində "teatr" anlayışı ***"boşluq" və "döyüş təbərzini"*** mənalarını verən heroqliflərlə bildirilir.[5] Burada döyüş təbərzini aktyor ifası zamanı boşluğa sanki şimşək "salxımları" kimi səpələnən enerji diaqramını vizuallaşdıran karandaşdır. Boşluq isə əsasların əsasıdır: haradasa hörümçək toru kimi bir nəsnədir; xəfif bir toxunuşdan çoxsaylı vibrasiyalarla dolur, "canlanır", titrəyir, enerjini formalar illüziyası kimi yansıdır.

***Varlıq ona görə var ki, boşluq var.*** Yer kürəsi boşluq içrə bir zəvvardır. Boşluqdan qurtulub boşluğa çatmaq: budur əsl dao, yəni yol. Sonucda "rahatlıq aydınlanmaqdır, aydınlanma boşluq, boşluq isə eyləmsizlik".[6]

İnsan gərək idrakını, ürəyini boşaldıb təmizləsin ki, nəyisə öyrənməyə, qavramağa, sevməyə hazır olsun.

***Bilgisayarın yaddaş faylları dolanda ora daha heç nə yüklənmir.***

Teatr da ol səbəbdən boşluqdur[7] ki, kimsə öz təsəvvürlərini səhnə fəzasına proyeksiya edə bilsin, boşluqda vibrasiya yaratsın və bu proyeksiya, bu vibrasiya seyrçinin ürəyində, idrakında güzgülənib onu etkiləndirsin. Bu zaman seyrçini də resipiyentə (qəbulediciyə) çevirən onun öz içindəki boşluqdur.

***Teatr həmişə başqasının təsəvvür evidir, laboratoriya, kollayder tipajında mövcud təsəvvür evidir:*** orada kainatın, təbiətin, insan və predmetlərin enerjisi qarşılaşır, bir-birinə qoşularaq sinerjiyə çevrilir. Məhz bu sinerji hadisə yaradır,

ancaq ləngimir, səhnədən yel kimi keçib ətrafa dağılır və yenidən teatrın boşluğunu özünə qaytarır. Bu mənada tamaşa başqasının təsəvvür evinə, ilğımlar evinə səmimi dəvətdir. Seyrçi səhnə boşluğuna müvəqqəti olaraq vibrasiya prinsipilə köçürülmüş təsəvvür məkanının, təxəyyül evinin, ruhlar dünyasının, illyuziya səltənətinin qonağıdır.

***Teatr energetik dalğadır, vibrasiyadır: münasibət dalğası, münasibət vibrasiyasıdır;*** fikir, emosiya və assosiasiyaların bir-birinə çarpılmasından meydana gəlir. Ona görə də ***"ifaçılıq sənətinin bütün növləri kinetikdir.***[8] Bununla mübahisə etmək nə demək: gün kimi aydın məsələdir.

***Teatrşünaslıq da, əslində, teatrı yox, teatrın kinetikasını öyrənir,*** fiziki sistemin keyfiyyətini təyin edən enerji axınlarının, enerji çevrilmələrinin, müxtəlif impulsların, sosial, fəlsəfi, bədii konseptlərin, epistemlərin, loqosların səhnə hadisəsinin oluşmasına təkan vermək qabiliyyətini araşdırır, tamaşanın emosional vibrasiyasını, onun yaratdığı diskursları təhlil edir. Zatən, emosional vibrasiya olmadan canlı ünsiyyət deyilən bir proses sıfır həddinə enir: bu da o deməkdir ki, tamaşa ölüdür. Seyrçi isə teatra hər zaman emosional səadətin zirvəsinə çatıb xoşbəxt olmaq üçün təşrif buyurur. Ona görə ***hər bir sənət əsəri duyğusallıq qatında partlayışa hesablanmış pulsar səciyyəli bir bombadır.***

Mən də bu müstəvidə dayanıb göz önünü fənərlə işıqlandıra-işıqlandıra Azərbaycanda avropatipli teatrın 150 illik tarix qəsrinə daxil oluram, milli mədəniyyətdə bomba effekti yaratmış, seyrçiləri emosional səadətin zirvəsinə çatdırmış tamaşaları axtarıram; bu teatrın taleyində sosial-psixoloji bir tendensiya kimi davamlı şəkildə hansı halların, nə kimi yaşantıların təkrarlandığını, ekzistensional təməlin nədən ibarət olduğunu özüm üçün aydınlaşdırmaq əzmində bulunuram.

İstəyirəm ki, Azərbaycan teatrının tarixinə və poetikasına eksklüziv konseptual yanaşma sərgiləyərkən maarifçilərin ***"dünyada və bizdə"*** konstruktundan çıxış edim, Azərbaycanda, şünaslar tərəfindən çox-çox sonralar "milli" adlandırılmış, avropatipli teatrın tarixini mərtəbə-mərtəbə gəzərək Azərbaycan teatrı tarixinin konseptual modelini təqdim edim teatr cameəsinə. Elə bu məqsədlə də:

## *BİRİNCİ MƏRTƏBƏ*

***Külək birinci mərtəbəni həmişə az tutur. Birinci mərtəbə ən qaranlıq, küçəyə ən yaxın haylı-küylü mərtəbədir, iclas və məşvərətlər üçün ən yararlı mərtəbədir. Azərbaycan teatrının birinci mərtəbəsinə Avropa maarifçiliyinin ideyalarını Rusiyadan əsən küləklər toparlayır və bu ideyalar orada suya dönüb teatra doğru axır...***

Azərbaycanda ***avropatipli teatrın təşəkkülü (1873-1923-cü illər)***[9] prosesi Qərbin maarifçilik "pandemiyası"nın[10] Şərqə pərdələnmiş müstəmləkəçilik ideologiyası kimi yayıldığı dövrdə gerçəkləşir və ictimai-siyasi, kulturoloji mühitin səciyyəsindən asılı olaraq 50 illik uzun bir zaman müddətinə sığışır. Öz təşəkkül

çağlarında[11] avropatipli Azərbaycan teatrı nə cür bir təsnifat paradiqması ilə təqdim edilə bilər?

Bir tərəfdən, heç şübhəsiz ki, bu, ***təziyə ovqatlı faciə teatrıdır, melodram-müsibət teatrıdır,*** kükrəyən primitiv, səmimi ehtiraslar, yanıqlı səslər teatrıdır, maarifçiliyin "ağıl və borc" ehkamlarına istinadən qurulmuş ***deklamasiya teatrıdır,*** öyüdə, nəsihətə, proqresə köklənmiş ***ziyalıların qüssəli giley-güzar teatrıdır,*** fitri istedadlar teatrıdır və sənət məcnunlarının teatrıdır. Hətta Azərbaycanın muğam üstündə bəstələnmiş ilk milli operası belə təziyənin, agının, mərsiyənin bədii-estetik parametrləri içindən zühura gəlir.

Digər tərəfdən isə bu, ***Molla Nəsrəddin lətifələrinin, meydan məzhəkələrinin ovqatına köklənmiş komediya (qəmediyyə) teatrıdır,*** "Vay şələküm-məlləküm" və "Qıtqılıda" oyun havalarının ritmik patternlərini yansıdan ***qaravəlli teatrıdır, operetta teatrıdır,*** Novruz şənliklərinin Kosa və Keçəl personajlarını içində permanent yaşadan ***bayram teatrıdır,*** söz jonqlyorlarının teatrıdır, məsxərəbaz teatrıdır. Bu tarixi məsafədə Azərbaycan teatrı xidmətçi personalı olmayan, təkəm-seyrək müxtəlif məkanlarda[12] tamaşa oynayan, rejissordan yalnız bir təşkilatçı, lider-aktyor-müəllim statusunda faydalanan, məsrəfi əksərən mədaxilini üstələyən ***kasıb teatrdır,*** bütün parametrlərinə görə çar Rusiyasının öz qastrolçularını göndərdiyi ***əyalət teatrıdır*** və bu teatr yalnız mühitə, köhnəliyə, maarifçiliyə münasibətdə reflektivdir: onu böyük mənada nə I Dünya müharibəsi, nə reformasiyaların əvəzlənməsi, nə də aktual siyasi gündəm maraqlandırır, cəmi bir-iki istisna pyesi çıxmaq şərtilə.

Teatr tamaşalarının rejissurası isə tamamilə ***iddiasız rejissuradır,*** hər şeydən öncə teatrın var olmasından ötrü mübarizə aparan ***maarifçi rejissuradır,*** dramaturq və aparıcı aktyorların ***təşəbbüs rejissurasıdır.*** Ol səbəbdən Rusiyadan import edilmiş avropatipli teatrın poetikasına ilk milli naxışlar Azərbaycan aktyorlarının şərqli və qafqazlı koloritində özünü tanıdan ifa manerası ilə, passionar enerjisilə "toxunur".

Avropatipli teatrın milli mədəniyyətdə təşəkkülü prosesində formalaşmış teatr poetikası, elə bilirsiniz, təkcə Azərbaycanda belə olub? Əsla. Yaxın Şərq və Orta Asiya ölkələrinin əksəriyyətində bu proses oxşar maarifçi partituraları, oxşar qərbli ssenariləri əsasında həyata keçirilib və buna görə də teatrlar öz bədii-estetik mündəricələri, poetikaları, hətta taleləri etibarı ilə bir-birilərinə bənzəməyə başlayıblar. Fikirlərimin doğruluğunu isbatlamaq üçün müasir rəqsin uğurlu tədqiqatçılarından biri sayılan Andre Lepekini sitatlaşdırmaq istərdim, harada ki o, ifaçılıq sənətlərinin sıxışdırılmış vaxtını Qərbi Avropa geosiyasətinin müstəmləkəçi qurğularının (konstruksiyalarının) ***alleqoriyası*** bilir və hesab edir ki, bu, ifaçılıq sənətlərinə ***muştra*** (hərbçi məşqi) və ***əmr*** (hüquqi qanunvericilik) formalarında yansıyıb.[13]

Bəs görək Avropa teatrını XIX əsrin sonu XX yüzilin əvvəllərində hansı kreativ tendensiyalar bürümüşdü? Avropa teatrı bu çağlarda köklü repertuar

dəyişikliyi yaşayırdı, İntibah, maarifçilik, romantizm dövrünün pyesləri "yeni dram" (1860-1914-cü illər) nümayəndələrinin əsərlərilə əvəzlənirdi, dram bir janr kimi daha çox aktuallıq kəsb edirdi, teatr estetikası tamamilə başqalaşırdı, rejissor teatrı səhnə sənəti dünyasında dominant mövqelərə sahiblənirdi, "azad teatr" ideyası prinsipial şəkildə XX əsrin yeni teatr trendinə çevrilirdi. [14]

Bu o deməkdir ki, Azərbaycanın avropatipli teatrı hələ öz təşəkkül çağlarında Qərbin və Rusiyanın teatrlarından ictimai-siyasi, sosial-psixoloji, kulturoloji şəraitin diktəsilə, ən yaxşı halda, ***azı 100 il geri qalırdı.*** Avropa teatrı tribuna, kafedra olmaqdan, pafoslu nitqdən imtina etdiyi bir vaxtda Azərbaycan teatrı məhz bu teatr konseptlərinə doğru hələ təzə-təzə addımlayırdı, pafosu, patetikanı əyninə güclü, təsirli ifadə donu kimi biçirdi. Müasir Azərbaycan teatr mədəniyyətinin çoxsaylı problemlərinin mental, professional, duyğusal qaynağı məhz bu təşəkkül prosesinin mürəkkəb sosial-kulturoloji, psixoloji ziddiyyətlərindədir.[15] Azərbaycan teatrı özünü bu problemlər və psixoloji ziddiyyətlərlə birgə tanıyıb dərk etsə də, XX əsr boyunca daim rus və Avropa teatrları ilə ayaqlaşmağa, aradakı geriliyi bütün imkanlarından faydalanaraq qapatmağa çalışır.

## ***İKİNCİ MƏRTƏBƏ***

***İkinci mərtəbədə işıq çoxalır, görmə bucağı genişlənir və sən küləklərin zaman-zaman nə dediyini eşidə bilirsən. Azərbaycan Demokratik Respublikası dönəmində "ucaldılmağa" başlayan teatr binasının ikinci mərtəbəsi bolşeviklərin Rusiyadan əsdirdiyi qırmızı üzlü küləkləri dinləməklə tamamlanır.***

Azərbaycanda avropatipli ***teatrın təsisatlı mədəniyyətin faktı kimi formalaşması prosesi 1923-38-cü illəri*** əhatə edir. Öz tarixinin bu mərhələsində Azərbaycan teatrı maarifçiliyi ikinci plana atıb sosial ideologiyanı önə çəkir, amma tam sovetləşə bilmir, tamaşalarında daha çox "azad dünya, azad insan" konseptini aktuallaşdırır, kənardan dəvət edilmiş rejissorların təcrübəsindən faydalanmağı, onlardan peşəkarlığın, teatr qurmağın, kollektivi formalaşdırmağın yollarını öyrənməyi üstün tutur, repertuarı yerli pyes yazarları ilə dünya klassiklərinin əsərləri zəminində baş rejissorun bədii siyasətinə uyğun mozaikləşdirir. Bu dövrün Azərbaycan teatrı poetika baxımından təşəkkül dövrünün teatrından bir o qədər də fərqlənmir, onun davamı kimi oxunur: özünü ***monumental formalar, romantik ovqatlar, kəskin konfliktli dinamik süjetlər, çılğın ehtiraslar, alovlu dialoqlar, patetik monoloqlar, tənqid pafosuna bürünmüş ittihamçı nitqlər, faciəvi sevgilər, koloritli, qabarıq, sentimental ifadələr teatrı*** kimi dərk edib tanıtdırır, plakatçılığa yuvarlanmır, modern və onu təmsil edən digər bədii tendensiyalardan, avanqarddan, tərtibatçı rəssamların təkliflərinə rəğmən, bacardıqca aralı dayanır, hər tamaşasında sadəlövh bir səmimiyyətlə klassik sənət nümunəsi göstərməyə, qalın məxmər pərdələr, "qışqıran" yağlı boyalar teatrı olmağa, ***özünü Şərq poeziyasının effektli ritmik axıcılığı, xalçaların, miniatürlərin işıqlanan rəngləri, Şərq ekzotikasının bihuşedici mozaikası, qafqazlı jestinin, qafqazlı davranışının ekspressiyası ilə identifikləşdirməyə, öz mövzu və problemlər dairəsini, üslub orijinallığını, ifadə***

***fərqliliyini, dünyanın azərbaycansayağı refleksiya yollarını axtarmağa, peşəkarlıq səviyyəsini artırmağa, müxtəlif aktyor məktəbləri barəsində məlumatlanmağa çalışır.***

Rejissura sahəsində müəyyən aktivliyin müşahidə olunmasına[16], yerli sənətçilər sırasında rejissuraya meyllərin güclənməsinə baxmayaraq 1923-38-ci illərdə Azərbaycan teatrı yenə də aktyor teatrıdır və camaat birinci növbədə öz sevimli aktyorlarının adını afişalarda görüb tamaşalara gəlir. Məhz bu mərhələdə seyrçilər aktyorları fəxri kürsünün ən yüksək pilləsinə qaldırırlar və məşhurluq səviyyəsində onları partiya bossları ilə az qala tənləşdirirlər. Xalq avropatipli teatrı sevməyə, aktyorlara aşiq olmağa, teatra millətin taleyinin pozitivə köklənmiş müjdəçisi, saf ideallarınn qoruyucusu kimi yanaşmağa başlayır. Getdikcə xalq içində teatrın daimi auditoriyası formalaşır.

***Avropa üçün bu tip Azərbaycan teatrı artıq köhnə və maraqsız teatrdır.*** Çünki məhz XX əsrin 20-30-cu illərində avanqard sənətin təsirilə yeni ifadə tərzi və ifa üslubiyyəti oluşduran müasir teatr sistemləri formalaşır, teatrı materiyanın məngənəsindən qurtarmaq cəhdləri aktuallaşır, tamaşanın rəssamı oyun məkanını işıqla, dekorla təşkil edən səhnəqrafiya ustası ilə əvəzlənir, rejissorlar həyatı olduğu kimi, hətta yuxuları, ilğım və arzuları da görükdürməyi öyrənirlər[17], realizmlə sürrealizim sanki pəncərə şüşəsindən bir-birinə baxıb qımışırlar. Bu dəfə ekspressionist dramaturgiya önə atılır: narahat, çaşqın insanın gündəlik sosial həyat yaşantılarını, tutalım, qlobal hadisələr qənşərində onun qorxularını, əsəblərini, həyəcan və acizliyini hədəfləyən temalar zəkaları maqnit kimi özünə çəkir. Artıq səhnədə çılğın emosiyalar göstərmək, qəhrəmanı natiqə çevirmək, teatrallıqdan aşırı dərəcədə faydalanmaq alqışlanmır, pis teatr manerası kimi yozulur. Siyasi teatr isə epik teatrın içində əriyib hər cür empatini yasaqlayır, seyrçiyə maksimal azadlıq verib onu birgə düşünməyə dəvət edir. Özü də bu tendensiyalar Avropanın başqa-başqa ölkələrində tamam başqa cür və başqa intensivliklə gerçəkləşir: amma bütün hallarda bu Qərb teatrının permanent dəyişmək və yenilənmək meylinin təzahürüdür.

Azərbaycan teatrı bu pillədə də dəyişməyə, aktual teatr dəblərinə reaksiya göstərməkdə, münasibət bildirməkdə ləngiyir, sənət tendensiyalarına adekvat ola bilmir və teatrın əvvəlki problemlərini də içinə alıb yoluna davam edir, problemlərinin “çəkisini” bir az da ağırlaşdırır. Lakin bununla belə teatr öz seyrçisini maraqlandıra, heyrətləndirə, riqqətə gətirə bilir ki, bu da fenomenal bir təzahürdür. Teatr məhz bu çağlarda azərbaycanlıların yeganə müqəddəs əyləncə ocağına çevrilir, öz problemlərini ustacasına qapadaraq, yavaş-yavaş, ictimai müzakirələrin mərkəzinə gəlir, rəğbət sahibi olur, seyrçilər və aktyorlar arasında qarşılıqlı etibar, inam, sevgi yüksələn xətt üzrə artır. Birinci mərtəbədə teatra qarşı xof, şübhə və ehtiyatla yanaşan tamaşaçı ikinci mərtəbədə başqasını oynamaq bacarığına, səhnədə olmaq ekzotikasına vurğuncasına münasibət bəsləyir, teatrı möcüzə sanır və onu öz yeni məbədi statusunda qavramağa meyillənir.

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

## *ÜÇÜNCÜ MƏRTƏBƏ*

***Üçüncü mərtəbə ən rahat mərtəbədir, işığı həmişə boldur: qəsr, saray olmağa iddialıdır: hərçənd hər cür küləkdən ehtiyatlanır, sudan, torpaqdan uzaq düşür.***

Azərbaycanda avropatipli teatr tarixinin ***üçüncü mərtəbəsi milliləşmə və sovetləşmə mərtəbəsidir: bolşeviklərin məskunlaşacağı mərtəbədir ki, 1938-63-cü illər*** ərzində tikilib qurtarır. Teatr bu dönəmdə də öz formalaşmış ***monumental-romantik üslubundan*** əl götürmür, əksinə, onu “darayıb” daha çox cilalamağa, tablolaşdırmağa meyllənir. Bu dönəmdə, yəni 1937-ci ilin fəci repressiyalarından sonra Azərbaycanda avropatipli teatrın sovet teatrına transformasiyası və sovet standartları çərçivəsində milliləşməsi başa çatır: teatr öz qapılarını sovet gerçəkliyinin, sovet dramaturgiyasının, sovet həqiqətlərinin üzünə taybatay açır və dövlətin xidmətçisi mantiyasını əyninə geyinir. Azərbaycan teatrı həmin bu illərdə öz inkişaf vektorunu dəyişmir. Teatr yenə də təpədən dırnağa kimi aktyor teatrıdır, tunc qəhrəmanlar, nazənin sənəmlər, dilbər xanımlar teatrıdır, gözəl bədənlər, məlahətli və guruldayan səslər, ritm və ahəng teatrıdır, rədifli, qafiyəli mizanlar teatrıdır, şairanə, şahanə ədalar, statuar pozalar, parıldayan aksesuarlar teatrıdır, milli naxışlarla süslənib sovet şüarçılığı ilə çulğaşmış barokko teatrıdır, sovet rejimini təbliğ edən qəsr teatrıdır, repertuar teatrıdır, qırmızı imperiyanın ideoloji teatrıdır.[18] ***Bu mərhələdə teatrın baş rejissoru daha çox xor rəhbəri funksiyasının peşəkar icraçısıdır, kommunist partiyası liderlərinin imitasiyasıdır və teatrın vəzifəsini təhkiyəçilikdə, yəni mətni vizuallaşdırıb heç bir bədii, sosial-fəlsəfi konsepti aktuallaşdırmadan seyrçilərə şərhsiz-filansız ötürməkdə görür.*** Vəziyyətin paradoksu ondadır ki, məhz bu zaman teatr öz kütləviliyinin zirvə məqamını yaşayır, xalqa, sözün əsl mənasında, emosional səadət bəxş edir, sovet işğalı ilə xalqı ruhən, qəlbən barışdırmaq, siyasətə qarışmamaq mövqeyində möhkəmlənir, mühüm dövlət konseptlərinin təbliğatçısı olur. Xalq öz teatrı ilə bir də bu qədər heç vaxt xoşbəxt ola bilməyəcək, teatr Azərbaycanda bir də bu qədər kütləvi ola bilməyəcək. Bu dövrün ən fenomenal xüsusiyyətlərindən biri o olur ki, ***Azərbaycan teatrı intuitiv olaraq xalis altyapı səviyyəsində özünü təziyə teatrından, Molla Nəsrəddin teatrından sonra aşıq teatrı kimi də “kəşf edir”.***

Avropa isə bu dönəmlərdə tamamilə başqa tipli bir teatra baxır, teatrı demokratiyanın, azadlığın özü kimi, etirazın beşiyi kimi qavrayır, teatra dövlət içində dövlət kimi yanaşır, qəhrəmanla mühitin konfliktini xilaskarlıq mübarizəsinə aparan yolun təkan impulsu kimi təsnifatlaşdırır. XX əsrin 30-40-cı illərində Avropa teatrı getdikcə daha çox insan davranışının ekzistesional mahiyyətini səhnədə aşkarlamağa doğru meyillənir, ictimai-siyasi dünyanın olaylarına aşırı reflektiv olur, teatrallıq dərəcəsini, süni oyun tərzini minumuma, deklamasiyanı, boğazdan yuxarı danışıgı, qışqırtını sıfra endirir. Amerika Birləşmiş Ştatları bu dövrdə müzikl dənizində əyləncəli bir səyahətdə bulunurlar: Brodvey teatrları bu janra minnətdar olaraq Hollivudun kino istehsalı ilə rəqabətə güclə tablayıb sənəti bir təhər qoruyub

saxlaya bilirlər.

Azərbaycanın artıq tam milliləşmiş teatrı öz xoşbəxtlik çağlarını yaşadığı zamanda belə yenə dünya teatrından geri qalırdı. ***Azərbaycan teatrının poetikası daşlaşmış poetikaya çevrilirdi, heç bir teatr sistemi aktivcəsinə mənimsənilmirdi: teatr əsasən öz aktyorlarının azman istedadına, partiyalı repertuara və bir də seyrçi sadəlövhlüyünə güvənirdi.*** Bunu teatr sənətini bilən adamlar görüb duyurdular, lakin bir qədər teatrın dövlət xidmətçisi mövqeyindən, bir qədər də xalqın teatr sevgisindən ehtiyatlanıb məsələni çox da dilə gətirmirdilər, kuluar söhbətlərilə kifayətlənirdilər. Beləliklə, problemlər mərtəbələşib üst-üstə çinlənirdi.

## *DÖRDÜNCÜ MƏRTƏBƏ*

***Dördüncü mərtəbədə artıq yüksəklik qorxusunun simptomları aşkarlana bilər. Dənizi də dalğalandırmaq üçün gərək külək həmişə üfürsün.***

Azərbaycan teatrı tarixinin dördüncü mərtəbəsində ***1963-88-ci illər*** dram teatrının qapılarını yeniliyə doğru açmaq, oyun, düşüncə, ifadə üslubiyyətini dəyişmək, tamaşaların rejissurasını tamam fərqli bir səviyyəyə yüksəltmək, avropatipli teatrı milli mədəniyyət parametrlərində reviziya etmək, azərbaycanlıların folklor teatrının ənənələrindən[19], rus sovet teatr məktəbinin yeni modellərindən kreativ bir şəkildə yararlanmaq, onları müasirliklə əlaqələndirmək, ştamplardan, köhnə səhnə maneralarından, monumentallıqdan, pafosdan, patetikadan qurtulmaq, təntənəni, süni bayram sevincini, statuar pozaları yaşantıların səmimiyyəti, jest və ədaların qrafik konkretliyilə, davranış sərbəstliyilə əvəzləmək, səhnəyə yeni dramaturgiya nümunələrindən faydalanaraq həyati danışıq tərzini, sevgi pıçıltılarını, məişət psixologizmini, daxili düşüncələrin, intim münasibətlərin poeziyasını gətirmək, gənc aktyorların hesabına truppada qüvvələr balansını dəyişmək, təbliğatdan uzaqlaşıb haradasa bir balaca dissident olmaq, konseptual teatra yaxınlaşmaq[20] cəhdlərilə səciyyələnir.

Opera və Balet Teatrı Azərbaycan bəstəkarlarının fantastik musiqiləri hesabına dördüncü mərtəbədən birbaşa dünya teatr mədəniyyətinə inteqrasiya oluna bilir, Musiqili Komediya Teatrının öz adına uyğun janrda hazırladığı tamaşalar isə xalqın gülüş mədəniyyəti ənənələrini, zarafatlaşma ənənələrini oyunlarına yansıtmış koloritli aktyor-məsxərəbazlar sayəsində, "bestseller" tamaşalara çevrilirlər və böyük seyrçi kütləsinə sahiblənirlər. Bu vəziyyətin törətdiyi problem də o olur ki, tamaşaçı bəsit, primitiv situasiyalarda gülüş axtarmağa köklənir, gülmədiyi təqdirdə hər şeyi buraxıb gedir, ciddi sənətdən, düşünmək "əziyyətindən" qaçır.

Dördüncü mərhələ həm də ***mərkəzdən qaçma qüvvələrin aktivləşməsi, avanqard meyllərin güclənməsi, alternativ teatr, zirzəmi (anderqraund) teatrı ideyalarının ortaya atılması, səhnəqrafiyada məkanın boşluğuna, dekorların simvolizminə üstünlük verilməsilə*** milli teatr tarixinin xüsusi, bəlkə də ən orijinal bir səhifəsi olur. Lakin bu, eyni zamanda o dönəmdir ki, teatr permanent olaraq yüksələn bir dinamika üzrə öz seyrçilərini itirməyə başlayır. Bu çağlar Azərbaycan

teatrı tarixi boyunca yığılıb qalmış sosial, mental, ruhsal-psixoloji, bədii-estetik problemlərin, köhnə teatr dəblərinin, köhnə nəsil nümayəndələrinin və teatrın maddi-texniki bazasının bir əngələ çevrilib inkişafa total şəkildə dirəniş gətirdiyi dövrdür, problemlərin yara kimi partladığı dövrüdür. Məhz bu mərhələdə Azərbaycan teatrının problemləri vəsvəsəli sindromlara dönüşür: ***özünü tanımağın və tanıtdırmağın kompleksləri, ədəbi-bədii cərəyanlara, sənət dəblərinə adekvat ola bilməməyin xiffəti, qısır uğurlar, müasirliyə ləng inteqrasiya, kasıb əyalət sənətçisi basqıları, dünya şöhrətli teatr, kino xadimlərinə latent həsədi görükdürən eyforik pərəstiş, öz potensialını gerçəkləşdirməməyin ağrıları, uzun sürən könüllü və gizli intiharın nişanəsi kimi əyyaşlıq, seyrçisiz teatr-teatr oynamağın cəfəngliyi*** pərdəarxası vəziyyəti dəqiq panoramlaşdırır. Bu, Azərbaycan teatrı tarixində passionar dalğalardan törənən hadisələrin oluşdurduğu faktlardır, Azərbaycan teatrının mövcudluq tunelinin interyerini formalaşdırmış prosesiçi yaşantılardır.

1960-80-ci illər Avropa teatrında qlobal və intensiv innovasiyalarla tarixiləşir: bu dəyişmələr artıq teatr tendensiyaları, müəyyən cərəyanlar, dəblərlə deyil, konkret şəxslərin adları ilə bağlanır. Belə ki, ***hər bir rejissor, hər bir dramaturq sistemiçi sistemdir, təkrarsızdır, özgürdür və onların əsas hədəfi teatrı "rənglənməmiş" həyatla baş-başa buraxmaqdır, teatrallığı yol veriləsi minimal həddə endirməkdir, siyasətə, sosial mühitə, biznes dünyasına qarşı kəskin tənqidi mövqedən çıxış edib ekzistensional doğrularla sanki yaxasından tutub seyrçini silkələməkdir,*** ayıltmaqdır ki, bax, gör, sən hansı yalanlarla qol-boyun olub yaşayırsan.

Bu dönəmdə Azərbaycan teatrı hər bir vəchlə dəyişməyə, yeniləşməyə çalışsa da, həm düşüncə meridianlarına, həm ifa texnikalarına, həm tamaşaların tərtibi üslubuna görə Amerika, Avropa və Rusiyadan bir daha geri düşür. Bu isə artıq gələcək onilliklərin problemləri üstünə çinlənmiş növbəti yeni teatr problemi deməkdir.

## *BEŞİNCİ MƏRTƏBƏ*

***Bakının küləkli günlərində beşinci mərtəbədən dənizin dalğalarını bir qayda olaraq görmək mümkünləşir. Azərbaycan teatrı müstəqil ölkənin müstəqil milli teatrına çevrilir.***

Azərbaycan teatrı tarixinin daha bir mərtəbəsi əsrlərin qovşağında siyasi, ictimai-sosial, iqtisadi proseslərin hayqırdığı, Qarabağ probleminin gündəmin ana mövzusuna çevrildiyi, qaçqın və köçkünlərin küçə-küçə, bölgə-bölgə dolaşdığı, xalqın şəhidlər verdiyi və bununla yanaşı Azərbaycanın müstəqil elan edildiyi, bayrağının, himninin, turğasının dəyişdirildiyi, ardınca isə torpaqlarının 20%-indən çoxu düşmən tapdağı altında qaldığı mürəkkəb bir dövrdə ***1988-2003-cü illərdə*** ucaldılır. Belə bir gündəm öz ağrılı-acılı həyati süjetləri, konfliktli hadisələri, taleyüklü məsələləri, ekzistensional problemlərilə birgə, əslində, teatrın mövzu bankını zənginləşdirməli idi. Ancaq, bir sıra istisnalardan savayı, təəssüf ki, istər dramaturgiya, istərsə də teatr Qarabağ mövzusu ilə bağlı ekzistensiyanı buraxıb

təbliğata doğru meyllənir, köhnə pafos və patetika teatrı standartlarında plakatçılığa, şüarçılığa, ağı söyləməyə, primitivcəsinə dava-dava oyunu göstərməyə, politkorrektlik pərdəsi arxasında tənqidi fikirlərdən sığortalanmağa önəm verir.

Bu dönəmdə Azərbaycan teatr mədəniyyətində mərkəzdən qaçma meylləri bir az daha artır, müstəqil teatrlar meydana gəlir: bəziləri maliyyə çətinliklərilə qarşılaşıb tezliklə qapadılır, bəzilərisə öz müstəqilliklərindən asanca əl çəkib dövlət teatrları olmağa böyük həvəslə razılaşırlar.

Busa simptomatik bir göstərici kimi onu bəlirtir ki, Azərbaycan teatrları öz hesablarına, yəni dövlətin maliyyə dəstəyi olmadan heç vaxt yaşaya bilmirlər. Çünki aktiv seyrçi auditoriyasından məhrumdurlar və səbəb də bu ki, illər uzunu öz tamaşaçılarını yetişdirə bilməyiblər. Hərçənd fakt bu ki, teatr müasir azərbaycanlının məişət yaşantılarından danışan mövzulara toxunduğu zaman müəyyən qisim seyrçiləri özünə cəlb etməyi bacarırdı.

Lakin məhz bu dönəmdə kukla, marionet, pantomima, “Yuğ” teatrlarında, “Pro-cent” prodüsser, “Üns” yaradıcılıq mərkəzində bədii mükəmməllik baxımından, çox nadir də olsa, elə tamaşalar meydana gəlir ki, onlarla hətta müəyyən festivalları gəzmək mümkünləşir. Hərçənd bu, heç də teatr problemlərinin azaldığına dəlalət eləmir, əksinə, Azərbaycan teatr mədəniyyətində qütblər arasında nə qədər böyük bir uçurum olduğunu vurğulayır. Di gəl, təəccüblüsü ondan ibarətdir ki, hər iki qütbü seyrçi problemi maksimal dərəcədə bir-birinə yaxınlaşdırır.

Bu mərhələdə ***baş rejissor problemi Azərbaycan teatrının*** (istər dram, istər opera, istərsə də kukla, gənc tamaşaçılar, komediya və bölgə teatrları) ***ən mühüm problemi kimi təzahür eləyir.*** Problemi müəyyən qədər aradan götürmək üçün müxtəlif variantlara əl atılır: lakin pərdəarxası intriqalar ucbatından optimal bir çıxış yolu tapılmır; hətta Azərbaycana növbəti rejissorlar kimi dəvət edilmiş sənətçilər də, bir neçə uğurlu tamaşalara imza atsalar belə, prosesə faktiki surətdə heç bir təsir göstərə bilmirlər. Sonucda ***teatr həyatının staqnasiya prosesi özünü bütün polifonikliyilə hiss etdirməyə başlayır.*** Professionallıq səviyyəsi aşağı düşür, aktyorlarda ruh düşkünlüyü, peşəyə inamsızlıq, güvənsizlik, lazımsızlıq duyğusu, yaradıcılıq şövqünün azalması, oyuna köklənməyin zəifləməsi, səhnə diqqətinin yayğınlaşması kimi hallar aşkar müşahidə edilir. Sanki bu dönəmdə Azərbaycan teatrı hara və nə cür gedəcəyini, öz məqsədlərini, hədəflərini aydın təsəvvür edə bilmir.

Avropa teatrının bu illərdə intonasiyasını, inkişaf dinamikasını müəyyənləşdirən əsas amillərdən biri, bəlkə də birincisi postmodernizmdir, onun dünyaya və hər şeyə qarşı total ironiyasıdır. Postmodernizm “kiçik adam”ın istehzaya bükülmüş həyat dramını, dünyəvi siyasi oyunlar qarşısında onun acizliyini, dəyərsizliyini meynstrim mövzu kimi ən ağlasığmaz forma və məzmun variasiyalarında Qərb teatrının müxtəlif səhnələrinə “hədiyyə” edir. Eksperimentallıq, epataj, seyrçiyə şok yaşatmaq Avropa teatrının bu dönəminin aparıcı tendensiyalarıdır ki, onlar da teatrın mahiyyətini, formalarını sürətlə

dəyişirlər. Proses sənədli teatrın aşırı aktuallaşması ilə, italyan qutusundan aralanmaqla, dördüncü divarı "yumruqlaya-yumruqlaya" dağıtmaqla, seyrçilərə maksimal yaxınlaşmaqla, teatr eyləminin performansla, heppeninqlə əvəzlənməsilə səciyyələnir, tamaşalar həvəskarların birbaşa iştirakı ilə aksiyalara dönüşür.

Bu zaman söyləmək ki, Azərbaycan teatrı Avropa teatrından çox-çox geridir, sadəcə, sadəlövhlükdür. Çünki teatrın azsaylı seyrçisi heç cür performansları, heppeninq və instalyasiyaları qəbul edə bilmir, ənənəvi teatr isə bunların yerinə başqa alternativlər təqdim etmək iqtidarında olmur.

## *ALTINCI MƏRTƏBƏ*

***Küləkdən başqa heç kəs və heç nə suya sığal çəkə bilmir. Altıncı mərtəbə həmişə bir balaca fantom mərhələdir: orada külək əsəndə, elə bilirsən, şəhərdə qasırğadır. Burada su ilə bağlı hər zaman problem yaşana bilər.***

Azərbaycanda milliləşmiş avropatipli teatr tarixinin altıncı mərtəbəsi, hələlik ki, sonuncudur və mindiyimiz liftdə yanan düymələr ***2003-2023-cü illəri*** işıqlandırır. Mən Azərbaycan teatrının inkişaf tarixinin 150 ilini təsnifat annotasiyası və problemlərilə birgə altı mərtəbəli, qədim yox, nisbətən təzə bir bina kimi təsəvvür elədim. Bu binanın yeni mərtəbələri ucaldılacaqmı, kimlərsə o, yüksəkliklərə qalxıb teatr sənətilə məşğul olacaqlarmı? Demək çətindir.

Azərbaycan teatrı tarixində altıncı mərtəbə beynəlxalq və yerli teatr konfransları, teatr festivalları, teatr əlaqələrinin intensivlik mərtəbəsi kimi formatlaşır ki, bu da birbaşa Azərbaycan Respublikasının müstəqilliyinin, rifahının, inkişafının, siyasi və iqtisadi sabitliyinin, mədəniyyət siyasətinin nəticəsində mümkünləşmiş faktlardır. Məhz bu dönəmdə Azərbaycana müxtəlif əcnəbi ölkələrdən rejissorların, səhnə dizaynerlərinin, aktyor təlimləri keçən ustadların avropatipli milli teatrın proqressivləşməsi, müasirləşməsi məqsədilə, bəzən səfirliklərin, bəzən xeyriyyə fondlarının dəstəyilə həm pilot layihələr, həm də şəxsi dəvətlər çərçivəsində ardıcıl gəlişi təşkil edilir. Təəssüf ki, bu proyektlərin respublikada teatr situasiyasını dəyişmək, vəziyyəti yaxşılaşdırmaq baxımından bir elə də böyük səmərəsi olmur.

Bu mərhələ bir tərəfdən Azərbaycan teatrının XXI əsr Avropa teatrına yaxınlaşmaq, teatr avanqardı ilə Azərbaycanın folklor teatrı, klassik poeziya ənənələrini sintez etmək, verbatim, immersiv teatr üslublarında işləmək cəhdlərilə, pantomima teatrının fiziksəl teatra dönüşməsilə, antreprenyor fəaliyyətinin ara-sıra qismən aktivləşməsilə, digər tərəfdən Azərbaycanın əksər teatrlarında qurulan tamaşaların hələ də öz təfəkkür tərzinə, düşüncə masştabına, bədii-estetik xüsusiyyətlərinə görə XX yüzilin ortalarında hazırlanmış tamaşaları xatırlatması ilə, yəni milli teatrın paradoksları ilə tarixiləşir. Lakin bu dönəmdə elə istisna tamaşalar da meydana gəlir ki, onlar müasir teatr tendensiyalarını bu və ya digər miqyasda refleksiya eləyə bilirlər.

Bütövlükdə teatr sənətinin çağdaş mövcudluq mərhələsində onun necəliyini

təsnif etmək son dərəcə müşkül məsələdir. Çünki teatr bu gün çox müxtəlifdir, tamaşalar isə çox fərqlidir. Hətta belə bir fikir də söyləmək mümkündür ki, ***müasir dövrdə say və səciyyə baxımından teatrlar klublaşır, daha doğrusu, teatrlar və klublar öz hədəf və məqsədlərinə, mobillik dərəcəsinə görə bir-birilərinə bənzəməyə başlayırlar.*** Bu da onun nəticəsidir ki, teatr makroformatdan uzaqlaşıb ənənəvi qanunlar dışına çıxır, psixoloji teatr sərhədlərindən kənarda nə varsa, teatr inamla adlayıb onu mənimsəyir. Müasir teatrda mənanı, ideyanı peşəkarlıq meyarları üstələyir, fövqəl bacarıqlar ön plana keçib performativ olur, şou olur, kukla teatrının çoxsaylı balaca auditoriyaya hesablanmış kiçik variantları və yeni texnikaları nümayiş etdirilir. Posdramatik teatr, ətraf mühit teatrı, sənətkar teatrı (ona bəzi hallarda səhvən rəssam teatrı deyirlər), sənədli teatr, immersiv teatr, performans, müzikl, mətn teatrı müasir şəhər və əyalətlərdə səhnə sənətinin varolma formalarıdır. Getdikcə şəhər və əyalət teatrları arasındakı fərqlər də tamamilə silinir, əyalət teatrları eksperimentlər səhnəsinə çevrilir. Belə də demək mümkündür ki, müasir teatr radikal eksperimentlər orbitindədir, hətta o dərəcədə ki, teatr aktyordan və digər təlimatlarla dolu teatr epistemlərindən imtina edir, eyləmin (əməlin) yoxluğu ilə oynamağa başlayır.[21]

İndi hamı ancaq öz teatrını yaratmaq iddiasındadır: sənət üfüqlərində artıq heç kəs üçün pərəstiş ediləcək ikonalar, idollar, övliyalar yoxdur. Əgər bu gün teatr dışlanırsa, deməli, daha köhnə formalar işləmir. Rejissorlar böyük teatrlardan qaçırlar, daha kiçik formaları tərcih edirlər, onlara inanan, etibar edən bir seyrçi auditoriyasına sahiblənməyə can atırlar. Amma bütün bunlarla yanaşı bir sıra tanınmış teatr rejissorları çox ciddi bir şəkildə Avropa teatr mədəniyyətini bürümüş qlobal böhrandan danışırlar və teatrı düşük, biədəb naturalizmdə ittiham edirlər. Müasir teatr müxtəlif olduğu kimi ona münasibət də hədsiz dərəcədə müxtəlifdir.

Odur ki, müasir Azərbaycan teatrı da, onun seyrçisi də Avropadan əsən küləklərin gətirdiyi təzahürləri birmənalı qarşılamır, bəzi hallarda hətta şok vəziyyətinə, panik vəziyyətə düşür, koqnitiv dissonans yaşayır: nəyin, hansı tendensiyanın arxasınca gedəcəyini, özünü nədə və necə ifadə edəcəyini kəsdirə bilmir. Ona görə də bütün situasiyalarda özünə, millətinə, keçmişinə, mental, maddi-ruhsal ənənələrə sədaqəti qoruya-qoruya dəyişmək, yeniləşmək və eqodan, kiməsə xoş gəlməkdən, məşhurlaşmaqdan ötrü çalışmaqdan qurtulub yaradılma prosesi sənə daxilən xoşbəxtlik, azadlıq, zövq verə biləcək tamaşaların istehsalı ilə məşğul olmaq aktualdır.

Azərbaycan teatrı “küləklə sovrulanlar” sırasında 150 ildir ki, var...

Bu teatrın 150 illik tarixi və ondan daha böyük əfsanəsi var...

150 ildir ki, Azərbaycan teatrının problemləri var...

Problem həmişə dirilərin problemidir. Ölülərin problemləri olmur.

Məncə, müasir şəraitdə Azərbaycanda teatrın daha 150 il köhnə və yeni problemlər içində yaşaya bilməsi üçün onu seyrçilərlə baş-başa buraxmaq vacibdir: qoy, özləri həll eləsinlər; onlar bir-birilərinə lazımdırmı?

## Ədəbiyyat siyahısı və şərhlər:

[1] Aristotel məktəbinin davamçıları: "dairə boyu gəzişənlər" kimi semantikləşir.
[2] "Dünya məbəddir" konseptinin çıxış nöqtəsi: burada məbəd dünya modeli kimi təsəvvür edilir.
[3] Сперанская Н. Дионис преследуемый. – М.: Культурная революция, 2014. – с.229.
[4] Daha ətraflı: Лосев А.Ф. История античной философии. – М.: Мысль, 1989. – с.20-72.
[5] Bax: Talıbzadə A.A. Şərq teatrı tarixi: dərslik. – Bakı: Zərdabi Nəşr, 2020. – s.144; Бородычёва С.А.Китайский театр https://www.abirus.ru/content/564/623/625/645/655/11645.html
[6] Bu haqda daha ətraflı: Серова С.А. «Зеркало просветлённого духа» Хуан Фань-чо и эстетика китайского классического театра. – М.: Наука, 1979. – с.30.
[7] Bax: Брук П. Пустое пространство. – М.: Прогресс, 1976. – 103 с.
[8] Чухров К. Демократические злоключения постдраматического театра // Театр. – М., № 43, 2021. – с.84-93.
[9] Teatrın təşəkkül dönəmi bir tarix olaraq nə ilə yadda qalır, nə ilə səciyyələnir? Sualı cavablayıram:

- maarifçilik konseptinə bağlı tükənməz teatr sevgisilə, teatr uğrunda mübarizə ilə;
- şərqi qərbləşdirmək (qəzet, məktəb, teatr, kino, texnologiyalar, komfort vasitəsilə) "avropalaşmaq" tendensiyasının sərfəsini kütlələrə yaymaq şövqü ilə;
- teatrı ictimailəşdirmək, sosiallaşdırmaq, kütləviləşdirmək, peşəkar səviyyəyə çatdırmaq, təsisatlı mədəniyyət faktına çevirmək naminə özgə qapılarında səhnə, aktyor, geyim, qrim və seyrçilər axtarmaqla;
- azadlıq, ədalət, ləyaqət ideallarına sadiq qalıb səhnədən təbliğat vasitəsi kimi faydalanmaqla;
- mühitə, istibdada, zorakılığa qarşı üsyanla, şəxsi məhrumiyyətlər və ölümlə.

Bu dönəmdə tamaşanın bədii-estetik mündəricəsi, necəliyi, vizual qəşəngliyi önəmli deyil, səhnəyə çıxmağın, oyun göstərməyin və maarifçiliyin proqressiv ideyalarını ehtirasla mental dünyaya "püskürtməyin" özü fantastik dərəcədə cəlbedicidir, qəhrəmanlıq jestidir, aşkar etiraz nümunəsidir. Azərbaycan teatrının təşəkkülü prosesində aktyor olmaq, əyninə ölü paltarı, qadın paltarı geyinib, bığlarını qırxdırıb, saqqalsız olub üzünə pudra sürtmək, səhnəyə çıxmaq, tamaşaya getmək sənət ziyasına, yaradıcılıq şövqünə malik insanların ənənələrə, qohumlara, səssiz çoxluğa, dindarlar kütləsinə, məhəlləyə meydan oxuması deməkdir, bir qəhrəmanlıqdır, romantik dəlilikdir, mühitlə mübarizə aksiyasıdır. Əslində, bu, son dərəcə aktualdır, bir maarifçi proyektidir, sosial-siyasi dəyişmələrə aktiv reaksiyadır, avropalaşmağın bariz nişanəsidir və XX əsrin topluma müxtəlif spektrlərdə ünvanladığı mesajlara tam uyğundur. Avropatipli teatr təzyiqlərə, islam dəyərlərinə, milli mentallığa rəğmən spontan, pərakəndə bir şəkildə Azərbaycanda təşəkkül tapır,

az qala bolşevik partiyası kimi ictimai-siyasi gündəmə gəlir, xalqı "qəflət yuxusundan ayıltmaq" missiyası ilə görəvləndirilir. Görünür, teatrın Azərbaycanda bu dərəcədə aktivləşməsi həm də əcnəbilərin maraqlarını ifadə edirdi: onlar teatr vasitəsilə adi insanlarla universal ünsiyyət dili, ortaq dəyərlər yaratmaq istəyirdilər, öz mental və mədəni ənənələrini yaymaq üçün teatrı kilsə əvəzi missioner kafedrası kimi təsis etməyə çalışırdılar. XIX əsrin sonu XX yüzilin əvvəllərində yerli teatr fədailəri içində bir kimsə belə bunu duymaq, sezmək və səsləndirmək iqtidarında deyildi.

[10] Maarifçilik "pandemiyası"nın əsas simptomları nə idi? Təbii ki, nəşriyyat, məktəb, teatr. Təqribən eyni bir zaman müddətində Qərb bütün Şərqi maarifçiliyə yoluxdurur və öz dəyərlərini kompüter virusları kimi qapalı mədəniyyətlərdə formalaşmış ekzistensional kommunikasiyaları korlamağa yönəldir. Bu, ərəb yaylasından tutmuş ta Yaponiyaya qədər sanki avropalı dirijorun çubuğu ilə yayımlanan, təlqin edilən bir siyasət və inkişaf partiturası kimi görükür.[12] Maarifçilik Qərbin əlində Şərq qapılarının ən rahat açarı idi və əslində, səlib yürüşlərini proqressiv, demokratik variantda davam etdirirdi, Şərqin resurslarının aktivcəsinə, asan bir yolla Qərbə daşınması üçün humanizm ideologiyası müstəvisində yaşıl işıq yandırırdı. XIX əsrin II yarısından etibarən bu geniş coğrafi arealın əksər bölgələrinə teatr (kilsələrlə birgə) Avropadan kənarda çalışan iş adamlarını əyləndirmək, onların asudə vaxtını mənalandırmaq məqsədilə eksport edilir və bu sənətə yoluxan yerli həvəskarlar (M.F.Axundzadə miqyaslı Qərbə qurtuluş yolu kimi baxan digər millətlərin şəxsiyyətləri) da hadisəni milli mədəniyyətə inteqrasiya etmək, milli mədəniyyətdə yaşatmaq ideyası ilə alışıb yanırlar. Qərb siyasəti Şərq ruhsallığının, mənəviyyatının, ənənə və dəyərlərinin cərrahiyyəsini həmişə teatr sənətindən bir bıçaq kimi faydalanaraq aparmağı üstün sayıb. Burada məqsəd Orta əsrlərdə ilişib qalmış Şərq məmləkətlərində yeni emosional fon, yeni düşüncə platforması hazırlamaqdır. Teatr qəsbkar-missionerin humanist tələsidir, müsəlmanların, hindusların, buddaçıların emosional qavrayışı üçün başgicəlləndirici bir "zəlzələdir". Amma bu "zəlzələ" həm də kefli, əyləndirici, zövq verici, güzgü effekti daşıyan düşündürücü, maarifləndirici bir "zəlzələdir". Di gəl ki, Qərb maarifçiliyinin bu "humanist proqramı" qəribə şəkildə qısır qalır: indi Şərqdə təhsil var, amma bilgi, texnologiya yenə də bir vaxtlar olduğu kimi import edilir; nəşrlər var, amma yalnız lokal əhəmiyyətə malikdir və Avropaya çıxışı cüzidir; teatrlar var, amma onların bir gözü həmişə Qərbdədir ki, görək oradan hansı yeni sənət tendensiyalarını mənimsəmək mümkündür. Dəbləri, üslubları, trendləri, proqramları hamıya Qərb diktə eləyir: hayana baxırsan, görürsən ki, orada Qərb "işləyir". Bizim artıq hamımızın gözündə Qərb eynəyi mövcuddur və biz hətta Şərqi qərblinin gördüyü kimi görüb təhlil edirik (Bax: Саид Э. Ориентализм: западные концепции Востока. – М: Русский мир, 2006. – 635 c.) və unuduruq ki, qərbli Şərqə həm də ehtiraslar, ekzotika vurğunluğu ilə gedib. Bu prosesdə təbii ki, Şərqlə Qərb bir-birinə yaxınlaşıblar, ancaq heç cür qovuşa bilməyiblər və bilməyəcəklər də.

"Avropalaşmaq" heç də uğurlu bir deviz olmayıb və təqribən "robotlaşmaq", "köləlşmək" şüarının səciyyəsini daşıyıb. Fikir verin, Yaponiya Avropanı öz içində "əritsə" də, getdikcə daha çox kuklalaşmağa, bütün ölkəcə "anime" olmağa meyillənir. Nədən ki, dünyadakı bütün calaqlar xətalıdır. Sistemin xətası isə bədheybətlər, mutantlar törədir. Абдуллабекова Г.Г. Просветительство в Азербайджане и Европе: Польша, Украина, Белорусия; учебн. Пособие. – Баку: Мутарджим, 2016. – 127 с.

[11] Bu haqda daha ətraflı bax: Cəfərov C.H. Azərbaycan dram teatrı. – Bakı: Azərnəşr, 1959. – s.35-73; Kərimov İ.S. Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri. – Bakı: Maarif, 2002. – s.13-73; Rəhimli İ.Ə. Azərbaycan teatr tarixi. – Bakı: Çaşıoğlu, 2005. – s.174-176.

[12] Bax: Rəhimli İ.Ə. Azərbaycan teatr tarixi. – Bakı: Çaşıoğlu, 2005. – s.162-167.

[13] Чухров К. Демократические злоключения постдраматического театра // Театр. – М., № 43, 2021. – с.84-93.

[14] Bu haqda daha ətraflı bax: Новая драма: рубежа XIX-XX веков: проблематика, поэтика, пути сценического воплощения / Материалы научной конференции. – СПб: ГАТИ, 2014. – 372 с.

[15] Bax: Talıbzadə A.A. Azərbaycan teatrı tarixinin konseptual variantı "Azərbaycan", №9, 2002. – S. 162-173

[16] Bu haqda daha ətraflı bax: Rəhimli İ.Ə. Azərbaycan teatr tarixi. – Bakı: Çaşıoğlu, 2005. – s.193-199.

[17] Театральная культура Западной Европы: театр Западной Европы в культуре XX века http://lit-prosv.niv.ru/lit-prosv/teatr-zapadnoj-evropy/teatr-zapadnoj-evropy.htm

[18] Bu haqda daha ətraflı: Talıbzadə A.A. Azərbaycan teatrı tarixinin konseptual variantı **https://teatro.az/az/post/aydin-talibzade---azerbaycan-teatr-tarixinin-konseptual-varianti-539**

[19] Allahverdiyev M.Q. Azərbaycan xalq teatrı tarixi: ali məktəblər üçün dərslik. – Bakı: Maarif, 1978. – 234 s; Aslanov E.M. El-oba oyunu, xalq tamaşaları. – Bakı: İşıq, 1984. – 276 s; Талыбзаде А.А. Театр и театральность в культуре ислама: поэтика форм проявления театра в средневековых странах Ближнего и Среднего Востока (X-XVI вв.) – Баку: Сабах, 2005. – 324 с.

[20] Bax: Talıbzadə A.A. Azərbaycan teatrı tarixinin konseptual variantı "Azərbaycan", №9, 2002. – s.162-173.

[21] Bu haqda daha ətraflı: Чухров К. Демократические злоключения постдраматического театра // Театр. – М., № 43, 2021. – с.84-93.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 02.02.2024**

**UOT 792.**
**DOI: 10.52094/3005-9941.45.2024.015**

**İsrafil Ramazan oğlu İsrafilov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq doktoru, professor**

# MÜASİR TEATR MOZAİKASI HAQQINDA BƏZİ QEYDLƏR

Teatr sənətinin tarixi, keçdiyi mərhələlər, qazandığı dil-üslub xüsusiyyətləri, forma və məzmun mənaları, mahiyyət və estetik ölçü vahidləri, janr, eləcə də kəmiyyət və keyfiyyət dəyişmələri haqqında xeyli sayda tədqiqatlar mövcuddur. Bu tədqiqatlarda teatrın qədimlərdən başlamış çağdaş dövrümüzə qədər olan dövrlərdə biri digərindən fərqli siyasi, iqtisadi, sosial, mədəni proseslərin təsirilə dəyişməsi, müxtəlif "izm"lərin və konseptlərin dəyirmanından sağ çıxması faktları elmi-nəzəri, həmçinin publisistik baxışlarla dəyərləndirilmişdir.

Antik, intibah, klassisizm, maarifçilik dövrlərindəki teatr düşüncəsi, bəzən bir-birinə zidd olan estetik görüşləri ilə bərabər sonrakı əsrlərdə başlıca logistik istiqaməti müəyyən edən dəyərli mənbələr və düsturlar şəklində səhnə sənətinin inkişaf proseslərini labüdləşdirdi.

Teatrın dünəninin gerçək qanunauyğunluqlarının konkret dəlil-sübutu olan arxiv sənədlərini vərəq-vərəq, səhifə-səhifə araşdıran mütəxəssislərin gəldiyi qənaətlərindən idrakı imkanlarımız, istedadımız və hövsələmiz dərəcəsinə görə bəhrələndikcə bu günümüzün mədəni-estetik proseslərini dəyərləndirmək imkanı əldə edirik. Belə ki, yaxşı unudulmuş köhnənin aktuallıq qiyafəsində təkrar istehsala buraxılması dialektik mahiyyət daşısa da, istər-istəməz səhnə sənətinin başlanğıc mahiyyəti, zaman içərisində yaşadığı özünütəkmilləşdirmə xüsusiyyəti, həmçinin hər dəfə yeniləşmə stixiyası özünü göstərir. Odur ki, yeni əsrin teatrı, təbii olaraq, prinsipcə fərqli estetik baxışlara və mövqelərə, o cümlədən yaradıcılıq təxribatlarına, irili-xırdalı kəşflərə meydan açır.

Yeni əsrin teatr mənzərəsində getdikcə daha artıq fərqli ideya-estetik təzahürlərdə müşahidə edilən fəaliyyətin miqyası, eləcə də hədəfi dəyişməkdə davam edir. Həmin dəyişmələr prosesində teatr mədəniyyətinin, sosial həyatın, digər sənət növlərinin formalarının mənimsənilməsi açıq-aşkar görünməkdədir.

Ən maraqlısı budur ki, mövcud teatr sənətinin ifadə çərçivəsinin birbaşa təsirilə yaranan durğunluq mühitinin hər hansı yeniləşmənin qarşısını almaq cəhdləri bütövlükdə yaradıcılıq iqliminin mədəni-ekoloji ahəngdarlığını zədələyir.

Və bu zaman ictimai-mədəni ehtiyac, təbii olaraq, yeni sənət baxışı ilə silahlanmış aktual teatr meydana gətirir, alternativ teatr ocaqlarının fəaliyyətini şərtləndirir. Bu isə yeniləşmə tendensiyasının teatr sənətinin keyfiyyət dəyişmələrinə yol açır.

Son illərin təcrübəsi göstərir ki, dünya teatrının öz-özünü axtarma, məzmun qatında triviallıqdan qətiyyətli imtina, stereotip düşüncənin üstündən xətt çəkmə, bəzi hallarda səhnə divarlarından kənarda oyun məkanı axtarmaq, qeyri-verbal oyun poetikasına istinad, bəzi hallarda isə az qala, konservativ özünəməxsusluq mövqeyinə sədaqət təşəbbüsləri diqqət çəkir.

Elmi qənaətlərə görə, XXI əsr ötən əsrdən daha mürəkkəb olmaqla, bəşər sivilizasiyasının yeni təkamül mərhələsidir. Tamamilə təbiidir ki, yaşadığımız bu yeni əsrdə siyasi, iqtisadi, ekoloji, mədəni, sosial, elmi, dini proseslərin indiyədək görünməmiş bəzi hallarda dialektik, bəzi hallarda isə süni rəqabətə səbəb olması müşahidə edilir. Amma bu təkzibedilməzdir ki, bütün mürəkkəbliyi ilə bərabər, həmin proseslər yer adamının bədii, intellektual, yaradıcılıq potensialını nəinki azaltmır, əksinə, onu ikiqat vüsətlə qanadlandırır. Bu, istər elmi, istər bədii yaradıcılıq sferasında tamamilə yeni məna qatlarına nüfuz edir. Başqa məsələdir ki, kvant nəzəriyyəsi, yaxud qonşu qalaktikanın öyrənilməsi, parapsixologiyanın, bəşər övladının əvvəllər üzərində düşünmədiyi digər sahələrin bu gün tamamilə fərqli prizmadan baxılıb tədqiq edildiyi kimi, teatr sənətinin hegemonluq iddiasını gizlətmədən çaparaq estetik uğurlara iştahı olan rejissura prinsipcə əvvəlkindən fərqli dünyagörüşünə və metoda üstünlük verir.

Çağdaş dünyanın teatr seqmentində müşahidə edilən dekonstruksiya meyilləri (əslində, bu, meyil yox, baş verən faktdır), həmin dekonstruksiyanın təşəbbüskarları və müəllifləri olan teatr xadimləri çağdaş bədii yaradıcılıq ərazisində fəaliyyət göstərən rejissor sənətinə münasibətilə yetərincə güzəştsiz və tələbkar mövqe tutmaqdadırlar. Maraqlıdır ki, məsələyə açıq-aşkar radikal münasibətlərini gizlətməyənlərin əksəriyyətini elə rejissorlar təşkil edir. Onların qənaətinə görə, XX əsr ənənəvi rejissuranın son fəaliyyət dövrü olmalı idi. Əlbəttə, həmin mövqeyi ifadə edən mülahizələrdə həqiqətəbənzər düşüncə işartıları görmək və onlardan bəzilərinə diqqət yetirmək olar. Amma həmin mülahizələrdə polemikaya çəkmək təxribatı da açıq-aşkardır. Yəni, polemika üçün səbəb yaranırsa, təbii olaraq, opponent öz-özünə yaranır. Ötən XX əsrin ənənəvi rejissuranın sonu olduğu təkcə deklarativ şəkildə bəyan edilirsə, bu, ən azı, şübhələrə yol açır, müxtəlif suallar doğurur. Məsələn, miqyas və coğrafiya nəzərə alınmadan rejissuranı ənənəvi elan etmək haqqı kimə məxsusdur? Yaxud açıq-aşkar tələskən iddia ilə fikirləri çaşdırmaq kimə lazımdır? Və bu cəhdlərin özü nə dərəcədə ciddidir?

Bizim dövrün teatrı sanki bəzi səma cisimləri kimi kütləsini böyüdə bilir, okeanların stixiyasında müşahidə edilən qabarma-çəkilmə xüsusiyyətinə malikdir. Yəni, onun bu xüsusiyyəti ötən əsrin ortalarından başlayan müxtəlif ideyaların və tətbiqi estetikaların meydana gəlməsini şərtləndirmişdir. Məhz bu dövrdə alternativ teatrlar, konseptual estetik baxışlar getdikcə daha çox diqqət cəlb etməyə başladı ki, Performer teatrı buna misal ola bilər.

Bu teatr ənənəvi səhnə sənətinin mühüm elementləri sayılan ədəbiyyatı, rejissura, səhnə tərtibatı və s. komponentlərdən imtina etməklə yaradıcılıq azadlığı

qazanmışdır. Həmin estetik baxış dramaturgiyanın qəlibindən, rejissuranın diktaturasından qurtulub sərbəst yaradıcılıq əldə edən aktyorun fiziki bədən imkanlarının improvizasiyaya əsaslanan ifadəliliyini nəzərdə tuturdu. Bu zaman rənglərin, səsin ecazına əsaslanan janr xüsusiyyətləri ardıcıl eksperimentlərə əlverişli imkan yaradırdı.

Maraqlıdır ki, K.S.Stanislavskinin məşhur “indi”, “burada” prinsipindən istifadəni məqbul sayan Performer teatrı ədəbi mərama yox, aktyor oyununun ritual ifadəliliyinə əsaslanır. O da maraqlıdır ki, “kasıb teatr” poetikasına yönələn yollarında Y.Qrotovski hələ İtaliyanın Pontedere şəhərindəki yaradıcılıq işlərində məhz performativ sənət növlərini saf-çürük etməklə məkan və müvafiq oyun tərzi, plastik improvizasiya prinsiplərini axtarırdı. Bu zaman o, nə vaxtsa qəbul edilmiş ənənələrdən aktyorun səhnə fəaliyyətindəki özünüifadə üslublarından teatr sənətini “təmizləməli” olmuş, ifaçının öz “mən”inə dalmaq, ritualın nəzarətdə saxlanılan trans halını oyunun başlıca məqsədinə çevirmişdir. Burada ritual estetik özünüdərkin təminatçısı kimi səmərəli olur. Yeri gəlmişkən, A.Artonun sənət sehrindən, qəddarlıq elementlərindən fərqli olaraq burada aktyorun öz fərdiyyətinin dərinliklərinə enməsi imkanlarından istifadə edilir.

Səhnə sənəti öz funksional bədii mahiyyəti etibarilə metateatraldır. Burada insanlar seyr etdikləri tamaşada gerçək həyatda görüb-eşitdikləri bu və ya digər hadisələrin bənzərini görə bilirlər. Bundan başqa, metadramatik üslub tamaşaçının diqqətini çox zaman pyesdəki bədii şərtlərə yönəltməklə onu daha çox hadisələrin cazibəsində saxlayır və bu zaman pyesdəki hadisələrin çevrəsində sanki başqa bir pyesin ədəbi həyatı izlənilir. Sanki bir estetik həyatın içərisində başqa birisi regenerativ proses olaraq fərqli həyat yaşamalı olur. Yəni müəllifin ideya məcrasında onun əlavəsi kimi, niyyətin estetik şərti olaraq başqa bir axın verilir və aktyorun səhnə oyununun tərkibində roldan-rola keçid hadisəsi baş verir. Bu yerdə onu da əlavə etmək vacibdir ki, metadramatikliyin janr məhdudiyyəti yoxdur. Belə ki, müxtəlif janrda yazılan ayrı-ayrı pyeslərin nümunəsində toxunduğumuz məsələnin konkret nümunəsini görmək olar.

Amma bu da var ki, bəşər tarixinin antik dövründə atılan bədii təfəkkür oxları sonrakı yüzilliklərdə və çağdaş günümüzdə öz hədəfini tapmış, istər elmi-nəzəri fikrin istiqamətinə, istər incəsənətin yaradıcılıq təbiətinə həlledici təsir göstərmişdir. Belə ki, Herostrat kompleksi, Edip kompleksi, yaxud Salyeri kompleksi təkcə idrakı ərazilərə deyil, estetik oyun ifadəliliyi məkanına da ayaq açmış, bilavasitə teatr sənətinin mövzu mündəricatında yer almışdır. O da maraqlıdır ki, XXI əsrin üçüncü onilliyini xərclədiyimiz indiki dövrdə ötən əsrin intellektual dram adlandırılan “şəxsiyyət və cəmiyyət”, “insan və zaman”, “mən və onlar” və s. kimi mövzuların mündəricat çevrəsində dolaşan əsərlərin ömrü bitər-bitməz, yaxşı unudulmuş köhnə yeni bədii qiyafədə və estetik işarələrdə teatr məkanında görünməyə başladı.

Öz zəngin ideya tutumuna, dramaturji strukturuna, bədii-intellektual yükünə baxmayaraq, T.Uilyams, H.Pinter, E.Olbi, A.Müller, A.Nikolai, A.Osborn, J.B.Sartr

kimi müəlliflər az cəlbedici göründülər. Sanki hansısa siyasi iradənin təsirilə səhnə sənətinə qlobalizm, multikulturalizm, feminizm kimi baxışları mövqe tapşırıqları daxil oldu, onun estetik iqlimini dəyişməsi labüdləşdi. Məhz bu zaman, yəni ABŞ-da qaradərili insanın dövlət başçısı seçilməsilə irq problemi düşüncələrdən silindi, multikulturalizmə, tolerantlığa önəm verildi və bunun incəsənətdə ardıcıl təbliği işinə başlanıldı. Bundan başqa, ayrı-ayrı ölkələrdəki seçki və dövlət idarəçiliyində qadınların imtiyaz məsələləri gündəmə gətirildi, feminizm, gender baxışları aktuallaşdırıldı, "Medeya", "Antiqona", "Janna Dark" və s. əsərlər yenidən səhnənin maraq dairəsinə daxil oldu. Həmin proseslərdə bütün təşəbbüslər qloballaşma siyasətinin məcrasında inkişaf etdirilir, milli identiklik, bəşəriyyətin yaşam mücadiləsi və istəkləri ilə şərtləndirilirdi.

Elmi-texniki inqilabın yüksəlişi, yer adamının başqa planetlər, oradakı həyat və varlıqlarla bağlı xəyalları getdikcə daha böyük vüsətlə sənət əsərlərinin mövzusuna çevrildi. Brodvey teatrları bir-birilə rəqabət aparıb, müəlliflərə həmin mövzuda əsərlər sifariş edir və estetik əlvanlığı ilə seçilən tamaşaları tirajlayırdılar. ABŞ-dakı həmin proses okeanları keçərək bəzi Avropa ölkələrinin mədəniyyətinə, o cümlədən teatr sənətinə də sirayət edirdi. Amma bu da var ki, Avropanın teatr iqliminə uçan boşqablarla, yad planetlərlə bağlı mövzularla bərabər axirət, İncil, gələcəklə bağlı məchulluq baxışları, Konfutsi, Şopenhauer, Nitsşe kimi mütəfəkkirlərin ideya-fəlsəfi mövqelərinə yeni qayıdış diqqət çəkirdi. Bu zaman ara-sıra tərəddüd və çaşqınlıq ovqatı yaşayan teatr heyrətamiz fəndgirlikə seydnotdan çıxıb səhər üfüqlərini genişləndirdi.

Hans Lemmanın ərsəyə gətirdiyi postdramatik teatr haqqındakı tədqiqatlarından və gəldiyi nəticələrin müxtəlif coğrafiyalarda yayılmasından təxminən iyirmi il sonrakı ictimai-mədəni reallıqda postdramatik teatr faktı tanındı. Həmin prosesi tədqiq edən nəzəriyyəçilər və onun daha da alovlanmasını kürəkləyən praktik teatr xadimləri prinsipcə yeni ideyalı estetik fəzanın formalaşmasını təmin etmiş olurlar. Burada diqqətçəkən və mühüm sayılacaq məqam budur ki, yuxarıda qeyd etdiyimiz prosesin öncülləri teatrın sosial-fəlsəfi mahiyyətini dəyişməklə onun üslub, ifadə, bədiilik şərtlərini, təsir mexanizmini də dəyişməkdə israrlı görünürlər. Digər az əhəmiyyətli olmayan məqam isə budur ki, çağdaş teatr dəbini diktə edən rejissorların demək olar ki, heç biri bu sahədə xüsusi təhsilə malik olmayanlardır. Belə ki, Robert Uilson ixtisas təhsilinə görə rəssam, Anatoli Vasilyev kimyaçı, Kristofor Martaller musiqiçi, Frank Kastorf teatrşünas, Roman Kastelluççi səhnəqraf, Mark Ravenhill filoloq, Yan Fabr rəssam, Tom Krauç dramaturq, Kirill Serebrennikov fizikdir. Bu siyahını uzatmaq da olar və qeyd edilən faktlar rejissorluğun bir sənət sahəsi olaraq öz yaradıcılıq "mən"ini bəyan etmək üçün hər kəsə açıq olduğu qənaəti yaradır. Bəs əslində necədir?

Belə görünür ki, XXI əsrin rejissurası özünün klassik anlamda qavranılması ilə barışmaq fikrindən uzaqdır. Belə ki, yeni dövrün rejissurası bədii-reflektiv düşüncənin diametral fərqli ideoloji-estetik ifadə arsenalını nümayiş etdirməklə,

aktyorla işi yox, tamaşaçı ilə dialoqu nəzərdə tutan sənət oyunu imkanları yaratmağa meyillidir. Çağdaş dövrün rejissurası hər hansı müəllifin xidmətçisi, bəlli ədəbi mətnin səhnə icraçısı olmaqdan imtina etdi. Bu rejissuranın qənaətinə görə, teatr hər tamaşası ilə cəmiyyəti narahat edən suallara cavablar verməməli, özü cəmiyyət qarşısında suallar qoymalıdır. Məhz postdramatik teatrın rejissurası yaradıcılıq baxışı etibarilə yeni fəlsəfəyə, bir sənət sahəsi olaraq, yeni varolmaya, sənət və keyfiyyət baxımından yeni özünüifadə imkanları umduğu materikə sıçrayış etməkdə qərarlı idi. Bunun konkret ifadə təzahürləri niyyət və meyil həddini çoxdan adlayıb və həmin rejissura XX əsrdəki özünürealizənin forma və məqsəd cazibəsindən qurtularaq tamamilə yeni qravitasiya qanunları ilə şərtlənən fəaliyyət sferasında olmaqdan məmnun görünürdü. Bu zaman bir vaxtlar rejissorun klassik mənada professionallıq xüsusiyyəti hesab edilən aktyorla yaradıcı əməkdaşlıq, dramaturqsayağı mətn üzərində iş, tamaşanın yozumu, sinkretikliyinə münasib təşkili və s. qabiliyyətlər gərəksizləşirdi. Odur ki, bu günün teatr lideri ənənəvi qəlibləri dağıdıb, indiyədək görünməmiş kreativ enerji sahibi, innovasiyalar müəllifi kimi xüsusi dəyər və mövqe qazanmaqdadır. O, öz universal bədii qanunverici təfəkkürü ilə sürətlə dəyişən dövrümüzün istehsalat ifadəsi ilə desək, yaradıcılıq fabriki kimi fəaliyyətinin etibarlı təminatçısı, səhnə sənətinin estetik kateqoriyalarının tətbiqinin qarantıdır.

Avropa teatr məkanında çağdaş dövrümüzün teatr gerçəkliyi ilə bərabər, onun futuristik perspektivlərini cızan sənətçilər bəzi hallarda biri digəri ilə estetik dünyagörüşü və üslub baxımından müxtəlif yolayrıcında görünsələr də, radikal düşüncə modeli sərgiləməklə yeni teatr baxışının yaradıcıları kimi qəbul edilirlər. Belə ki, dövrün təkamül prosesində bu gün bədii mədəniyyətin təkanverici statusda görünməsi, onun özünü fundamental funksiyada bəyan etməsi kimsədən təsdiq gözləməyən konkret faktdır. Anlayışların, dəyərlərin meyarların sosiumda müşahidə edilən heyrətamiz devalvasiyası, ötən əsrdə bəşəriyyətin yaşadığı məlum müharibələr də daxil müxtəlif miqyaslı kataklizmlər teatr sənəti üçün izsiz keçə bilməzdi və keçmədi də.

Bu gün dünya səhnələrində, o cümlədən Avropa teatr həyatında müşahidə edilən (bəzən çətin həzm edilən), bu sənətin bəlli ifadə miqyaslarını, onun estetik vasitələrini və fəaliyyət şərtlərini kökündən dəyişdirən müxtəlif səviyyəli yaradıcılıq ixtiraları getdikcə daha böyük sənət ərazilərini öz estetik təsiri altına salır. Bu halda teatr sənətinin sabahı şübhələr və gümanlarla dolu suallar yaradır, bu sahə üçün cavabdehlik məsuliyyəti daşıyanlar mümkün cavablar üzərində baş sındırmaqda davam edirlər. Doğrudan, görəsən XXI əsrə qədər salamat gəlib çıxan teatr sənətinin bu əsrin sonunda halı necə olacaq?

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.02.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

**UOT:792+004.08**
**DOI: 10.52094/3005-9941.45.2024.016**

**Nəzirə Məmmədqulu qızı Əliyeva**
**Əməkdar müəllim, ADMİU-nun baş müəllimi**
**ORCID ID kodu:0000-0002-6851-6762**
**E-mail: nazira.aliyeva@admiu.edu.az**

## Teatrda süni intellektin tətbiqi

**Xülasə:** Süni intellekt insanın intellektual qabiliyyətlərini yerinə yetirməyə qadir olan sistem və proqramların yaradılması ilə məşğul olan informatikanın bir sahəsidir. Teatrda süni intellekt virtual personajların yaradılmasından tutmuş texniki proseslərin avtomatlaşdırılmasına qədər müxtəlif aspektlərdə tətbiqini tapır. Məqalədə teatrda süni intellektin əsas prinsipləri və tətbiqləri araşdırılmış, həmçinin ondan istifadənin çətinlikləri və perspektivləri təhlil edilmişdir.

**Açar sözlər:** süni intellekt, rəqəmsal teatr, virtual personajlar, maşın öyrənməsi, robot texnikası

Süni intellekt insan intellekti ilə əlaqəli intellektual qabiliyyət tələb edən vəzifələri yerinə yetirməyə qadir olan sistem və proqramların yaradılmasının inkişafı ilə məşğul olan informatikanın bir sahəsidir. Süni intellektin əsas məqsədi düşünə bilən, öyrənən, qərar qəbul edən və insan zəkasına bənzər problemləri həll edə bilən kompüter sistemləri yaratmaqdır. Süni intellekt insan zəkasının, nitqin tanınması, təbii dilin işlənməsi, planlaşdırma, qərar qəbul etmə, öyrənmə və s. kimi müxtəlif aspektləri modelləşdirməyi və təqlid etməyi hədəfləyir. Süni intellektin əsas prinsiplərinə maşın öyrənməsini, təbii dilin emalını, kompüter görməsini, robot texnikasını göstərə bilərik.

Maşın öyrənməsi kompüter sistemlərinin öz performansını yaxşılaşdırmaq, proqramlaşdırma olmadan proqnozlar və ya qərarlar qəbul etmək üçün təcrübə və məlumatlardan öyrəndiyi prosesdir. Maşın öyrənməsi məlumatları təhlil etmək, nümunələri müəyyən etmək üçün alqoritmlərdən və statistik modellərdən istifadə edir.

Təbii dil emalı (Natural Language Processing, NLP) süni intellektin bir sahəsi olub, kompüterlər və digər təbii dillər (ingilis, fransız, rus və s.) arasında qarşılıqlı əlaqə yaratmaqla məşğul olur. NLP kompüterlərə təbii dili başa düşmək, şərh etmək, insanlarla daha təbii səviyyədə qarşılıqlı əlaqə yaratmağa imkan verir.

Kompüter görməsi süni intellektin bir qolu olub, şəkillər və videoları təhlil etmək, şərh etmək üçün sistemlərin və alqoritmlərin inkişafı ilə məşğul olur. Kompüter görmə qabiliyyətindən istifadə edən kompüter obyektləri, üzləri, hərəkətləri və digər vizual aspektləri tanıya bilir, vizual qavrayış tələb edən vəzifələri yerinə yetirməyə imkan verir.

Robot texnikası süni intellektin öz ətraf mühiti ilə qarşılıqlı əlaqədə ola bilən,

müxtəlif vəzifələri yerinə yetirə bilən robotların yaradılması və inkişafı ilə məşğul olan bir sahədir. Süni intellekt robotları hərəkət etdirmək, obyektləri manipulyasiya etmək, insanlarla ünsiyyət qurmaq və s. kimi mürəkkəb hərəkətləri yerinə yetirmək üçün proqramlaşdırıla bilər.

Süni intellekt tibb, maliyyə, avtomobil sənayesi, oyun sənayesi və digər sahələr olmaqla müxtəlif tətbiqlər üçün böyük potensiala malikdir. O, işin səmərəliliyini və dəqiqliyini xeyli yaxşılaşdıra bilər, mürəkkəb problemlər üçün yeni imkanlar yarada bilər.

Süni intellekt həyatın müxtəlif sahələrinə, eləcə də teatr sənətinə əhəmiyyətli təsir göstərir. Süni intellektinin teatra tətbiqi ənənəvi teatr təcrübəsinin sərhədlərini genişləndirməyə və tamaşaçılarla qarşılıqlı əlaqə üçün yeni imkanlar yaratmağa kömək edir. Süni intellekt vasitəsi ilə səhnədə canlı aktyorlarla ünsiyyət qura bilən virtual personajlar yaratmaq mümkün olur. Real dünyada mümkün olmayan mürəkkəb və unikal personajlar yaratmaqla, həm də təsirli səhnələr hazırlamaq üçün teatr tamaşalarında istifadə oluna bilən virtual dünyalar hazırlamaq olur.

Teatr tamaşalarının müxtəlif texniki aspektlərini avtomatlaşdırmaq və təkmilləşdirmək üçün süni intellektdən istifadə edilə bilər. Məsələn, daha dəqiq, səmərəli performanslar yaratmaq, işıqlandırma, səs effektləri və xüsusi effektləri idarə etmək üçün süni intellekt məqsədəuyğun hesab edilir. Həmçinin səhnə heyətinin işini asanlaşdıran və təkmilləşdirən səhnə mexanizmlərinin, robot elementlərinin quraşdırılmasında da süni intellektdən istifadə edilə bilər.

Süni intellekt hər bir tamaşaçı üçün fərdiləşdirilmiş teatr tamaşasının yaradılmasında da istifadə edilə bilər. Məsələn, süni intellekt tamaşaçı seçimlərini və reaksiyalarını təhlil edə bilər, bu məlumat əsasında fərdiləşdirilmiş ssenarilər təklif edə bilər və ya real vaxt rejimində şounun sonunu dəyişə bilər. Bu, aktyorlar və tamaşaçılar arasında daha dərin və daha cəlbedici qarşılıqlı əlaqə yaratmağa imkan verə bilər.

Süni intellekt məlumatları təhlil etmək və teatr sənətindəki tendensiyaları proqnozlaşdırmaq üçün də istifadə edilə bilər. Məsələn, süni intellekt teatrda tamaşalar, aktyorlar və rejissorlar haqqında qərarlar qəbul etmək üçün tamaşaçı seçimləri, istehsalın uğuru və tənqidçilərin reaksiyaları haqqında məlumatları təhlil edə bilər. Bu, bizə teatr tamaşalarının keyfiyyətini və uğurunu yüksəltməyə imkan verə bilər. Ümumiyyətlə, süni intellektin teatr sənətinə tətbiqi yaradıcılıq, tamaşaçılarla qarşılıqlı əlaqə və texniki aspektlərdə təkmilləşmə üçün yeni imkanlar açır. Bunlara baxmayaraq, süni intellektdən istifadə ilə bağlı etik məsələlər və teatr tamaşalarında insan elementinin potensial itkisi kimi problemlər də mövcuddur. Bütün bunlar süni intellektin teatrda istifadəsinə düşünülmüş yanaşma tələb edir.

Ssenarinin yaradılmasından tutmuş tamaşanın texniki aspektlərinin təkmilləşdirilməsinə qədər teatr tamaşalarının müxtəlif sahələrində də süni intellektdən istifadə edilə bilər. Teatrda ssenarinin yazılması, tamaşaçıların emosiyalarını və reaksiyalarını tanımaq, təkmilləşdirilmiş xüsusi effektlər və vizual

effektlər, texniki aspektlərin avtomatlaşdırılması və idarə edilməsi tətbiqlərində süni intellektin imkanlarından istifadə edilə bilər. Məsələn, süni intellekt sinxron və səmərəli performans yaratmaq üçün işıqlandırma, səs effektləri və səhnə elementlərinin hərəkətini idarə edə bilir. Bu, təqdimatın texniki aspektlərinin dəqiqliyini və keyfiyyətini artırır.

Teatr tamaşaları üçün orijinal ssenarilər yaradılarkən də süni intellektdən istifadə edilə bilər. Maşın öyrənmə alqoritmləri və neyron şəbəkələrindən istifadə edərək süni intellekt mövcud skriptləri, strukturu və məzmunu təhlil edə bilər, sonra isə yeni ideyalar və skriptlərin variasiyalarını yarada bilər. Bu isə, teatr şirkətlərinə unikal və maraqlı tamaşalar yaratmağa kömək edə bilər.

Süni intellekt real vaxtda tamaşaçıların emosiyalarını və reaksiyalarını tanımaq üçün istifadə edilə bilər. Kompüter görməsi məlumatların təhlilindən istifadə edərək, tamaşaçıların tamaşaya necə reaksiya verdiklərini – gülüş, kədər, qorxu və ya həzz hiss etmələrini müəyyən edə bilər. Bu, rejissorlara və aktyorlara öz tamaşalarını uyğunlaşdırmağa və tamaşaçılarla daha dərin səviyyədə əlaqə saxlamağa imkan verir.

Teatr tamaşalarında xüsusi effektləri və vizual effektləri təkmilləşdirmək üçün süni intellektdən istifadə etmək olar. Kompüter görmə və qrafik alqoritmlərindən istifadə edərək 3D proyeksiyalar, animasiyalar və virtual reallıq kimi real və immersiv vizual effektlər yaratmaq mümkündür. Bu, əvvəllər qeyri-mümkün olan heyrətamiz və təsirli səhnələr yaratmağa imkan verir.

Süni intellektin teatrda tətbiqi təkcə yeni imkanlar təqdim etmir, həm də bəzi problemlər yaradır. Teatrda süni intellektin istifadəsi etik məsələlərdə suallar doğura bilər. Məsələn, əgər istehsalda robotlar və ya virtual personajlar iştirak edirsə, onların canlı aktyorlar və tamaşaçılarla necə qarşılıqlı əlaqədə olması sualı yaranır. Məxfilik və məlumat təhlükəsizliyi ilə bağlı suallar da var, çünki süni intellektdən istifadə şəxsi məlumatların toplanması və emalı tələb oluna bilər.

Teatrda süni intellektin istifadəsi ilə bağlı problemlərdən biri insan elementinin potensial itkisidir. Teatr sənəti emosiyaya, qarşılıqlı əlaqəyə və insan hekayələrini paylaşmağa əsaslanır. Süni intellektdən istifadə həddindən artıq üstünlük təşkil edərsə, bu, orijinallığın və canlı aktyorlar və tamaşaçılarla əlaqənin itirilməsinə səbəb ola bilər.

Teatrda süni intellektdən istifadə edərkən bəzi texniki çətinliklərlə üzləşmək olar. Məsələn, robotlar və ya proqram sistemlərindəki nasazlıqlar istehsalda uğursuzluqlara səbəb ola bilər. Bu zaman sistemlərin texniki dəstəyi və saxlanması ilə bağlı suallar yarana bilər. Teatr tamaşalarına süni intellektin tətbiqi maliyyə məhdudiyyətləri ilə nəticələnə bilər. Süni intellekt sistemlərinin inkişafı və tətbiqi əhəmiyyətli investisiya tələb edir və bütün teatrlar belə xərcləri ödəyə bilmir. Bu, müxtəlif maliyyə imkanlarına malik teatrlar arasında bərabərsizlik yarada bilər.

Bütövlükdə, teatrda süni intellektin istifadəsi diqqətlə nəzərdən keçirilməsini və onunla əlaqəli yeni imkanlar və çağırışlar arasında balans tələb edən mürəkkəb

bir işdir. Teatr sənətində süni intellektin uğurlu və ahəngdar istifadəsini təmin etmək üçün etik, insani və texniki aspektləri nəzərə almaq lazımdır.

Süni intellektin teatr sənətini dəyişdirmək üçün böyük potensialı var. Gələcəkdə texnologiyanın və alqoritmlərin inkişafı ilə biz teatrda süni intellektin daha heyrətamiz və innovativ tətbiqlərini gözləyə bilərik.

Süni intellekt unikal personajlar və orijinal ssenarilər hazırlayarkən, maşın öyrənmə alqoritmləri müxtəlif simvollar haqqında böyük həcmdə məlumatları təhlil edə, onların xüsusiyyətlərini və davranışlarını araşdıra və sonra unikal xüsusiyyətlərə malik yeni simvollar yarada bilər. Bu, əvvəllər mümkün olmayan yeni və maraqlı hekayələrə səbəb ola bilər.

Süni intellekt performansları yaxşılaşdırmağa və yeni effektlər yaratmağa kömək edə bilər. Məsələn, kompüter görmə alqoritmləri təsirli vizual effektlər yaratmaq üçün audio emal alqoritmləri tamaşanın audio performansını yaxşılaşdıra bilər. Süni intellekt həm də teatr tamaşalarına yeni ölçülər əlavə edə bilən virtual və əlavə reallıq kimi yeni texnologiyaların inkişafına kömək edə bilər.

Süni intellekt fərdiləşdirilmiş teatr tamaşası yaratmağa və tamaşaçılarla qarşılıqlı əlaqə qurmağa kömək edə bilər. Maşın öyrənmə alqoritmləri tamaşaçıların seçimləri və maraqları haqqında məlumatları təhlil edərək onlara tamaşalar və ya rollar üçün fərdiləşdirilmiş mövzular təklif edə bilər. Süni intellekt, tamaşaçıların süjetin gedişatına təsir göstərə biləcəyi və ya personajlarla qarşılıqlı əlaqədə ola biləcəyi interaktiv teatr tamaşaları yaratmaq üçün də istifadə edilə bilər.

Süni intellekt teatrda müxtəlif prosesləri avtomatlaşdırmağa və optimallaşdırmağa kömək edə bilər. O həm də vaxta və resurslara qənaət edə bilən kostyumlar yaratmaq kimi vəzifələri avtomatlaşdırmaq üçün istifadə edilə bilər.

Ümumiyyətlə, süni intellektin teatr sənətində gələcəyi həyəcanlı və yenilikçi olmağı vəd edir. Bununla belə, Sİ-nin ahəngdar istifadəsini təmin etmək və teatr tamaşalarında unikallığı və insan elementini qorumaq üçün etik və sosial aspektləri nəzərə almaq lazımdır.

Bu məqalədə süni intellektin əsas prinsiplərini, eləcə də onun teatr sənətinə təsirini araşdırdıq. Biz süni intellektin teatr tamaşalarında tətbiqini müzakirə etdik və ondan istifadə ilə bağlı bəzi çətinlikləri və problemləri müəyyən etdik. Bununla belə, bu çətinliklərə baxmayaraq, süni intellektin teatr sənətində gələcəyi həyəcanlı və yenilikçi olacağını vəd edir. Süni intellektdən istifadə nadir və təkrarolunmaz teatr əsərlərinin yaradılmasına, aktyor və rejissorların imkanlarının genişlənməsinə, tamaşaçılarla qarşılıqlı əlaqənin yaxşılaşmasına səbəb ola bilər. Ümumiyyətlə, süni intellekt teatr sənətini zənginləşdirə bilən güclü vasitədir.

İncəsənət idarəçiliyi nöqteyi-nəzərindən Broadway istehsalçıları müştərilərə biletalma prosesini asanlaşdırmaq üçün süni intellektə müraciət edirlər. Broadw.ai restoran, parkinq və digər vacib aspektlərdən Broadway şousunda iştiraka qədər bilet alıcısının təcrübəsini artırmaq üçün konsyerj kimi fəaliyyət göstərən virtual bilet agentlərini təqdim edir. Bu agentlər Broadway şou saytlarında və qabaqcıl

intellektual chatbotlar kimi fəaliyyət göstərirlər. Müştərilərə xidmət göstərməklə yanaşı, proqram həm də istehsalçılara istehlakçı tendensiyaları əsasında qərarlar qəbul etməyə kömək edəcək.

Qeyd edildiyi kimi, süni intellekt teatr sənayesində ssenari yazmaqda, səhnə dizaynında və biznes idarəçiliyində istifadə edilə bilər. Onun necə inkişaf edəcəyi və yayılıb-yayılmayacağını gələcək göstərəcək. Süni intellekt texnologiyası sürətlə inkişaf edir. Teatr sənayesinin bu yeni alətini qəbul etmək və ya rədd etmək qərarına gəlməsi, gələcək tamaşalardan və bu sahədə peşəkarların təhsil motivasiyasından asılıdır.

## Ədəbiyyat siyahısı:

1. Искусственный интеллект в театре: применение, вызовы и будущее 12.11.2023 https://nauchniestati.ru/spravka/iskusstvennyj-intellekt-i-teatr/
2. AI And Theatre: Playwriting, Stage Design, And Ticketing 13.06.2023 https://amt-lab.org/blog/2023/5/artificial-intelligence-amp-theatre-making-past-present-and-future
3. Exploring the Intersection of Theatre and AI: Embrace the Future of Education. 17.09.2023 https://www.thedtalks.com/blog/embracing-the-future-the-power-of-ai-in-theatre-classes/

**Назира Мамедкули кызы Алиева**

## ПРИМЕНЕНИЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ТЕАТРЕ

**Резюме:** Искусственный интеллект — это раздел информатики, занимающийся созданием систем и программ, способных реализовать интеллектуальные способности человека. В театре искусственный интеллект находит применение в различных аспектах: от создания виртуальных персонажей до автоматизации технических процессов. В статье рассматриваются основные принципы и применение искусственного интеллекта в театре, а также анализируются трудности и перспективы его использования.

**Ключевые слова**: искусственный интеллект, цифровой театр, виртуальные персонажи, машинное обучение, робототехника.

**Nazira Mamedkuli Aliyeva**

## APPLICATION OF ARTIFICIAL INTELLIGENCE IN THEATER

**Summary:** Artificial intelligence is a branch of computer science that deals with the creation of systems and programs capable of performing human intellectual abilities. In the theater, artificial intelligence finds application in various aspects, from the creation of virtual characters to the automation of technical processes. The article examines the main principles and applications of artificial intelligence in the theater, and also analyzes the difficulties and perspectives of its use.

**Keywords**: artificial intelligence, digital theater, virtual characters, machine learning, robotics.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.03.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

**UOT792.**
**DOI: 10.52094/3005-9941.45.2024.017**

**Sahib Bayram oğlu Novruzov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**baş müəllim**
**E-mail:s_novruzov7@mail.ru**

# "SƏHNƏ HƏRƏKƏTİ" FƏNNİNİN METODİKASI HAQQINDA

**Xülasə:** Məqalədə teatr məktəblərində "Səhnə hərəkəti" fənninin tədrisi metodikasından bəhs edilir. Teatr sənətkarlarının yetişdirilməsi üçün mövzunun əhəmiyyəti, məqsəd və vəzifələri, aktyor, xanəndə, rejissor sənəti ilə əlaqəsi, plastika sənətinin səhnədə hazırlanması izah edilib. Eyni zamanda səhnə sənətində "Səhnə hərəkəti" fənninin əhəmiyyəti, onun əsas qollardan biri kimi rolu qeyd olunur. Aktyor şəxsiyyətinin tərbiyəsində müzakirə olunan mövzunun əhəmiyyətinin dərəcəsinə toxunan məqamlar məqalənin əsas dəyəri hesab oluna bilər. Burada nəzəri biliklərin praktiki tətbiqi xüsusiyyətləri vurğulanır. Bu zaman uzunmüddətli pedaqoji metodların effektivliyi diqqətə çatdırılır.

**Açar sözlər:** mövzu, səhnə, aktyor, hərəkət, müəllim, metod, tədris, məşq

İnsan bədəni özünün ifadə imkanlarının zənginliyi ilə, bir qayda olaraq, bədii yaradıcılıq sahəsində çalışan sənətkarların diqqətini cəlb etmişdir. Təbiidir ki, səhnə sənətindəki ifaçı nəinki bədii meyarlar yaradıcısı, eyni zamanda öz fərdiyyəti etibarilə müəyyən mənada – "inşaat materialı"dır. Odur ki, onun üçün bədəninin ifadə imkanlarını öyrənmək, eləcə də onun fiziki imkanlarını inkişaf etdirmək olduqca vacibdir. Yaradıcılıq prosesində aktyora ilk növbədə pedaqoji kömək edilməlidir. Məhz buna görə, aktyor və rejissor kadrlarının yetişdirilməsində tərbiyə və tədrisin bütün mahiyyətini bilmək olduqca zəruridir.

Səhnə hərəkətinin hazırlığı geniş anlamda səhnə plastikasının yaradılması olmaqla, metodika K.S.Stanislavski "sistemi"nin tələblərinə, eləcə də fiziologiyaya, psixologiyaya və biomexanikaya istinad edilməsini nəzərdə tutur. Məhz bunun nəticəsində, yaradıcı şəxsin bədəni düzgün köklənir və hər hansı səhnə obrazının əməl xəttinin bədii-estetik ifası mümkün olur.

Aktyorun ifadə imkanlarının dərk edilməsində olan əsas çətinliklərdən biri odur ki, onun səhnə işlərinin bünövrəsində yüksək emosional fəaliyyəti durur. Həmin mürəkkəb proseslərin kökündə psixofiziki məntiqlə tənzimlənən qanunauyğunluqlar əmələ gəlir. Xüsusi təsdiqə ehtiyac yoxdur ki, şüur və hərəkətin vəhdəti ilə qarşılıqlı əlaqədə aktyorun düzgün qurulmuş orqanizmi, təxəyyülündə pyes və rejissorun təklif etdiyi şərait vasitəsilə fiziki əməli yerinə yetirə bilər.

Bu qarşılıqlı əlaqənin mürəkkəb işlənilmə prosesini elmi məlumatlardan bəhrələnməklə dərk edib təkmilləşdirmək olar. Amma bu zaman səhnə hərəkətinin mahiyyəti ilə bağlı yaranan sualları cavablandırmaq üçün elmi-nəzəri baxımdan

əsaslandırılmış *səhnə hərəkəti nəzəriyyəsi* lazımdır.

U.M.Seçenevin qeyd etdiyi kimi, "insanın psixoloji həyatının bütün mahiyyəti hər şeydən əvvəl əzələ hərəkətinə bağlıdır". Səhnə hərəkəti üzrə tədris fəaliyyəti göstərən teatr pedaqogikası heç şübhəsiz ki, elmi mənbələrə əsaslanmalıdır. Aydın məsələ kimi görünsə də, bəzən təkrar etməli oluruq ki, "Səhnə hərəkəti" fənninin metodikası, konkret bir pedaqoqun fərdi təcrübəsinə əsaslanıb elmdən kənar arqumentlərlə uydurulmamışdır. Bununla belə, praktik fəaliyyət zamanı biz səhnə hərəkətinin özünün mahiyyətinə, hərəkətin tərbiyəsi məsələsi ilə bağlı bəzən biri digərini istisna edən müxtəlif baxışlarla üzləşirik.

Əgər fənnin nəzəriyyə və təcrübəsi obyektiv elmi biliklərlə işlənilibsə və pedaqoq elmi cəhətdən əsaslanmış metodikadan istifadə edirsə, nəticə etibarilə həmin tədris prosesi mütləq səmərəli nəticə verəcək.

Pedaqoji təcrübəyə əsaslanıb demək olar ki, aktyor, müğənni və rejissor kadrlarının yetişdirilməsi sahəsində hərəkət fənləri kompleksinə bütün tədris prosesinin üzvi hissəsi kimi baxmaq lazımdır. Çünki başlıca müəllim məqsəd olaraq tədris etdiyi fənnin pedaqoji vasitələri ilə ifadəli, plastik aktyor bədəni tərbiyə etməlidir. Ən azı ona görə ki, ali sənət məktəblərində idmançı deyil, yaradıcı fərdiyyətin bədii özünəməxsusluğu, səhnədə hər hansı yarış nəticəsi deyil, professor L.F.Makaryevin təbirincə desək, aktyor bədəninin ifadə potensialı formalaşdırılır.

Başqa sözlə desək, "Səhnə hərəkəti" fənni başqa yaradıcılıq fənləri ilə bərabər aktyor – şəxsiyyət yetişdirilməsi işinə xidmət edir. Odur ki, bədii yaradıcılıq ixtisası üzrə kadr hazırlığı işını görən tədris müəssisələrinin tələbələrini seçdikləri ifaçılıq sənəti vasitəsi ilə yüksək mədəni davranışın nümunəvi siması kimi yetişdirmək lazımdır. Bu, uğurlu səhnə ifası ilə bərabər, aktyor və rejissorların etik qaydalara riayət etməsində öz əksini tapmalıdır.

"Səhnə hərəkəti" fənnini tədris edən müəllimin işi məsuliyyəti olduqca böyükdür. Tələbələrin plastika aparatının düzgün hazırlanmasının uğuru, müəllimin özünün hansı nəzəri biliklərə və təcrübəyə malik olması, onun metodikasının tədris ocağında qəbul olunmuş səhnə sənətinin tədrisi sisteminə nə dərəcədə uyğun olması ilə birbaşa bağlıdır.

Əminliklə demək olar ki, "Səhnə hərəkəti" rolun məntiqli və ifadəli fiziki əməli üçün müəyyən estetik ifa bazası hazırlayır və bu da özlüyündə fənnin pedaqoji məqsədi sayılmaqla, məşğələlərin tətbiqi metodikasının əsasını təşkil edir.

Aktyorun plastika mədəniyyətinin tərbiyəsi – əməli zahiri hissəsinin hərəkət tərbiyəsi deməkdir. Başqa sözlə, aktyorun hərəkət mədəniyyətinin keyfiyyətini təyin edən əsas meyar – rolun fiziki əməlinin tərkibi olan hərəkətin icrasında məqsədyönlük, ardıcıllıq və dəqiqlik səviyyəsidir.

Aktyorun səhnə hərəkətinin tərbiyəsi ilə məşğul olan, onu inkişaf etdirməyə çalışan müəllim səhnədə düzgün davranışın vacib şərtini, psixi və fiziki halın vəhdətini daim yadda saxlamağa borcludur.

Hər bir səhnə əməlinin konkret forması aktyorun səhnədə "təklif edilmiş

şəraiti" dürüst dərk etməsindən, rejissorun yozum şərtlərinə uyğun olaraq ifaçının qarşısına qoyulan məqsəddən, istedadından, əsəb sisteminin xüsusiyyətlərindən, nəhayət orqanizminin hazırlığından birbaşa asılıdır.

Yuxarıda qeyd etdiyimiz kimi, hərəkət – skelet əzələlərinin funksiyasıdır; bu həmən kərpiclərdir ki, rolun fiziki əməli onlardan hörülür.

K.S.Stanislavski aktyor sənətində hərəkətin təyinatı və əhəmiyyəti haqqında demişdir ki: "... bizim sənətin artisti, incəsənətin başqa sahələrindən fərqli olaraq, nəinki yaşama prosesini yaradan daxili aparatı, eləcə də hisslərin yaratdığı işin nəticəsini, onun zahiri təcəssüm formasını düzgün göstərən bədən aparatının da üzərində işləməlidir"!

Səhnə əməlinin hər anında aktyor psixologiyasının fəaliyyətini müəyyən edən amillər nəzərə alınmazsa, onun bütün hərəkətlərinin, jestlərinin emosional rəngarəgliyi – yəni hisslərinin zahiri ifadəsi qeyri-mümkündür. Belə ki, hisslərdən məhrum olan hər hansı fiziki əməl həqiqi və təbii ifadəlilikdən də məhrum olur.

Bu o deməkdir ki, aktyorun səhnə hərəkəti üçün hazırlıq işləri məşğələlərin konkret formasını şərtləndirən psixoloji amillərə müvafiq şəkildə qurulmalıdır.

"Plastikanı, akrobatikanı öyrənmək lazımdırmı?" – sualına cavab verən görkəmli aktyor C.M.Mixoels cavab verir ki, "Öz-özlüyündə belə ustalıq səhnədə heç kimə lazım deyil. Başqası lazımdır, fikrimizin diktə etdiyi əmri yerinə yetirə bilən bədən hazırlığı lazımdır"!

Fikrin diktə etdiyi əmri yerinə yetirməyi bacaran bədən hazırlığı yüksək sinir sistemi fəaliyyətinin də hərəkət funksiyalarını ehtiva edir. Beləliklə, səhnədə hərəkətlərin fiziki ifadəsinin təzahürü ilk növbədə, aktyorun yüksək sinir sistemi fəaliyyətinin nə dərəcədə inkişaf etməsinin göstəricisidir. Deməli, aktyorun səhnə işindəki hərəkətlə bağlı hazırlığı, ilk növbədə onun hərəkət mərkəzlərinin fəaliyyətində yüksək səviyyəyə nail olması ilə birbaşa bağlıdır.

K.S.Stanislavski deyirdi ki, rolda aktyorun plastikasını təyin edən əsas amil "görünən zahiri" deyil, görünməyən enerjinin daxili hərəkətidir". Məhz bu, "görünməyən, enerjinin daxili hərəkəti" skelet əzələlərinin funksiyasında mütləq öz zahiri ifadəsini tapır.

Əgər hərəkət mərkəzlərinin fəaliyyəti bədən hərəkətlərində işə düşmürsə məşqlərin aparılması mümkün deyil. Bu məşqlərin həmişə ardıcıl və məqsədyönlü olması çox vacibdir. Hətta ümumi inkişaf məşğələləri zamanı müəllim konkret əməli tapşırıqlar verməlidir: qollarla dartılarkən baş daha yuxarı qalxsın; əyilərkən baş dizlərə toxunsun; yeriyərkən dizlər bel səviyyəsində qaldırılmış ovuclara toxunsun və s. Məşğələni daha fəal icra etmək kimi izahlar verməkdənsə, məqsədə çatmaq istəyi orqanizmi həmişə əhəmiyyətli dərəcədə daha dürüst toparlayır. İştirakçılar düzgün sxem yaratdıqdan sonra, müəllim bütün məşğələlərdə bu metodikadan istifadə etməlidir.

Beləliklə, aktyorun plastika mədəniyyətinin tərbiyəsində skelet əzələlərinin funksiyaları başlıca məqsəd deyil, məhz konkret niyyətin həlli vasitəsi olmalıdır.

Məşğələlərin bu cür tətbiqi tələbə aktyoru məqsədyönlüyə alışdırır. Əgər aktyorun bu keyfiyyətləri inkişaf etdirilsə, o fiziki baxımdan həmişə fəal olub istənilən əməl məqamında lazım olan hərəkətin düzgün və ifadəli edilməsinə nail olacaq.

Aktyorun hərəkət hazırlığının metodikası İ.D.Pavlovun fiziologiya məktəbinin və onun davamçılarının hərəkət mərkəzlərinin inkişaf etdirilməsi sahəsindəki nailiyyətlərinə əsaslanaraq, K.S.Stanislavskinin davamçılarının bu nailiyyətlərdən bəhrələnib apardıqları empirik təcrübələr bədən hərəkətlərini idarə edən sinir sisteminin mərhələli inkişafına gətirib çıxarır; Belə aktyorun hərəkət texnikası və onun ardıcıllığı heç vaxt qəlib şəklində olmayıb həmişə dəyişməyi, tempo-ritmin kiçik dəyişikliklərinə belə uyğunlaşmağa nail olacaq. Həmin aktyorun fiziki əməllərinin icrası onu, hər şeydən əvvəl bəsit və saxta oyun tərzindən qoruyacaq. Bunu da qeyd etmək lazımdır ki, hərəkət müəllimi aktyorun intuitiv əməl funksiyasını yalnız bir yolla; yaşama yaradıcılığı prosesində baş verən kiçik dəyişikliklərə belə ani reaksiya vermək bacarığını tərbiyə etmək yolu ilə inkişaf etdirə bilər. İntuisiya, sinir impulslarının ötürülməsi baxımından yüksək sürətə malik olduğu üçün, onun yaratdığı lazımi hərəkətlər ifaçının özünənəzarəti xaricindədir. Belə ki, həmin hərəkətlərin dərk edilməsi yalnız ifadan sonra mümkün olur.

Yuxarıda ifadə etdiyimiz mülahizələr belə bir qənaətə əsas verir ki:

1. “Səhnə hərəkəti” fənninin metodikası tədrisin ümumi pedaqoji vəzifələri ilə bərabər, həm də özünün spesifik vəzifələrini yerinə yetirir. Qısa müddət ərzində maksimum nəticələrə nail olmaq, prosesi daha məhsuldar etmək məqsədi pedaqoji təcrübədə özünəməxsus metodik prinsip və üsulların yaranmasına gətirib çıxarmışdır.

2. “Səhnə hərəkəti” fənninin metodikasının, onu kafedranın başqa fənləri ilə əlaqələndirməsi çox vacibdir.

3. Aktyorun hərəkət üzrə yetişdirilməsi məqsədi – sənət vərdişlərinin məşqlər səviyyəsindən səhnə sənətinə ötürülməsinə nail olmaq – bütün hərəkət predmetlərinin səyi ilə və söz yox ki, əsas ixtisas müəllimlərinin bacarıqlarından bəhrələnməklə mümkün olur.

4. Müəllim öz şəxsi və qazandığı təcrübəsi əsasında müxtəlif xüsusi vərdişlərin tətbiqi haqqında danışmalı və necə yerinə yetirilməsini göstərməlidir. Tələbələrin gördükləri tamaşalardan və filmlərdən olan epizodlardan nümunə kimi geniş istifadə etmək bizcə olduqca səmərəlidir. Çünki bu, tələbələrin dünyagörüşünü genişləndirir, onların səhnə əməlinin plastik ifadəsinə maraqlarını artırır.

5. Tələbələrin öz bacarıqlarını əsas ixtisas fənləri ilə əlaqədə düzgün istifadə etməklə aparılan məşğələlərin səmərəsini anlayıb səhnə hərəkəti fənninin tədrisini tam və ciddi şəkildə mənimsəməklə müəyyən professional səviyyə əldə edə bilərlər.

Sonda onu qeyd etmək lazımdır ki, “Səhnə hərəkəti” fənninin tədrisi işinin bu istiqamətdə olan məqsədləri, perspektiv hədəfi gələcək sənət adamlarının peşəkar səviyyədə yetişdirilməsidir.

**Ədəbiyyat siyahısı:**

1. Hüseynov H.B. Səhnə hərəkəti – "Maarif" Bakı-1985
2. İ. İsrafilov. "Stanislavski və aktyor sənətinin qrammatikası". Bakı-2021.
3. Novruzov S.B. Aktyorun əl-qol hərəkətlərinin inkişaf etdirilməsinə aid məşğələlər – metodik tövsiyə - Bakı-2006
4. Novruzov S., Ə.Rzayev. "Səhnə hərəkəti" fənninin proqramı. Bakı-2023.
5. Stanislavski K.S. "Mənim səhnə həyatım" B.Azərtədrisnəşr. 1963, tərcümə edən professor R.Təhmasib.
6. Дрознин А.Б. Физический тренинг актера по методике А.Дрознина. «Я вхожу в мир искусств. Репертуарно-методическая библиотечка» №4, (80),2004.
7. Закиров А.З. Семь уроков сценического движения. – М., 2009.
8. Михоэлс С.М. Статьи. Беседы. Речи. М., «Искусство», 1960, стр.174.
9. Кох И.Э. Основы сценического движение – Москва – 1976
10. Станиславский К.С. Собр.соч., т.2, стр.26-27.
11. Сценическое движение дисциплины. ВТУ (И) им. М.С.Щепкина. Москва 2019.

**Sahib Bayram Novruzov**

## О МЕТОДОЛОГИИ ПРЕДМЕТА «СЦЕНИЧЕСКОЕ ДВИЖЕНИЕ»

**Resume.** The article talks about the methodology of teaching the subject "Stage movement" in theater schools. The importance, goals and tasks of the subject for the training of theater artists, its connection with the art of actors, singers, and directors, and the preparation of plastic arts on the stage have been explained. At the same time, the importance of the subject "Stage movement" in stage art, its role as one of the main branches are noted. The points that touch on the degree of importance of the discussed subject in the education of the actor's individuality can be considered as the main value of the article. The features of practical application of theoretical knowledge are highlighted here. At this time, the effectiveness of long-term pedagogical methods is brought to attention.

**Key words:** subject, stage, actor, action, teacher, method, teaching, exercise

**Сахиб Байрам Новрузов**

## ABOUT THE METHODOLOGY OF THE SUBJECT "STAGE MOVEMENT"

**Резюме:** В статье говорится о методике преподавания предмета «Сценическое движение» в театральных школах. Объяснены значение, цели и задачи предмета для подготовки артистов театра, его связь с искусством актеров, певцов, режиссеров, подготовкой пластических искусств на сцене. При этом отмечается значение темы «Сценическое движение» в сценическом

искусстве, ее роль как одной из основных отраслей. Главной ценностью статьи можно считать те моменты, которые затрагивают степень значимости обсуждаемой темы в воспитании актерской индивидуальности. Здесь выделены особенности практического применения теоретических знаний. В это время обращается внимание на эффективность долгосрочных педагогических методов.

**Ключевые слова:** предмет, сцена, актер, действие, педагог, метод, обучение, упражнение

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.04.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

## KİNO, TELE VƏ DİGƏR EKRAN SƏNƏTLƏRİ

**UOT 791.43.**
**DOI: 10.52094/3005-9941.45.2024.018**

**Samıma Salımova**
**T.C. İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü**
**İletişim Fakültesi**
**Radyo Televizyon Sinema Bölümü**
**Doktora öğrencisi**
**ORCID: 0000-0002-3628-7782**
**E-mail: samiruzgar@mail.ru**

# SİNEMA İZLEYİCİLERİNİN FİLM İZLEME ALIŞKANLIKLARINDA İZLEYİCİ MEKAN İLİŞKİSİ ANALİZLERİ

**Öz**:Bu çalışma sinemadaki mekan faktörüne dikkat çekerek izleyicinin film tercihlerinde filmlerin gösterim mekanlarının etkisini inceleyerek hangi film türünün daha çok hangi mekanlarda izlendiğini ve film içeriğinin mekan tercihine etki edip etmediğini ortaya koyarak, film endüstrisine seyirci-mekan ilişkisine dair farklı bir perspektif kazandırmağı hedeflenmektedir. Bu araştırmadan elde edilecek sonuçlarla, film yapımcılarına hangi tür filmi hangi mecrada gösterime sokarlarsa daha çok izleyiciye ulaşabilecekleri noktasında bilgi vermek suretiyle Türk film endüstrisine katkıda bulunmak amaçlanmaktadır.

**Anahtar Sözcükler:** Sinema, film, mekan, seyirci, gösterim.

## 1. SİNEMA İZLEYİCİSİ ve FİLM GÖSTERİM MEKANLARI

### 1.1. Sinema Filmleri

Bir sinema filmi neyi ifade eder? Sinema filminin üç temel noktaya dayandığı söylenebilir. Özne, anlatım ve anlatılan şey. Sinemanın öznesi de yaşamın kendisidir. Sinema; olgusal olarak, büyük bir endüstriden eğlence sektörüne, sürekli gelişen bir teknolojiden film gösterim salonlarına ve buralarda gösterilen filmlere kadar film izleme deneyimlerini içeren çoklu bir anlamlandırmayı ifade ediyor.
Sinema bir sanat fikri olarak ele alındığında da bu çok anlamlılık yine devam ediyor. André Bazin, sinemayı, diğer tüm sanatları içinde barındırdığı için, "saf olmayan" (impure) yani çoklu unsurlar içeren, gücünü de bundan alan bir sanat olarak tanımlıyor. Jean-Luc Godard, Histoire(s) ducinéma (1988-1998) adlı belgesel filminde, olgusal ve fikirsel niteliklerden öte, sinemaya tüm kavramsallıkların aşıldığı mistik bir yolculuk olarak bakar (Bazin, 2011, s.196).

Fransız filozofu Henri-Louis Bergson ise, 1907 yılında yazdığı L'Evolutioncréatrice adlı eserinin 4. bölümünde sinema için aynı şekilde "önemsiz" (inessentiel) nitelemesi yapar (Bergson, 1907).

Ancak sinema her şeyden önce bir tekniktir. Sinematografın teknik bir icat olduğunu göz önüne alırsak, aslında kendi mekanik yapısında doğrudan, herhangi bir özgün sanatsal kapasite taşımaz. Martin Heidegger, tekniğin kendi başına düşünen bir kavram olmadığının altını çizer (Heiddegger, s.308).

Buradan yola çıkarak Heidegger'in demek istediğinin, sinema tekniğinin; düşünen ve eylemde bulunabilen, yaratıcı bir fikir üretebilen bir kavram olmayışıdır. Sinematografın da aslında teknik bir icat olarak, hangi yaratıcı fikirleri nasıl bir zihinsel kapasite ile harekete geçirebileceği bu sanat tekniğinin icadından beri uygulayıcıları arasında tartışma konusu olmuştur. Ancak icadın teknik boyutu ile sanatsal yaratıcılığa olan etkisi arasına bir çizgi çekmek gerekir.

Sinematograf ile Dziga Vertov'un Kameralı Adam (Man with a Movie Camera, 1929) ile yaptığı gibi sokaklara çıkıp, bir şehrin, günlük sıradanlığını, eğlencesini renkli ve çoklu görüntüler koleksiyonun coşkulu haliyle kaydederek psikolojiden, karakterlerden ve senaryodan arınmış yeni bir yaşamın sineması yaratılabilir. Aynı duygu,Vittorio De Sica'nın Bisiklet Hırsızları (1948) filminde yaptığı gibi, bir çocuk ve babasının trajik hikayesi üzerinden savaş sonrası İtalya'sının yıkık hali belgelenir.

Sinema okuması yaparken söz konusu olan farklı filmlerde sinemanın hiçbir sanatsal özellik taşımayan kendi teknolojik şartlara rağmen, belli bir sanatsal fikir çerçevesinde seçim ve organizasyon yapabilen bir yaratıcılıkla ve teknolojiyi harekete geçirerek, sinematografik olarak düşünebilmektir.

### 1.2. Sinemada Film Türleri

Filmler, konularına, türlerine göre sınıflara ayrılır. Sinema izleyicisinin sevdiği veya tercih ettiği film türleri vardır. Aynı zamanda bu türler, "film janraları" veya "sinemada janralar" diye de nitelendirilir. Buna göre film türlerini şu şekilde sınıflandırmak mümkündür;

Aksiyon: Aksiyon filmleri; tansiyonu yüksek, adı üstünde sürekli hareket, yüksek enerji içeren sahneler, sekanslar; patlamalar, koşturmalar, kaçış, takip sahneleri, araba, dövüş sahneleri barındıran filmlerdir. Örneğin casus filmleri, yüksek tempolu suç filmleri bu türe girer. Aksiyon türünde Görsel efektler, ses efektleri, "yeşil perde" çekimleri bolca görünür.

Macera: Film türlerinin başında, macera ve aksiyon gibi iki yakın, iç içe geçmiş türü sıralamak, açıklama kısmında biraz beni zorladı. Macera filmleri, genelde heyecanlı hikayeler sunar. Klişelerine geçersek; ormanda, çölde geçebilir, bir av hikayesi veya hazine bulma hikayesini konu alabilir. Örnek vermemiz gerekirse, Indiana Jones filmleri bu türün önemli seri filmlerindendir.

Belgesel: Belgesel, çok fazla alt tür bulunduran geniş bir sınıf. Belgeselde, alışkın olduğumuz kurmaca filmlerin aksine dev bütçeler, planlı çekimler, senaryoya bağlı kalma durumları yoktur. Daha özgür ve daha gerçekçi bir türdür. Hayatın kendisidir. Belgesellerin konusu, dünya üzerindeki herhangi bir olgu, konu olabilir (Özon,1964, s.66).

Western: Kovboy filmlerini ayrı bir tür olarak değil de, destan türünün bir çeşidi olarak ele alan sinema yazarları da vardır.Çünkü gerçekte kovboy filmi türü, gecikmiş bir destan türüdür: Yepyeni, bilinmedik bir anakarada (kıtada) 18. yüzyıl ortalarından sonra destan koşulları altında ortaya çıkan olayları ele alır. Bu bağlamda göç olgusu ile paralellik taşıyan hikayeler ortaya koyar. Ne var ki, en azın dan iki nedenden, kovboy filmi türünü başlı başına bir tür olarak ele almak daha yerinde olur. Birincisi, destan niteliği taşımayan kovboy filmlerinin de bulunuşu; ikincisi, kovboy filmlerinin yalnız bir ülkeye, Amerika'ya özgü oluşu.

Korku: Bu tür, adından da anlaşılacağı gibi, izleyicilerde korku uyandıran kişileri, olayları, durumları işleyen bir türdür. Korkunç olaylar, vampirler, hortlaklar, hayaletler, kurt adamlar, acayip yaratıklar bu tür filmlerin başlıca öğeleridir. Konu genellikle karanlık, karabasanlı (kâbuslu) bir hava içinde, ıssız, tekin olmayan yapılarda, yerlerde geçer. Korku filmleri tıpkı serüven filmleri gibi, izleyicinin sinirleriyle oynamak temeline dayanır. Fakat bu oynayış, heyecan yaratmaya değil, seyirciyi korkutmaya, yıldırmaya yönelir. Nitekim korku filmlerinin en aşırı çeşidine yılgı filmi denir.

Müzikal: Sesli filmin ortaya çıkışıyla sinemaya giren müzikli, danslı film türü değişik bir gelişme göstermiştir. Müzikli filmin önce görünçlükteki müzikli oyunların sinemaya aktarılması biçiminde ortaya çıkmış, opera ve operet sanatçıları görünçlükteki başarılarını alıcı önünde yinelemeye çağrılmışlardır. Ayrıca büyük bestecilerin yaşamöyküleri de, daha önce gördüğümüz yaşamöyküsel tür ve müzikli filmin bir karışımı olarak izleyicilerin önüne çıkarılmıştır. Böylelikle, müzikli film türünün bu ilk döneminde en büyük yeri operalar, operetler, özellikle Viyana operetleri tutmuştur.

4. https://az.wikipedia.org/wiki/Robert_Şuman

**Humay Saleh Mansurova**

## PERFORMANCE FEATURES OF ROBERT SCHUMAN'S "VIENNA CARNIVAL" FOR PIANO

**Summary:** The presented article is devoted to the study of performance characteristics of the famous composer Robert Schuman's "Vienna Carnival". The article provides information about the creation date of the work "Vienna Carnival", the parts of the work, the names of the parts and the characteristic features of each part. At the same time, the performance characteristics of the piece are investigated, pianism methods are determined, and performance recommendations are put forward to solve the issues encountered during the performance of the piece. In the end, we come to the conclusion that works for the piano are of great importance in the work of the outstanding composer Robert Schuman. Among these works, "Vienna Carnival" attracts attention with its rich music and performance methods.

**Key words:** Robert Schumann, Vienna carnival, sonata, rondo, series, parts, finale, pianistic methods.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 19.03.2023**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

**UOT 78.**
**DOI: 10.52094/3005-9941.45.2024.020**

**Gülnaz Vahid qızı Rzayeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: gulnaz70rzali@gmail.com**

# TERMENVOKS: YARANMASI, ETİMOLOGİYASI VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Məqalə termenvoks alətinin yaranma tarixi, etimologiyası və morfoloji xüsusiyyətlərinin araşdırılmasına həsr olunmuşdur. İlk elektron musiqi aləti olan Termenvoks 1918-ci ildə rus ixtiraçısı Lev Termen tərəfindən yaradılmışdır. Lev Termen onu "Eteron" adlandırsa da, sonra ixtiraçının şərəfinə "Termenvoks" adlandırdılar. Termenvoks çalarkən alətə heç bir fiziki təsir tələb olunmur. Alətə təsir, oradan müəyyən bir məsafədə elektromaqnit sahəsində əl hərəkətləri ilə baş verir. Proletariat lideri Vladimir İliç Lenin termenvoksda M.Qlinkanın "Javoronok" (Torağay) əsərini demək olar ki, tam şəkildə ifa etmişdir. Qısa müddət ərzində termenvoks dünya şöhrəti qazanır. Albert Eynşteyn, Çarli Çaplin, Moris Ravel, Leapold Stakovski, Rokfeller, Corc Gerşvini termenvoksun səsi cəlb etmişdir. XX əsrin əvvəllərində bütün dünyada termenvoks ifaçıları məhdud sayda idisə, bu gün artıq onları saymaq mümkün deyil. Bu gün Lev Termenin işini onun nəticəsi Pyotr Termen fəal şəkildə davam etdirir.

**Açar sözlər:** termenvoks, Lev Termen, kosmik musiqi, elektron musiqi, termenvoks ifaçıları, elektrofonlu alətlər

İnsanın emosional dünyasını musiqisiz təsəvvür etmək mümkün deyil. Musiqi min illər boyu insanın həyatını müşayiət edib, onun yaradıcılığını və məişətini, hiss və təcrübələrini əks etdirir. Bəşər sivilizasiyasının inkişafı ilə müxtəlif musiqi alətləri meydana gələrək, təkmilləşib müasir formasını alır.

XX əsrdə radio mühəndisləri və musiqiçilər arasında sıx əməkdaşlığın nəticəsində ilk elektron musiqi alətləri yarandı. Gələcəyin musiqisi və musiqi alətləri haqqında düşünən alimlər öz xüsusiyyətlərinə görə ənənəvi musiqi alətlərini üstələyən unikal cihazlar yaratmağa başladılar. Elektron musiqi-elektron musiqi texnologiyasının köməyi ilə yaradılan musiqi növü olub, elektrofonlu musiqi alətlərilə ifa edilir.

**Termenvoks alətinin yaranması:** Elektrofonlu musiqi alətlərindən biri olan termenvoks 1918-ci ildə rus ixtiraçısı Lev Termen tərəfindən yaradılmış və 1928-ci ildə ixtiraçı tərəfindən patentləşdirilmişdir. İxtiraçının musiqi ilə elektrik mühəndisliyi sahəsindəki elmi bilikləri arasındakı əlaqəliliyi öyrənmək üçün qısaca olaraq onun yaradıcılığına nəzər salaq: Lev Termen 1896-cı ildə Sankt-Peterburqda anadan olmuş, Sankt-Peterburq Gimnaziyasında violonçel dərsləri alaraq, fizika ilə

ciddi məşğul olmuşdur. Gimnaziyanın dördüncü sinfində "Tesla tipli rezonans" nümayiş etdirərək özünün qeyri-adi elektro-texniki istedada malik olduğunu təsdiqləyir. Musiqi təhsilini davam etdirmək üçün N.Rimski-Korsakov adına Sankt-Peterburq Konservatoriyasına daxil olur və 1916-cı ildə konservatoriyanı violonçel ixtisası üzrə bitirir. Fizika sahəsindəki təhsilini artırmaq arzusu ilə 1920-ci ildə Sankt-Peterburq Politexnik İnstitutunun fizika-mexanika fakültəsinə daxil olaraq, gümüş medalla təhsilini başa vurur. Lev Termen istedadlı mütəxəssis kimi bir çox avtomatik sistemlər: avtomatik qapılar, avtomatik işıqlandırma və təhlükəsizlik siqnalizasiya sistemləri icad etmişdir.

Eyni zamanda Moskva Konservatoriyasının laboratoriyasında çalışaraq bütün gücünü yeni elektron musiqi alətlərinin hazırlanmasına sərf etmişdir. Onun icad etdiyi termenvoks aləti 1921-ci ildə Politexnik Muzeyində VIII Elektrotexnika Konqresində nümayiş etdirildi və bu ixtira Elektron Musiqi alətlərinin yayılmasının başlanğıcını qoydu.

**Termenvoksun etimologiyası:** Lev Termen aləti ilkin olaraq "Eteron" adlandırsa da, elm adamları birliyi onu ixtiraçının şərəfinə – "Termenvoks" (termen – ixtiraçının adı, voks – latınca səs) adlandırdılar. İlk nümayişi zamanı ictimaiyyət aləti heyranlıqla qarşılayır və səsin haradan gəldiyinin anlaşılmazlığı hamını heyrətə salır. Termenvoks bütün dünyada yeganə alətdir ki, ona təmas olunmadan ifa edilir.

**Termenvoksun morfoloji xüsusiyyətləri və tembri:** Termenvoks yarandığı gündən böyük bir tarixi yol keçərək, bu günə qədər öz aktuallığını qoruyan simvolik alət-cihazlardan birinə çevrildi. İlk baxışdan onu ifa edən və dinləyən şəxsdə elə təəssürat yaranır ki, dinləyicinin gözü qarşısında hansısa sehr baş verir. Və bu təəccüblü deyil, çünki termenvoks çalarkən alətə heç bir fiziki təsir tələb olunmur. Alətə təsir, oradan müəyyən bir məsafədə elektromaqnit sahəsində əl hərəkətləri ilə baş verir. Bu hərəkətlər bir qədər dirijorun orkestr qarşısındakı hərəkətlərinə bənzəyir. Elektromaqnit sahəsi alətə quraşdırılmış iki yüksək tezlikli generator tərəfindən yaradılır. Generatorlardan birinin sabit tezliyi var, ikincisi isə dəyişən tezliklidir. Termenvoksda səs iki metal antena sayəsində təmin edilir. Sağ tərəfdə üzü yuxarı düz antena, sol tərəfdə isə yarım dairəvi formada aşağı vəziyyətdə dayanmış antena yerləşir. Bu antenalar ifaçının əllərinin mövqeyinə görə səs çıxarır. Bir əl ilə titrəyiş dalğaları göndərilir, digər əl ilə səsin şiddəti müəyyən edilir. Yəni, sağ əl səslərin yüksəkliyini – notları göstərib, sağ antenaya yaxınlaşdıqda yüksək registrdə yerləşən səslər hasil edilir, əl antenadan uzaqlaşdıqca bəm səslər eşidilir. Sol əl isə səsin gücünü təyin edir. Belə ki, sol əl yarım dairəvi sol antenaya yaxınlaşdıqda səs daha da zəifləyir, əl uzaqlaşdıqca səs daha da yüksəlir. Xromatik səslənməni hasil etmək ifaçıdan xüsusi diqqət tələb edir. Alətin morfoloji xüsusiyyətlərinə və tembrinə xas olaraq lirik xarakterli əsərlər onda gözəl səslənir. Alət çox həssas olub, maqnit sahəsindəki ən kiçik dalğalanmalara reaksiya verir. Termenvoks bütün dünyada mövcud olan musiqi alətlərindən daha həssas olduğu üçün ifaçının xarakteri belə alətin səslənməsinə təsir edir. İfaçı aləti səsləndirərkən

əsərin xarakterinə uyğun olaraq yırğalanarsa bu halda, termenvoksda artıq səslər və sürüşmələr hiss olunar. Bu səbəbdən də ifaçı alət arxasında düz dayanmalı, bədənin və əllərin artıq hərəkətlərinə yol verməməlidir.

1932-ci ildə Mark Blisşteyn "Müasir musiqi" jurnalında alətin lirik tembri haqqında belə fikir irəli sürür: *"Termenvoksun tembri vahiməli sentimental olaraq qalır və qəhrəmanlıq xarakterdə səslənmə bu alətə tamamilə yaddır"* [1, s.7].

**Termenvoksun ifaçıları:** XX əsrin əvvəllərində alətə müxtəlif rəylər verilsə də, onun ecazkar səsi və mistik tembri hamını heyrətləndirirdi. Alətin ilk ifaçısı ixtiraçı özü olub, A.Skryabin "Etüd" və Sen-Sans "Qu quşu"nu termenvoksda interpretasiya edərək onun kosmik tembrini nümayiş etdirir. Termenvoks öz ecazkar səsi ilə hökumətin də diqqətini çəkir və tezliklə Kremldə təqdim olunur. Yeri gəlmişkən, proletariat lideri Vladimir İliç Lenin Lev Termenin köməkliyi ilə termenvoksda M.Qlinkanın "Javoronok" (Torağay) əsərini demək olar ki, tam şəkildə ifa etmişdir. Qısa müddət ərzində termenvoks dünya şöhrəti qazanır. Fizik Albert Eynşteyn, aktyor Çarli Çaplin, bəstəkar Moris Ravel, dirijor Leapold Stakovski, Corc Qerşvini termenvoksun səsi cəlb etmiş və onlar bu alətdə bir-neçə kiçik ifalar nümayiş etdirmişlər.

Lev Termendən sonra alətin məşhur ifaçısı-onun ilk assistenti və termenvoksun bütün dünyada ilk professional ifaçısı Konstantin Kovalski hesab edilir. Konstantin Kovalski öz ifaçılıq tərzində bir qədər fərqli sistemə əsaslandı. K.Kovalski termenvoksun ilk modelində ifa tərzinə üstünlük verdi. Bu model təkmilləşmiş termenvoksdan müəyyən cəhətlərinə görə fərqlənir: sağ əl yeni modeldə olduğu kimi antena vasitəsilə səsləndirilirdisə, sol əldə düyməcik vasitəsilə səsin ümumi xarakteri idarə olunur, səsin yüksəkliyi isə pedal vasitəsilə tənzimlənirdi. Mühəndis Lev Korolyovla əməkdaşlıq nəticəsində Kovalski termenvoks alətini daha da təkmilləşdirdiyi üçün alətin bu növü – Kovalski sistemi kimi məşhurlaşdı və ifaçı bu modeli bütün dünyada təbliğ edərək şöhrət qazandı.

1992-ci ildə Moskvada Termen Mərkəzi yaradıldı və onun əsas məqsədi eksperimental elektroakustik musiqi sahəsində çalışan musiqiçiləri dəstəkləmək idi.

Termenvoksun mahir ifaçısı və elektron musiqinin təmsilçisi Jan Mişel Jarr canlı ifalarında, albom və bəstələrində bu alətdən məharətlə istifadə edərək müasir – kosmik musiqidə daha cəlbedici səslənməyə nail olur. Led Zeppelen qrupundan Cimmi Peyc, Mumiy Troll qrupu, Linkin Park, Rammstein, Rolling Stones və Stinq fərdi treklər yazdırarkən termenvoksdan istifadə edirdilər.

2006-cı ildə Perm Akademik Teatrında çex yazıçısı və dramaturqu Petr Zelenkanın "Termen" pyesi əsasında eyniadlı tamaşa səhnələşdirilir. Tamaşada Termenin yaradıcılığı, onun həyatının ən maraqlı və dramatik dövrü, Amerika Birləşmiş Ştatlarındakı fəaliyyəti işıqlandırılır [2, s.4].

Amerikalı Klara Rokmor termenvoks alətinin ən məşhur ifaçılarından biri kimi bütün dünyada tanınmışdır. O, violonçel və skripka üçün bəstələnmiş əsərləri termenvoksda professionallıqla təfsir edir. Klara Rokmor termenvoksda İosiz

Axronun “Yevrey melodiyası”, Ravelin «Pièce en forme de Habanera», Sezor Frankın sonatasını interpretasiya edərək alətə böyük maraq yaradır. O, termenvoks alətini bir qədər də təkmilləşdirərək *Claravox* kimi məşhurlaşdırır.

İllər keçdikcə bütün dünyada termenvoksun məşhur ifaçıları yetişir və onlardan hər biri özünün ifaçılıq tərzi ilə seçilir. Gənc alman ifaçısı Korolina Ayk termenvoksda ifaçılıq texnikasına və səslənmə tərzinə yeniliklər gətirdi. O, termenvoksda ifa etməklə yanaşı alətin tembrinə uyğun olaraq səslə oxuma qabiliyyətini nümayiş etdirdi və bu üsul dinləyicilər tərəfindən rəğbətlə qarşılandı.

Hollandiyalı musiqiçi Torvald Yorhensen Klara Rokmorun ifaçılıq metodlarına əsaslanaraq, onun interpretasiyalarından bəhrələnir.

Amerikanın məşhur caz ifaçısı Pameliya Kurstin ilk dəfə olaraq termenvoksda bas səslərini hasil edərək, caz improvizasiyaları ilə çıxışlar edir.

Kanadalı Piter Prenqal və macar ifaçısı Katica İllenyinin termenvoksda ifalarını opera vokalı ilə müqayisə etmək mümkündür.

İngiltərəli Siliya Şin orkestrdə termenvoks ifaçısı kimi tanındı. O, ilk dəfə olaraq alətdə texniki əsərləri bütün xırdalıqları ilə səsləndirmişdir. Rusiyalı bəstəkar Olesya Rostovskaya bütün simfonik əsərləri termenvoksda səsləndirərək məşhurlaşdı. Son illərdə Rusiyada termenvoksun təmsil olunması işini Lev Termenin qızı Nataliya və nəticəsi Pyotr Termen fəal şəkildə davam etdirir.

Bu gün Rusiyada istedadlı termenvoks ifaçıları yetişir: Sergey Zaslavskiy, Aleksandra Romanova, Yana Çumakova, Tatyana Şabanova və s.

**Termenvoks üçün bəstələnmiş əsərlər:** Termenvoks üçün ilk əsər 1923-cü ildə dövlətin sifarişi ilə məşhur rus bəstəkarı Andrey Paşenko tərəfindən bəstələnmişdir. “Simfonik sirr” adlanan bu əsərdə termenvoksun sirli tembri xarakterizə edilir. Ardınca, 1929-cu ildə Cozef Şilinqer tərəfindən termenvoks üçün “Birinci aerafonik süita” bəstələnir. Bu əsər Nikolay Sokolovun dirijorluğu ilə Klivend Simfonik Orkestrinin ifasında səsləndirilərək, solo termenvoks partiyasını ixtiraçı Lev Termen səsləndirir. Əsərin böyük uğurunu görən bəstəkar termenvoks ilə fortepiano üçün yeni iki əsər bəstələməyi qərara alır və elə həmin ildə “Melodiya” əsərini bəstələyir. Bəstəkarın 1932-ci ildə “Elektrik və potetik an” (Moment Electric and Pathetic) əsərində termenvoksun ecazkar səslənməsini daha aydın müşahidə etmək mümkün oldu. Bu əsərlərdən sonra amerikalı bəstəkar-pianoçu Corc Gerşvin və bəstəkar-trombon ifaçısı Qren Miller termenvoksda ifa etməyi öyrənmək üçün Lev Termendən özəl dərslər alır.

1936-cı ildə amerikalı bəstəkar-pianoçu Persi Qreyndcer dörd-altı termenvoks üçün “Azad Musiqi” (Free Music) adlı kompozisiyasını bəstələyir. Bu əsərdə ilk dəfə olaraq alətin texniki və tembr üstünlükləri daha geniş şəkildə nümayiş etdirilərək, alətdə insanın sonsuz səslərlə təması canlandırılır.

1944-cü ildə görkəmli çex bəstəkarı Boquslav Martinu termenvoks ilə qaboy, fortepiano və simli kvartet üçün “Fantaziya” bəstələyir. Bu əsər Lev Termenin Nyu-Yorkdakı sponsoru Lüsi Rozenə həsr edilmişdir. Elə bu ildə Kiprli bəstəkar Anis

Fuleyxan termenvoks və simfonik orkestr üçün süita bəstələyir və bu əsər dirijor Leapold Stakovskinin rəhbərliyi altında Nyu-York Filarmoniyası Simfonik orkestrinin ifasında səsləndirilir. Solo termenvoks partiyasını Klara Rokmor ifa edir. 1950-60-cı illərdə termenvoks alətinə maraq bir qədər azalmağa başlayır. Alətdə mürəkkəb ifaçılıq imkanları və yeni elektron cihazların meydana gəlməsi ilə termenvoks diqqətdən kənarda qalsa da, 60-cı ildən başlayaraq yenidən alətə maraq oyanır. Bu ildə sovet bəstəkarı Alfred Şnitke və braziliyalı bəstəkar Xorxe Antuneş öz «Pequena Peça Aleatória» və "Miksolidiya" əsərlərində termenvoksdan istifadə etməklə aləti yenidən canlandırdılar.

1990-cı illərin əvvəllərində görkəmli bəstəkar və radio-mühəndis Stanislav Kreyçi özünün "Təfəkkür", "Səs", "Yük" və "Dirçəliş" triptixində, Vladimir Komarov "Termenin səsi", Anatoliy Kisilyov "Ruinanın mahnısı"nda termenvoks alətinin sehrli səsini peşəkarlıqla xarakterizə etdilər.

Qərb ölkələrində də termenvoks alətinə maraq çoxalmağa başladı. Kanadalı bəstəkar Piter Prinql, amerikalı bəstəkar Çarli Lester, alman bəstəkarı Barbara Buxxolç, yapon bəstəkarı Masami Takeuçi öz əsərlərində termenvoksun mistik tembrini nümayiş etdirdilər. Yaponiyada alətə xüsusi maraq yarandı və alətin tədrisi üçün məktəblər təsis edildi.

**Termenvoks kino musiqisində:** 1929-cu ildə Lev Termen Amerikanın məşhur səsyazma kompaniyası olan – RCA Victor şirkətinə iki il müddətində kommersiya məqsədilə termenvoks istehsal etmək üçün müstəsna hüquqlar verir. Lev Termen mühəndislərlə birgə alətin səslənmə tonunu orta registrdə violonçel səsi, zil registrdə isə violin səsinə uyğunlaşdırdılar. Termenvoks bütün Amerikada məşhurlaşaraq, klassik musiqidə və konsert zallarında səsləndirilir. Məsələn: Sen-Sans Kamilin "Heyvanların karnavalı" süitasında "Ölən qu quşu" pyesində termenvoks alətinin səsi bütün dünya musiqisevərlərini heyrətləndirir. Termen öz aləti ilə London, Nyu-York, Paris və bir çox ölkələrdə çıxış edərək, orada həmfikirlərini və gələcək tələbələrini tapırdı. Nəticədə Termen ABŞ-da termenvoksun populyarlaşmasına əhəmiyyətli töhfə verən böyük bir musiqi studiyası qurdu [3, s.8].

1945-ci ildən başlayaraq termenvoks kino rejissorlarının diqqətini cəlb edir və onlar qorxulu kinofilmlərdə alətin mistik tembrindən istifadə edirlər. Termenvoksun ilk səsləndirildiyi filmlər "Yenidən doğulmuş", "Komsomol-elektrifikasiyanın şefi" və "İvan Vasiliyeviç peşəsini dəyişir" filmləri idi və bu filmlərdə aləti Konstantin Kovalski ifa etmişdir. Alfred Hiçkok "Ovsun", Billi Uaylder "İtirilmiş həftə sonu", Robert Uayz "Yerin dayandığı gün" filmlərində termenvoksdan yaradıcılıqla istifadə edir.

1960-70-ci illərdə italiyalı bəstəkar Ennio Morrikone Serco Leonun "Yaxşı, pis, zalım" filmi üçün "The Ecstasy of Cold" saundtrekində termenvoksdan istifadə edir. Saundtrekdə Karolina Eyk termenvoksda ifa edərək 7 milyon pərəstişkar qazandı. Bu illərdə termenvoks Tim Bertonun "Ed Vud", Qilermo del Toronun

"Hellboy", "Alisa möcüzələr ölkəsində", "Amfibiya adam", "Ulduz müharibələri", "Sonuncu uykend" filmlərində uğurla istifadə olunur. Bu günə kimi termenvoks 50-dən artıq kinofilmlərin musiqisində səsləndirilmişdir [6].

2011-ci ildə Lev Termenin qızı Natalya, nəticələri Maşa və Piter Termenin təşkilatçılığı ilə Moskva və Sankt-Peterburqda Lev Termenin şərəfinə "Termenologiya" mədəniyyət festivalı keçirilir.

2020-ci ildə Nyu-York termenvoks cəmiyyəti tərəfindən Lev Termenin şərəfinə "Termenvoks-100" adlı məcmuə nəşr edilir.

Beləliklə, XX əsrin əvvəllərində bütün dünyada termenvoks ifaçıları məhdud sayda idisə, bu gün artıq onları saymaq mümkün deyil. Deməli, illər keçdikcə nəinki musiqiçilərin, hətta adi insanların bu alətə marağı oyanır və alət daha da məşhurlaşır. Müasir dövrümüzdə dünyanın bir çox ölkələrində özəl məktəblərdə termenvoks dərsləri təşkil edilir, kurslar açılır və alət tədris olunur. Məsələn: Yaponiyada, Rusiyada termenvoks kursları geniş yayılmış və saysız-hesabsız termenvoks həvəskarları bu kurslara, özəl dərslərə yazılaraq alətdə ifa vərdişlərinə böyük maraq göstərirlər. Əfsuslar olsun ki, Azərbaycanda hələ termenvoks aləti elə də tanınmır. Termenvoks alətinin ölkəmizə gətirilməsi ilə onun tədrisinə başlanılması çox təqdirəlayiq ola bilərdi. Çünki, Azərbaycan dövləti inkişaf etməkdədir və dünya musiqi mədəniyyətində baş verən yeniliklərlə ayaqlaşmalıdır.

## Ədəbiyyat siyahısı:

1. Беляев В. Термен и электрическая музыка. «Жизнь искусства» № 23 за 1927 год, с.7
2. Грес С. Современная музыка на службе техники «Жизнь искусства» № 29 за 1929 год, с.5
3. Абрамов А. Возрождение музыки. «Терменвокс». «Рабис» № 23 за 1927 год, с.8
4. Воскресенский С. За революцию на музыкальной эстраде! «Новый зритель» № 28–29 за 1929 год, с.5
5. http://electro.nekrasovka.ru/books/1621/pages/7
6. https://a-a-ah.ru/blog/lektsiya-dnya-ispolzovanie-termenvoksa-v-mirovom-kinematografe

**Гульназ Вахид Рзаева**

# ТЕРМЕНВОКС: ПРОИСХОЖДЕНИЕ, ЭТИМОЛОГИЯ И МОРФОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА

**Резюме:** Статья посвящена исследованию истории, этимологии и морфологической характеристики инструмента терменвокс. Первый электронный инструмент-терменвокс был изобретен в 1919 году Львом Сергеевичем Терменом. Хотя Лев Термен изначально называл его «Этерон»,

позже в честь изобретателя он получил название «Терменвокс». В.И.Ленин почти полностью исполнил на терменвоксе «Жаворонка» Глинки. Джордж Гершвин, Морис Равель, Яша Хейфец, Чарли Чаплин, Альберт Эйнштейна привлек звук терменвокса. Игра на терменвоксе заключается в изменении музыкантом расстояния от своих рук до антенн инструмента, за счёт чего изменяется ёмкость колебательного контура и, как следствие, частота звука. Если в XX веке выступающих терменвоксистов во всем мире можно было сосчитать по пальцам, то на сегодняшний день их – тысячи. В России в последние годы самым активным терменвоксным деятелем стал молодой Пётр Термен-провнук изобретателя.

**Ключевые слова:** терменвокс, Лев Термен, космическая музыка, электронная музыка, исполнители терменвокса, электрофонические инструменты

**Gulnaz Vahid Rzayeva**

## TERMENVOKS: ORIGIN, ETYMOLOGY AND MORPHOLOGICAL FEATURES

**Summary:** The article is devoted to the investigation of the history, etymology and morphological characteristics of the termenvox tool. Termenvox, the first electronic musical instrument, was created in 1918 by Russian inventor Lev Termen. Although Lev Termen called it "Eteron", later it was called "Termenvox" in honor of the inventor. When playing Termenvox, no physical impact is required on the instrument. The impact on the instrument occurs with hand movements in the electromagnetic field at a certain distance from it. The leader of the proletariat, Vladimir Ilyich Lenin, performed M. Glinka's "Javronok" (Toragay) almost completely in termenvox. In a short time termenvox gained world fame. Albert Einstein, Charlie Chaplin, Maurice Ravel, Leopold Stakovsky, Rockefeller, George Gershwin were attracted by the sound of termenvox. At the beginning of the 20th century, there were a limited number of termenvox performers all over the world, but today it is impossible to count them anymore. Today, Lev Termen's work is actively continued by his descendant Pyotr Termen.

**Keywords:** termenvox, Lev Termen, cosmic music, electronic music, termenvox performers, electrophonic instruments.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 03.01.2024**

**UOT 78.**
**DOI: 10.52094/3005-9941.45.2024.021**

**Rövşən Əbdürrəhman oğlu Əmrahov**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**dissertant**

# OQTAY ZÜLFÜQAROVUN FORTEPİANO TRİOSUNUN XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Təqdim olunan məqalədə Azərbaycan bəstəkarlıq məktəbinin parlaq nümayəndəsi Oqtay Zülfüqarovun fortepiano triosunun xüsusiyyətlərindən bəhs olunmuşdur. Məqalədə əvvəlcə bəstəkarın yaradıcılığına nəzər salınmış və kamera-instrumental əsərlərinin xüsusiyyətləri işıqlandırılmışdır. Daha sonra fortepiano triosu təhlil edilmiş və forma-quruluş, musiqi dilinin xüsusiyyətləri, obrazlar aləmi araşdırılmışdır. Nəzərə çatdırılmışdır ki, O.Zülfüqarovun fortepiano triosu bəstəkarın yaradıcılığına xas olan sadəlik və səmimiliyi, parlaq ifadəliliyi özündə birləşdirmişdir.

**Açar sözlər:** O.Zülfüqarov, bəstəkar, yaradıcılıq, trio, təhlil, forma, janr, fortepiano

Oqtay Zülfüqarov (1929-2016) milli bəstəkarlıq məktəbinin parlaq nümayəndələrindən biridir. O, özünəməxsus maraqlı yaradıcılıq dəsti-xətti və geniş irsi ilə tanınmışdır. Onun musiqisi öz işıqlı və olduqca həyatsevər siması, milli əlvanlığı, melodiya zənginliyi, harmonik təravəti ilə seçilir.

O.Zülfüqarov 1929-cu ildə Bakı şəhərində anadan olmuşdur. İlk musiqi təhsilini o, bir qədər gec, müharibədən sonra, 16 yaşında almağa başlamışdır (violonçel sinfi üzrə). Parlaq musiqi istedadına malik olan O.Zülfüqarov məktəb proqramını üç ilə bitirmiş və təhsilini Musiqi texnikumunda davam etdirmişdir. 1951-cı ildə, o, Ü.Hacıbəyov adına Azərbaycan Dövlət konservatoriyasına violonçel üzrə daxil olunmuşdur (İ.M.Turiçin sinfi). İki il sonra O.Zülfüqarov təhsilini bəstəkarlıq üzrə Q.Qarayevin sinfində davam etdirmiş və 1958-ci ildə uğurla başa çatdırmışdır.

O.Zülfüqarovun geniş əhatəli yaradıcılıq irsi var. O, demək olar ki, bütün musiqi janrlarında maraqlı əsərlər yaratmışdır. Bəstəkarın ən sevdiyi sahələrdən biri, proqramlı xarakter daşıyan simfonik musiqidir. “Şahdağ” simfonik poeması, “Şənlən, mənim xalqım” uvertürası, “Sumqayıt” simfoniyası, “Kosmosda tufan” simfonik poeması və s. kimi əsərlər dinləyici rəğbətini qazanmışdır.

O.Zülfüqarov, həmçinin violonçel üçün, fleyta ilə simfonik orkestr üçün konsertlərin müəllifidir. Bəstəkarın bir çox vokal-simfonik əsərləri də vardır.

O.Zülfüqarov kamera-instrumental və kamera-vokal janrlar sahəsində də öz sözünü deyə bilmişdir. Fortepiano Triosu, nəfəs alətləri üçün Skerso, iki fortepiano üçün Pyes, nəfəs alətləri seksteti üçün Üç pyes, fortepiano üçün Variasiyalar, iki simli Kvartet və s. repertuar əsərlərə çevrilmişdir.

Bəstəkarın yaradıcılığının ən sevdiyi və mərkəzi qollarından biri də uşaq musiqisidir. Bura uşaqlar üçün yazılan kantata, musiqili komediya, iki radio-opera, xorlar və çoxsaylı mahnı məcmuələri daxildir.

L.Raaben və T.Quliyevin söylədiyi kimi, O.Zülfüqarovun fortepiano triosu (1953) Azərbaycanda bu janrda yazılmış ən parlaq əsərlərdən biridir.

Bəstəkar trionu tələbəlik illərində, Q.Qarayevin sinfində oxuduğu zaman yazmışdır. Əsər Azərbaycan bəstəkarlarının I qurultayında səsləndirilmiş və həmin tədbirdə iştirak edən görkəmli rus bəstəkarı D.Şostakoviç tərəfindən yüksək qiymətləndirilmişdir. O demişdir: "*İlk müvəffəqiyyətdən gənc bəstəkarın başı gicəllənməsin – deyə bir sirr açmaq istəyirəm: konservatoriyanın tələbəsi Oqtay Zülfüqarovun "Violino, violonçel və fortepiano üçün trio"su mənim çox xoşuma gəldi. Gənc bəstəkarın əsəri gecənin sonunda ifa olundu. Həmin gün müxtəlif janrlı əsərlərə qulaq asmışdım. Açığını deyim ki, yorulmuşdum. Lakin gənc bəstəkarın əsərinin ilk notları, parlaq səsləri mənim gümrahlaşmağa, diqqətlə qulaq asmağa təhrik etdi və mən böyük məmnuniyyətlə bu əsəri axıradək dinlədim...* " [1].

Əsərdə bu növ kamera-instrumental janra xas olan bir sıra xüsusiyyətlər əks olunmuşdur. Trionun obraz dairəsi geniş və rəngarəngdir. Burada işıqlı həyatsevər əhval-ruhiyyə, gənclik xəyalları, romantik duyğular, lirik-elegik və eləcə də skersosayağı obrazlar təcəssüm edilmişdir. Lakin əsərin əsas obraz istiqaməti – lirikadır. Lirik obrazların mahnıvariliyi, skersosayağı və rəqs mövzuların oynaqlığı, ümumiyyətlə, musiqi dilinin zəngin melodikliyi və milli çalarları əsərin diqqətəlayiq cəhətlərindəndir. Bununla bərabər, trionun əsas tematik xəttini milli xalq musiqisindən bəhrələnən mahnı və rəqs ritm-intonasiyaları təşkil edir.

Məlum olduğu kimi, klassik trio janrı öz ənənəvi forma-quruluş xüsusiyyətlərinə malikdir və əsasən, üç təzadlı hissədən ibarətdir. O.Zülfüqarovun triosu bir qədər fərqlidir və özünəməxsus məzmun əhatəsinə görə dörd hissəli silsilədir:

I hissə – "Allegro moderato con fuoco";
II hissə – "Vivo leggiero (scherzando)";
III hissə – "Adagio";
IV hissə – "Allegro con brio".

Göründüyü kimi, əsərin hissələri temp göstəricisinə görə növbələşərək, bir-birinə təzad təşkil edir (mülayim cəld-cəld-asta-cəld). Vurğulayaq ki, lirik obrazlar sahəsi əsərin bütün hissələrində öz təcəssümünü tapır, lakin silsilənin əsl lirik mərkəzi – III hissədir (Adagio).

I hissə – "Allegro moderato con fuoco", sonata formasındadır, g moll – iki təzadlı və eyni zamanda hər ikisi lirik təbiətli mövzunun inkişafına əsaslanır. Obraz -emosionallıq baxımından əsas mövzu – narahat həyəcanlı, impulsiv-enerjili lirik mövzudur (violino, çello, sonra isə yenidən violinoda səslənir). Mövzu 16 xanəli, kvadrat formadadır. O, fortepianodakı onaltılıqların gərgin triol hərəkətli harmonik fiqurasiyaları fonunda səslənir. "Cəsarətli" kvarta intonasiyası ilə başlanan, geniş

diapazonlu, əsasən yuxari inkişaf edən melodiya qısa, qeyri-mütənasib ibarələrlə inkişaf edir. İbarələrin ritmik şəklinin dəyişkənliyi, onların əsasən sinkopalı ritmi, çox vaxt sekvensiyalı hərəkəti, minor ladına xromatik intonasiyaların müdaxiləsi və s. kimi xüsusiyyətlər deyilən coşqun, impulsiv obrazı əhatə edir.

Yuxarıda qeyd olunduğu kimi, ikinci dəfə mövzu çelloda başlayaraq, sonra violinoda keçir. Fortepianonun fiqurasiyaları fonunda simlilərin gərgin "dueti" tədricən yüksək zirvəyə, yuxarı registrə yönəlir. Belə inkişaf xətti artıq ekspozisiya daxilində əsas mövzunun kulminasiyasına gətirib çıxarır.

Əgər əsas mövzu həyəcanlı və fəaldırsa, köməkçi yumşaq, işıqlı və zərifdir ("dolce espressivo", d-F). Köməkçi mövzu həm melodik, həm də müşayiət baxımından ifadəli giriş epizodu ilə hazirlanır (5).

Nümunə 1.




Mövzu axıcı, oxunaqlı, mahnıvaridir və demək olar ki, Azərbaycan xalq lirik melodiyalarına yaxındır. Belə ki, mövzu:

1. Azərbaycan xalq mahnılarına xas olan ¾ ölçüsü;
2. gah pilləli, gah da gəzişmələrlə inkişaf etməsi;
3. tersiyalı yumşaq sıçrayışları və onların dərhal doldurulması;
4. cümlələrin əsas ("a") dayağına istinadı;
5. əsas dayaq ətrafında əmələ gələn gəzişmələr və s. kimi cəhətlər ilə səciyyələnir.

Köməkçi mövzu 16 xanəli kvadrat quruluşundadır. Onun cümlələri çello və violino partiyaları arasında zərif dialoq kimi səslənir. Belə dialoq fortepianonun yumşaq və nəcib hərəkətli müşayiəti fonunda səslənir. Bura ifadəli polifonik səsaltılar da daxildir.

Ümumiyyətlə, köməkçi mövzunun fakturası polifonik səsaltılar ilə zəngindir

və bu da ümumi səslənməyə ifadəli dolğunluq gətirərək, lirik obrazı gücləndirir, onu daha da qabarıq edir (5-6). Ekspozisiyanı ifadəli fortepiano solosu yekunlaşdırır.

Nümunə 2.




Geniş işlənmə bölməsi hər iki mövzunun inkişafına əsaslanır. İşlənmə bölməsinin özünəməxsus dramaturji xətti var. Bununla bağlı onu üç mərhələyə ayırmaq olar: əsas, köməkçi və yenidən əsas mövzunun işlənməsi. İşlənmənin əvvəlində əsas mövzu (violinoda) obraz-emosional baxımdan artıq dəyişilmiş şəkildə verilir. Yəni, ekspozisiyadakı lirik həyəcanlı obraz burada dərhal qroteskliyə dönür ki, bunu T.Quliyev də qeyd etmişdir (10) [4, s.60].

Nümunə 3.






Belə olduqda, mövzu sanki narahatlıq, mənfi fikir və duyğuların təmsilçisinə çevrilir. Burada lad-tonallığın dəyişikliyi (g moll əvəzinə b moll); metro-ritmik ölçünün 2/4 əvəzinə 4/4 səslənməsi və bununla ritmik şəklin iriləşmə və kəskinliyi (sinkopa və punktirlərlə); müşayiətdə kəskin ostinato əmələ gəlməsi; partiyaların ştrix kəskinliyi və s. kimi cəhətlər mövzunun qroteskli və bir qədər sarkastik xarakter almasına gətirib çıxarır.

Deyilən obrazın yaranmasında melodiyanın quruluşu ilə yanaşı, müşayiətdə (violonçel və fortepianoda) olan ostinato prinsipinin əhəmiyyəti xüsusi vurğulanmalıdır.

İşlənmənin növbəti mərhələsi köməkçi mövzu ilə bağlıdır. İşlənməyə məruz qalsa da, o, öz yumşaq və lirik xarakterini itirmir. Onun zərif və işıqlı siması burada yalnız tədricən bərqərar olunur. Mövzunun ilkin ibarəsinin işlənmələrlə, ixtisarlaşdırılmış, qısa şəkildə, müxtəlif tonallıqlarda, ayrı-ayrı alətlər ilə (violino, violonçel, sonra isə fortepianoda) səslənməsi, onun fikirli, sanki uzaq xatirələr kimi təcəssümünə səbəb olur (15-16).

Nümunə 4.






Mövzunun sonrakı variantlı inkişafı, onun işıqlı simasının yeni təsdiqinə və beləliklə, işlənmənin mərkəzi bölümünə gətirib çıxarır (“Con anima”, 20-21).

Nümunə 5.




Belə ki, mövzunun əsasən ritmik və lad-tonallıq dəyişmələri nəticəsində (3/4 ölçüsü dəyişməz qalır), burada yeni epizod əmələ gəlir. O, violinoda, violonçelin fəal passajları və fortepianonun dolğun harmonik akkordları fonunda verilir (A dur, Ges dur).

Sonuncu, üçüncü mərhələsi yenidən əsas mövzunun işlənməsinə qayıdır. Obraz-emosional baxımından onun səslənməsi ekspozisiyadakı narahat-həyəcanlı əhval-ruhiyyəyə yaxındır (variantlı dəyişikliklər əsasən mövzunun lad-tonallıq, tematik, ritmik tərəflərinə aiddir). Simlilərin dueti burada fortepianonun ekspozisiyadakı triollu yox, kvintollu dalğalanan fiqurasiyaları fonunda keçirilir (22, h moll).

Fortepianonun belə fiqurasiyaları musiqiyə lirik-romantik çalarlar əlavə edir. Fəal lad-tonallıq inkişafı isə, “işıq-kölgə” effektini yaradaraq səslənməyə rəngarənglik verir.

İnkişaf əsnasinda əsas mövzu yeni, indi isə marşvari, gümrah-cəsarətli obraza transformasiya edilir (“Piu mosso”).

Nümunə 6.




O, öncə violonçeldə (26), sonra isə violinoda səslənir (28).

Nümunə 7.




Belə obraz isə tempin sürətlənməsi, 4/4 ölçünün marşvari xüsusiyyətləri, alətlərin "staccato" ştrixləri, fortepiano partiyasının təkrarlanan dolğun harmonik akkordları, partiyalararası polifonik imitasiyalı inkişaf və s. kimi cəhətləri ilə yaradılır.

Beləliklə, işlənmə üçmərhələlidir. Bura əsas mövzunun qroteskli-sarkastik obrazı, köməkçi mövzunun yüngül, işıqlı və rəngarəng siması və sonda əsas mövzunun lirik-həyəcanlı, axırda isə marşvariyə transformasiya etməsi görünür. Hər iki mövzunun inkişafında motiv işlənmələri, variantlı işlənmələr, sekvensiya tipli hərəkət formaları və s. böyük rol oynayır.

Repriz dinamikdir. Ekspozisiyaya nisbətən burada mövzuların, əsasən, tembr xüsusiyyətləri dəyişir. Lirik-həyəcanlı əsas mövzu öncə simlilərin unisonu (fortepianonun gərgin fiqurasiyaları fonunda), sonra isə fortepianonun dolğun, parlaq akkordları ilə (simlilərin polifonik xətləri fonunda) keçir (30-31).

Nümunə 8.




Köməkçi mövzunun inkişafı ekspozisiyada olduğu kimi polifonikdir. Simlilərin təsirli "duet"i ifasında, fortepianonun yumşaq "yırğalanan" fonu əsasında səslənən mövzu yeni incə səsaltılar ilə dolğunlaşır (34-35).

Nümunə 9.




Kiçik koda ("Andante", 36) köməkçi mövzunun intonasiyaları əsasındadır. Onun dalğın və fikirli səslənən cümləsi ardıcıllıqla violino, violonçel və fortepiano ilə imitasiya olunur. Beləliklə, hissə müəmmalı, sanki cavabsız sualla yekunlaşdırılır.

Nümunə 10.




Uzaq tonallıqların dəyişməsi musiqiyə rəngarənglik gətirir (h moll, as moll, Es dur, G dur). Onların zəminində burada Azərbaycan humayun məqamının intonasiyaları da nəzərə çarpır.

I hissədə polifoniyanın rolu da önəmlidir. Səsaltı polifoniya fakturanı dolğun və oxunaqlı (köməkçi mövzu), imitasiyalı isə dinamik edir (işlənmə, koda).

II hissə (“Vivo leggiero scherzando, f moll) silsiləyə parlaq təzadlıq gətirir. L.Raaben burada “Azərbaycan tarantellası” [3] və T.Quliyev isə fantastik, nağıl obrazlarının [4] təcəssümünü görürlər. Burada gəncliyə xas olan şux enerjili, şıltaq, oynaq, məzəli və zarafatlı, obraz əks olunur (2).

Nümunə 11.




II hissə kiçik giriş ilə başlanan, sadə üçhissəli quruluşa malikdir. Artıq buradan gümrahlıq, enerji, oynaq obrazın qığılcımlanan ritmi özünü büruzə verir və bu da əsas mövzunun səslənməsi üçün zəmin yaradır.

Girişin qeyri-adi lad-intonasiya strukturu da qeyd olunmalıdır. Azərbaycan çahargah məqamı və Avropa bütövtonlu lad elementləri burada maraqlı səslənmə

əmələ gətirir. Eyni zamanda, girişin melodik və ritmik xüsusiyyətləri, triolun xanənin güclü hissəsinə düşməsi və səkkizliklərin punktir ritmi, qısa ibarələrin sıçrayışlı sonluqları, ştrixlərin mürəkkəbliyi (simlilərdə pizzikato, fortepianoda aksentlər) və s. deyilən qeyri-adi, məzəli, zarafatcıl obrazın yaradılmasına kömək edir.

Əsas mövzu təkrarlanan, iki cümləli, kvadrat period formasındadır. Melodiyanın (violinoda) sürətli gedişi, əsasən punktirli-pilləli hərəkəti, ritmik şəklinin mürəkkəbliyi (triolların punktir səkkizliklərə keçməsi), cümlələrin mütənasibliyi və təkrarlanmaları və s. oynaq və şıltaq obrazı yaradan cəhətlərdir. Mövzunun hər cümləsi sinkopalı, aksentləşdirilmiş, yuxarı yönələn oktava sıçrayışı ilə tamamlandırılır və bu da musiqidə məzəli, "cəsarətli hökm" intonasiyası yaradır. Skersosayağı səslənmə əldə etmək üçün ifaçılardan aksentli notların xüsusi səylə qeyd olunması tələb olunur.

Mövzu yüngüllüyü və plastikliyi ilə səciyyələnən violino alətinə tapşırılır. Müşayiət də onun üzərinə düşən, vacib obraz – məna yükünü daşıyır. Belə ki, mövzunun fortepianonun sinkopa ritmli ostinato fonunda səslənməsi, simlilərin qisa imitasiya və səsləşmələri də deyilən obrazı daha da qabarıq edir. Tədricən mövzunun elementlərinin variantlı işlənməsi, musiqinin inkişafını işıqlı (Ges dur) fraqmentə yönəldir (6).

Nümunə 12.




II hissənin orta bölümü ("Con anima leggiero") kənarlarla təzad təşkil edir və yeni, lirik, səlis, rəvan, plastik hərəkətli, axarlı mövzuya əsaslanır (7-dən dörd xanə sonra). Mövzu təzadlı olsa da, əvvəlki hərəkətlik impulsu burada da saxlanılır. Mövzu 16 xanəli, kvadrat period formasında qurulur. O, fortepianonun sinkopa ritmli, kiçik girişi ilə hazırlanır (7).

Nümunə 13.




Melodiyanın yumşaq kvinta sıçrayışları hamar, pillə-pillə enən oxumaların hərəkəti ilə tarazlanır. Onun cümlələri öncə violino və violonçel, sonra isə fortepiano və violonçel arasında dialoq şəklində (10-11), fortepianonun ostinatolu fonunda səslənir. Simlilər arasında əmələ gələn qısa, ifadəli imitasiya və səsləşmələr birinci, oynaq mövzunun elementləri əsasındadır. Fortepiano ostinatosu ilə bərabər, onlar hissənin əvvəlindəki hərəkətliyin, enerjili atmosferin saxlanılmasına kömək edir.

Nümunə 14.




Orta bölümdə ifaçı melodiyanın liqalı, oxunaqlı, səlis, rəvan səslənməsinə xüsusi diqqət yetirməlidir, çünki bu bölüm birinci mövzunun oynaq (staccato), kənar bölmələrinə təzad təşkil edir və bu da qabarıq şəkildə göstərilməlidir.

Repriz dinamikdir (13).

Nümunə 15.




Dinamik dəyişikliklər əsasən mövzunun alətləşdirilməsi və tembr dəyişiklikləri ilə bağlıdır. Belə ki, mövzu öncə violinoda (əvvəlki fakturada), sonra isə fortepiano unisonunda verilir (violinonun ostinatolu formulası ilə, 14).

Nümunə 16.




Bu hissə məzəli, şən, oynaq obrazlı sonluq ilə yekunlaşdırılır (15-16).

Nümunə 17.




Vurğulayaq ki, həm kənar, həm də orta hissənin faktura dinamikliyinin yaradılmasında ostinato üsulunun önəmi böyükdür.

Trionun III hissəsi (“Adagio”, b moll) lirik obrazların təcəssümünə həsr olunur və O.Zülfüqarovun yaradıcılığının ən gözəl lirik səhifələrindən biridir. Burada qəm-qüssəli romantik hisslər öz əksini tapmışdır. Azərbaycan kamera-instrumental sənətinin öyrənilməsinə həsr olunmuş bir çox elmi işlərin müəllifi, T.Quliyev haqlı yazdığı kimi, bu hissənin musiqisi qəmli, “şikayətli” elegiya janrına aiddir [83].

Adagio – sadə üç hissəli formada yazılmışdır. Mövzunun səslənməsi qisa fortepiano girişi ilə hazırlanır, onun intonasiyaları olduqca oxunaqlı, mahnı-romans təbiətlidir (o, səkkiz xanəli, kvadrat period formasındadır). Musiqi öz melodik xüsusiyyətləri ilə diqqəti cəlb edir. Belə ki, onun əsasən rəvan və səlisliyi, oxumalarla keçirilən inkişafı, ibarə təkrarlanmaları və onların melizmlərlə zənginləşməsi, ibarələrin sekvensiyalı hərəkəti, eləcə də bəzi ibarələrin zəif ritmik hissədən başlanması, aşağı yönələn “ah” intonasiyaları və s. lirik-həyəcanlı və elegik obrazı yaradan xüsusiyyətlərdir. Təsadüfi deyil ki, melodiya öncə violonçelin orta registrindəki yumşaq, məxməri tembrinə, sonra isə simlilərin unisonuna (1) tapşırılır (fortepianonun dolğun səslənən, onaltılıqlarla təkrarlanan, harmonik akkordları fonunda).

Nümunə 18.




Musiqinin milli xüsusiyyətləri də qeyd olunmalıdır. Melodiyanın pillələrinin xromatik dəyişiklikləri onu müxtəlif Azərbaycan məqamlarının çalarları ilə zənginləşdirir. Adagio sadə üçhissəli formaya malikdir. Orta hissə (“Animato”) öz işıqlı obraz siması ilə musiqinin ümumi axarına təzadlıq gətirir (2).

Nümunə 19.




Lakin, eyni zamanda vurğulayaq ki, orta hissə inkişafedicidir. Yəni, o, elegik mövzunun elementlərinin inkişafına əsaslanır. Belə inkişaf əsasən tematik, lad-tonallıq və faktura dəyişiklikləri ilə bağlıdır. Mövzunun inkişafında motiv işlənmələri vacib rol oynayır. Burada polifoniyanın müxtəlif formalarının əhəmiyyəti də olduqca böyükdür. Nəticədə orta bölüm geniş həcmli və dinamikdir.

Orta bölümü bir neçə epizoda ayırmaq olar. Qeyd olunduğu kimi, “Animato” –

yumşaq və işıqlı obrazı ilə səciyyələnir (Des dur). O, əksəriyyətlə, elegik mövzunun motivlərinin inkişafına arxalanır (əvvəlki 4/4 metro-ritmik ölçü dəyişməz qalır). Belə ki, violinoda səslənən tematik material violonçel ilə ifadəli səsaltı polifoniya əmələ gətirir (fortepianonun gərgin passajları fonunda). Tonallığın dəyişməsi növbəti ifadəli, zərif və işıqlı epizodun başlanğıcını göstərir (Cis dur, 3). O da əsas, elegik mövzunun elementləri üzərində qurulur. Violonçeldə səslənən parlaq, təsirli, işıqlı tematik fraqment violinoda, sonra fortepianoda yarım xanə gecikmə ilə imitasiya olunur və hər üç alətin iştirakı ilə kiçik bir kanon əmələ gəlir. Bu cür imitasiyalı polifonik inkişaf sayəsində fraqment axıcı, sərbəst xarakter kəsb edir (3).

Nümunə 20.




Əsas elegik mövzunun fortepianoda, öz tonallığında deyil (b moll), tabe, dominanta tonallığında qayıdışı (f moll, 4) və simlilərdə səsaltı polifonik toxumalar əmələ gətirməsi, tədricən, musiqinin inkişafını həyəcanlı edərək, yüksək zirvəyə doğru aparır (5-6).

Nümunə 21.



Nümunə 22.




Lakin belə fəal, lirik-dramatik hərəkət, kulminasiyaya gətirib çıxarmır və musiqinin inkişafında maraqlı dramaturji effekt yaradır. Zirvə nöqtəsinə yönələn həyəcanlı melodik xətt sanki gözlənilməz şəkildə qırılaraq dayanır (7-yə bir xanə qalmış). Beləliklə, ümumi inkişaf reprizin səslənməsi və əsas elegik mövzunun qayıdışı ilə nəticələnir (7).

Reprizdə mövzu artıq violinoya ("con sordino") tapşırılır, sonra isə violonçel ilə, fortepianonun əvvəlki həyəcanlı akkordları fonunda keçirilir (7-8-9).

Nümunə 23.




Final ("Allegro con brio", G dur) sanki möhtəşəm xalq şənliyini, bayram əhval-ruhiyyəsini tərənnüm edir (rondo-sonata forması). Bu hissə kiçik, ikixanəli fortepiano girişi ilə başlanır. Artıq buradan şən canlanma, gümrahlıq, şux ab-hava özünü büruzə verir və bu da əsas mövzunun (refrenin) səslənməsi üçün zəmin yaradır. Marş ritmli (4/4), rəqsvari, cəld, mütəhərrik əsas mövzu – refren olduqca dinamik və temperamentlidir (sadə üçhissəli forma). Melodiyanın inkişafı, əksəriyyətlə, əsas tonallığın kvinta dayaq pilləsi ətrafında cəmləşir. Dayağın hər

xananin güclü hissəsinə düşməsi və aksentləşdirilməsi, eləcə də oxumalarla dövrəyə alınması, musiqini şən, gümrah, oynaq əhval-ruhiyyəli edir.

Yuxarıda deyildiyi kimi, mövzu – refren sadə üçhissəli (bölümlü) formaya malikdir. Birinci bölümdə (altıxanəli, qeyri-mütənasib (4 xanə+2 xanə) dövr), o, violinoda, violonçelin sıçrayışlı, çevik passajları (onaltılıqlarla) və fortepianonun ostinatolu müşayiəti ilə keçirilir. Qeyd edək ki, violinoda səslənən mövzunun cəld, irəliyə can atan, sürətli inkişafı, violonçelin virtuozlu müşayiəti, simlilərin ifaçılıq texnikasını nümayiş etdirməsi üçün əlverişli imkanlar yaradır.

Refrenin orta bölümü şən, bayram təsirli mövzunun elementləri əsasındadır və işlənmə xarakterlidir (mövzunu violonçel aparır). Onun inkişafında motiv işlənmələri, variantlı elementlərin təkrarı, sekvensiyalı hərəkət və s. böyük rol oynayır (1).

Nümunə 24.




Vurğulayaq ki, mövzu işləməyə məruz qalaraq, tədricən, öz daxili, "yerli" kulminasiyasına çatdırılır (2).

Nümunə 25.



Refrenin reprizi simlilər unisonu ilə, fortepianonun ostinatosu fonunda keçirilir (3). Köməkçi mövzunun səslənməsi ("Amorozo meno mosso", h moll) lirik obrazları bərqərar edərək, finalın bayram və şənlik simasına parlaq təzadlıq gətirir (4).

Nümunə 26.




Köməkçi mövzu öz oxunaqlığı və zərif, nəcib, işvə-qəmzəli xarakteri ilə səciyyələnir. Onun melodiyası trionun əvvəlki hissələrindəki mahnı-romans xüsusiyyətli mövzulara yaxındır. Mövzunun birxanəli ibarələrinin əsasən plaqal xasiyyətli VI, IV dayaq tonlarına istinadı və onların ətrafında əmələ gələn "gəzişmələr" onu yumşaq, nəcib, lətif edərək, eyni zamanda Azərbaycan xalq melodiyalarına da yaxınlaşdırır. Burada müşayiətdə deyilən lirik obraz məna "yükünü" daşıyır. Belə ki, fortepianoda onaltılıqların "yırğalanan" akkordları əsnasındakı basda əmələ gələn qısa səsaltılar, fakturanı axıcı və oxunaqlı edir.

Köməkçi mövzu sadə ikihissəli (iki bölümlü) formada yazılmışdır və bu formaya uyğun olaraq, iki kvadratlı dövrdən ibarətdir. Mövzu cümlələrinin (birinci bölümdə) violino və violonçel arasında paylaşdırılması əslində dialoq forması alır. Sonra isə, (ikinci bölümdə) mövzu artıq violonçeldə səslənərək, yeni tematik materialla bərabər (violinoda) polifonik toxumada verilir (5).

Nümunə 27.



Ümumiyyətlə, köməkçi mövzunun lirikliyinin yaradılmasında səsaltı və imitasiyalı polifoniyanın rolu böyükdür. Köməkçi mövzudan sonra kiçik, lakin virtuozlu fortepiano kadensiyası ("Cadenza ad libitum") həyəcanlı fikir obrazı ifadə edir. Onun yüngül fiqurasiyaları sanki basların ağır addımlı passajlarının müqaviməti ilə qarşılaşır (7-dən 5 xanə öncə).

Əsas mövzu – refrenin qayıdışı şənlik ab-havasını bərpa edir (7).

Nümunə 28.




Fortepianonun əvvəlki ostinatolu fonunda keçirilən əsas mövzu (violonçeldə) yeni, ilk dəfə səslənən lirik melodiya ilə (violinoda) təzadlı polifoniya yaradır. Lakin qeyd olunmalıdır ki, bu melodiya köməkçi mövzuya intonasiya baxımından yaxındır (o, violinoda oktavalarla ifadə olunur).

Növbəti təkrar keçirilmədə əsas mövzu fortepianonun aydin və şəffaf yuxarı registrində (II-III oktavalarda) violino ilə violonçelin iki-üçsəsli akkordları ilə müşayiət olunur (simlilərdə pizzicato və arco növbələşmələri gedir). Ümumiyyətlə, mövzunun fortepianodakı çoxsəsliliyi, simlilərin ştrix zənginliyi və çoxsəsli akkordları fakturanı qatı, dolğun, virtuozlu edərək, möhtəşəm şənlik obrazını yaradır (9).

Nümunə 29.




Tədricən musiqinin belə obraz-melodik inkişafı zirvə həddinə yönəlir, lakin kulminasiyaya çatdırılaraq sanki qırılır (10). Burada bəstəkar trionun üçüncü hissəsində olduğu kimi, kulminasiya mərhələsində də melodik xəttin qırılması dramaturji effektindən istifadə edir. Nəticədə fortepianonun dalğalanan fiqurasiyaları fonunda, gözlənilməz yeni zərif – lirik mövzu (Andante cantabile) səslənir (rondo-sonata formasının mərkəzi epizodu, c moll, 11). Bu mövzu da köməkçinin intonasiya elementlərinə əsaslanaraq, onun nəcib, lirik obraz-emosional xəttinin davamı kimi səslənir (sadə üçhissəli forma).

Nümunə 30.




Melodiyanın lirik obrazı (c moll), onun qısa oxumalardan toxunulması, ibarələrinin çox vaxt üçsəsli oxuma çərçivəsində cəmləşməsi və onların variantlı təkrarı, uzaq tonallığa rəngarəng yönəlmə (e moll), xromatik xallar və s. kimi xüsusiyyətlər ilə yaranır. Xromatik intonasiyalar (artırılmış sekunda) musiqini Azərbaycan məqamlarının çalarları ilə zəngin edir.

Mövzu simlilərə tapşırılır. Onların arasındakı ifadəli dialoq, tədricən duetə

çevrilir (fortepianonun fiqurasiyaları fonunda). Əmələ gələn səsaltılar fakturanı axıcı edir və obrazın lirikliyini gücləndirir. Simlilərin həyəcanlı, gərgin-aksentli unisonunun müdaxiləsindən sonra (orta bölüm, 13) musiqi yenidən öz lirik axarına qayıdır (14).

Nümunə 31.




Finalın reprizi (“Allegro”, 15) qısaldılmış şəkildə keçir və burada yalnız şən, şux həyatsevər əsas mövzu səslənir (öncə fortepiano, sonra violinoda). Demək olar ki, finalda repriz ilə kodanın funksiyaları birləşdirilir. Koda geniş və sintetikdir. Çünki, burada trionun bütün hissələrinin mövzuları keçir. Lakin onlar əvvəlki görkəmdə deyil, lad-tonallıq və digər dəyişikliklərlə, gah ritmik baxımdan böyüdülmüş, gah ixtisarlaşdırılmış şəkildə polifonik toxumalarda verilir. Məsələn, burada tədricən, I hissənin hər iki lirik mövzularının, II hissənin zarafatcıl, III – elegik, finalın əsas və köməkçi mövzularının intonasiya elementləri mövcuddur. Onların təzadlı polifonik toxumaları əsasən simlilərdə, fortepianonun dolğun, harmonik akkordlu fonunda səslənir.

Nümunə 32.



Trionun mövzu elementlərinin polifonik şəkildə inkişaf etdirilməsi, fakturanın genişlənməsi, səslənmə dinamikasının güclənməsi əsərin parlaq – virtuozlu, təntənəli və möhtəşəm sonluğuna gətirib çıxarır.

Beləliklə, trionun finalı (rondo-sonata) hissələrarası təzadlığa malikdir. Onun sxemi:

A (əsas m.) + B (köməkçi m.) + A (refren) + C (mərkəzi epiz.) + A (repriz-koda)

O.Zülfüqarovun fortepiano triosu obraz-emosional və üslub xüsusiyyətlərinə görə bu sahədə yazılmış ən maraqlı əsərlərdən biridir. Trionun obraz palitrası zəngindir. Bura müxtəlif səpkili lirik, zarafatlı (II hissə), elegik (III hissə), bayram ruhlu (final) və s. obrazlar daxildir.

Əsər ifaçılıq baxımından da özünəməxsus cəhətlərə malikdir. Alətlərin texniki imkanları bəstəkar tərəfindən orijinal və məqsədyönlü istifadə olunur. Alətləşdirmə burada zahiri, müstəqil xarakter daşımır, əksinə, obrazın açılmasına kömək edərək onun ayrılmaz hissəsinə çevrilir.

İfaçılar üçün yaranan bəzi çətinliklər, simlilərdə "saltanto" ştrixi ilə istifadə olunan triol və duolların cəld tempdə növbələşməsi, "pizzicato və arko" növbələşmələri, yuxarı registrlərin istifadəsi, iki, üçsəsli komplekslər, alətlərdə passaj texnikası, iti tempdə "staccato", lirik mövzularda "legato" və s. ilə bağlıdır. Əsər öz melodik zənginliyi ilə fərqlənir. Burada mütəhərrikli, rəqsvari, oxunaqlı, mahnıvari melodiyalar mövcuddur. Lirik melodiyalar əsərdə xüsusi yer tutur. Onlar mahnı-romans janr xüsusiyyətlidir. Təbii ki, belə melodiyaların ifasında liqalanmaya – passajların ardıcıl səslənməsinə diqqət yetirmək lazımdır. Skersodakı məzəli, zarafatlı obrazları əks etdirən epizodlarda "staccato" passajları yüngül və bir qədər oynaq ifa edilməli, skersosayağı səslənmə əldə etmək üçün isə aksentli notlar xüsusi səylə qeyd olunmalıdır.

Əsərdə polifoniyanın rolu da önəmlidir. Lirik obrazların əks etdirilməsi üçün bəstəkar səsaltı polifoniyaya, mütəhərrikli, çevik obrazların yaradılmasında isə ostinato üsulu, imitasiyalı və təzadlı polifonik fakturaya müraciət edir. Təbii ki, polifonik fakturada hər bir melodik xəttin, hər bir səsaltının ifadəliliyi qorunub saxlanılmalıdır.

Trioda O.Zülfüqarovun yaradıcılıq dəst-xəttinin ən vacib cəhətlərindən biri olan musiqi dilinin sadəliyi və səmimiliyi öz əksini tapmışdır. Bəstəkarın triosu Azərbaycan kamera-instrumental irsində özünəməxsus yer tutmuş və dinləyicilərin rəğbətini qazana bilmişdir. Əsər keçmiş SSRİ-nin müxtəlif şəhərlərində, habelə Çində, Bolqarıstanda müvəffəqiyyətlə ifa olunmuşdur. Vaxtı ilə məşhur, dünya şöhrətli musiqiçi E.Qraçın rəhbərlik etdiyi, SSRİ-nin aparıcı trio kollektivlərindən biri O.Zülfüqarovun əsərini səsləndirərək öz repertuarlarına daxil etmişdir.

## Ədəbiyyat siyahısı:

1. Xəlilov, V.C. Seçilmiş əsərlər / V.C.Xəlilov. – Bakı: Nərgiz nəşriyyatı, – c.7. – 2013.
2. Xəlilov, V.C. Bəstəkar Oqtay Zülfüqarov. Monoqrafiya. / V.C.Xəlilov. – Bakı: Şur, – 1997.
3. Раабен, Л. Советская камерно-инструментальная музыка. / Л.Раабен. – Москва: Музгиз, – 1963. – 283 с.
4. Кулиев, Т.А. Азербайджанская камерно-инструментальная и концертная музыка для смычковых инструментов / Т.А.Кулиев. – Баку: Азернешр, – 1971. – 60 с.
5. Гайдамович, Т. Инструментальные ансамбли / Т.Гайдамович. – Москва: Музгиз, – 1960.

**Ровшан Абдуррахман Амрахов**

## ОСОБЕННОСТИ ФОРТЕПИАННОГО ТРИО ОКТАЯ ЗУЛЬФУГАРОВА

**Резюме:** В представленной статье рассмотрены особенности фортепианного трио Октая Зульфугарова – яркого представителя азербайджанской композиторской школы. Также в статье освещается творчество композитора и выделяется особенности его камерно-инструментального творчества. В дальнейшем был проанализирован фортепианное трио и исследованы особенности музыкального языка. Было отмечено, что фортепианное трио О.Зульфугарова сочетает в себе простоту и искренность, яркую выразительность, свойственную творчеству композитора.

**Ключевые слова:** О.Зульфугаров, композитор, творчество, трио, анализ, форма, жанр, фортепиано

**Rovshan Abdurrahman Amrahov**

## FEATURES OF OKTAY ZULFUGAROV'S PIANO TRIO

**Summary:** The presented article examines the features of the piano trio by Oktay Zulfugarov, a prominent representative of the Azerbaijani school of composition. The article also highlights the composer’s work and highlights the features of his chamber-instrumental work. Subsequently, the piano trio was analyzed and form-structure, characteristics of musical language were explored. It was noted that O.Zulfugarov’s piano trio combines simplicity and sincerity, bright expressiveness characteristic of the composer’s work.

**Keywords:** O.Zulfugarov, composer, creativity, trio, analysis, form, genre, piano

**Məqalənin redaksiyaya daxil olma tarixi: 03.03.2024**

**UOT 78.**
**DOI: 10.52094/3005-9941.45.2024.022**

**Günel Məmmədrasul qızı Bəkirova**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**doktorant**
**E-mail: ludwig.beethoven.88@mail.ru**

# TÜRKƏR QASIMZADƏNİN "ZİKR" ƏSƏRİNDƏ BƏZƏKLƏRİN BƏZİ İNTERPRETASİYA XÜSUSİYYƏTLƏRİNƏ DAİR

**Xülasə:** Təqdim edilən məqalədə müasir Azərbaycan fortepiano musiqisinin tanınmış nümayəndəsi Türkər Qasımzadənin "Zikr" əsərində tremolo, eləcə də akkord-qlissandonun bəzi interpretasiya xüsusiyyətləri əks olunmuşdur. Zikr sufizm təriqətində dini ibadətin bir növüdür və bəstəkar T.Qasımzadə də əsərində bu ritualın musiqi təccəssümünü yaratmışdır. Əsərdə diqqəti cəlb edən məqamlardan biri də burada tremolo və akkord-qlissandonun müasir ifaçılıq kontekstində əksini tapması və bəstəkarın özünəməxsus simvolları yaratmasıdır.

**Açar sözlər:** XXI əsr Azərbaycan fortepiano musiqisi, Türkər Qasımzadə, "Zikr" əsəri, tremolo, akkord-qlissando, preparasiya olunmuş fortepiano, artırılmış texnika, interpretasiya üsulları

XX əsrin əvvəllərindən başlayaraq dünya musiqisində yeni üslub və cərəyanların yaranması ilə əlaqədar olaraq çağdaş musiqisinə baxış forması tamamilə fərqli istiqamətdə inkişaf etməyə başladı və yeni bir mərhələyə qədəm qoydu. Belə ki, burada bəstəkarlıq və ifaçılıq istiqamətlərinin inqilabi dəyişikliklərə məruz qalması onun mahiyyətinin yenilənməsinə və zənginləşməsinə səbəb oldu. Ardıcıl olaraq formalaşan yeni ideyalar, yeni konsepsiya, tendensiyalar də onların fərqli formada təzahür etməsini labüdləşdirdi. Fortepiano musiqisində "genişləndirilmiş texnika" (extending technique) termini meydana gəldi və bu termin özündə bir sıra yenilikləri cəmləşdirdi. "Musiqidə artırılmış texnika qeyri-adi səs və ya tembr əldə etmək üçün musiqi alətlərində qeyri-ənənəvi oxuma və ya ifa metodudur" [5]. Bu illərdən başlayaraq fortepianoda ənənəvi ifaçılıq ilə yanaşı, qeyri-ənənəvi ifa metodları da öz əksini tapmağa başladı. Fortepianonun daxili metal və taxta konstruksiyalarına zərbələr endirilməsi, fortepianonun səsinin dəyişilməsi üçün əşyalardan istifadə olunması, simlərə toxunaraq müxtəlif effektlərinin əldə edilməsi, səs ilə oxumaq, klaster tonların əldə edilməsi üçün əl, yumruq və digər əşyalarla klavişlərə toxunmaq və s. bu kimi xüsusiyyətlər "genişləndirilmiş texnika" termininin mahiyyətində duran məsələlərdəndir. Yeniləşən ideyalar zəminində, eləcə də genişləndirilmiş texnika kontekstində trel, tremolo, qlissando və digər simvolların not mətnində əksi məsələləri də aktuallığı ilə diqqəti cəlb edir [3].

Əlbəttə, "genişləndirilmiş texnika" kontekstində musiqidə istifadə edilən

bəzəklərin mahiyyəti tamamilə dəyişmişdir. İstifadə edilən trel, tremolo və digərləri əsərin konstruktiv komponenti, əsərin bərabər hüquqlu bir üzvü kimi çıxış edir. Bu haqda M.Geromolo məqaləsində belə qeyd etmişdir: “Post-Vebernist bəstəkarlar yaradıcılıqlarında seriya, mikroton, elektron musiqi və bir çox genişləndirilmiş texnikalar ilə təcrübə əldə edərək yeni səslərin əldə edilməsini təşviq etdilər. Beləliklə, trel, mordent, appoggiatura və mordent kimi ənənəvi bəzəklərin əvvəlki ritorik funksiyası yox olunmağa başladı. Affekt kontekstindən məhrum edilmiş və artıq heç bir təsir ötürməyən bəzəklər digər genişləndirilmiş texnikalarla birləşdirilmiş və “effekt” kimi nəzərdə tutulmuşdur” [6].

Təqdim edilən məqalədə də Azərbaycan bəstəkarlıq məktəbinin gənc nəslinin nümayəndəsi Türkər Qasımzadənin “Zikr” əsəri nümunəsində genişləndirilmiş texnika kontekstində tremolo, akkord-qlissandonun nota fiksasiya edilməsi məsələsinə və interpretasiya üsullarına diqqət yetirilmişdir [7].

İlk növbədə, qeyd edək ki, T.Qasımzadə (1988) Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının bəstəkarlıq fakültəsini Xalq artisti, professor Xəyyam Mirzəzadənin sinfində bitirmişdir. Daha sonralar Manhetten Musiqi Məktəbində magistr (R.Fuetinq; N.Viqeland sinfində), Sinsinati Konservatoriyasında (M.Helmut; M.Fideyin sinfində) bəstəkarlıq üzrə doktorluq təhsili almışdır. T.Qasımzadə həmçinin bəstəkarlıq üzrə B.Furrer, M.Andre, O.Bianççi, M.Matalon, S.Prins, D.Kram, Q.L.Frank kimi musiqiçilərdən də dərs almış, eləcə də elektron musiqinin texnikasını dərindən mənimsəmişdir. O, müasir musiqi ilə bağlı dünyanın müxtəlif ölkələrində, o cümlədən, Çili, Xorvatiya, Almaniya, Fransa, İsveçrə, ABŞ, İtaliya, İrlandiya, İsveçrə, Bolqarıstan, Rusiya, Litva və digər ölkələrdə keçirilən müsabiqələrdə qalib olmuş, festivallarda iştirak etmişdir. T.Qasımzadənin yaradıcılığı müasir Azərbaycan musiqisi ilə sıx bağlıdır [13].

Qeyd edildiyi kimi, T.Qasımzadənin fortepiano üçün bəstələnmiş “Zikr” əsəri yeni not yazısı kontekstində yazılmışdır, eləcə də özündə tremolo, akkord-qlissandonun yeni işarələrlə qeyd edilməsi baxımından maraq doğurur. Bəstəkar əsərin adını belə qeyd etmişdir: “Dhikr” for piano and electronics”. Əsər 2016-cı ildə bəstələnmişdir [7]; [9].

Müəllif də əsərin əvvəlində ifaçılar üçün qoyduğu izahat vərəqəsində əsərin ifası, mahiyyəti haqqında ətraflı məlumat qoymuşdur. O, belə qeyd edir: “Zikr əsasən təsəvvüf fəlsəfi ilə bağlıdır, sufizm ilə əlaqələndirilmiş bir ibadət formasıdır ki, burada ibadət edən Allahın adının və ya sifətlərinin ritmik təkrarı ilə məşğul olur” [7]. Belə ki, zikr ibadətinə də diqqət yetirən zaman burada ibadət edənlər *Allah, Haay, Hu* sözlərini ritmik olaraq təkrarlayır və burada ritmik ostinatlığı ornamental baxımdan zəngin melodiya müşayiət edir [8]; [10]; [11]; [12]. Ayində musiqi aləti kimi yalnız dəfdən istifadə edilir. Maraqlısı budur ki, bəstəkar bu dini ritualı, onun bütün elementlərini – təkrarlanan ritmik struktur, dəf, ornamentallığı müasir musiqinin ifadə vasitələri ilə müasir musiqi kontekstində ifadə etmiş və onun musiqidə özünəməxsus formada təcəssümünü yaratmışdır.

Əsər qeyri-ənənəvi formada yazılmışdır: burada xanə xətləri yoxdur, fortepianonun həm klavişlərində və həm də daxili konstruksiyalarında ifa edilir. Bununla bağlı olaraq ifaçı üçün izahat vərəqəsi (sinopsis) təqdim olunur. İzahat vərəqəsində kifayət qədər məlumat verilmişdir. Müəllifin də qeyd etdiyi kimi xanə xətlərinin verilməməsi zamanın çevikliyini göstərir və burada pedal bir növ xanə xətti rolunda çıxış edərək musiqi cümlələrini sanki bir-birindən ayırır. Eyni zamanda müəllifin də qeyd etdiyi kimi əsər ritmik baxımdan dəqiq ifa edilməlidir (*flexible yet rhytmically accurate*).

İzahat vərəqəsində həm də yeni ifa fəndlərinə aydınlıq gətirilir. Bəstəkar ifaçılıq qeydində həm də 6 yeni fəndin izahatı verilmişdir. Vərəqədə iki qeyd tremolo və akkord-qlissando, növbəti üç qeyd preparasiya olunmuş fortepiano ilə bağlıdır. Digəri isə elektron səsin işarəsidir [6]. Təqdim olunan məqalədə izahat vərəqəsində verilmiş bütün qeydlərin mənasının açılmasını məqsədəuyğun hesab edirik.

Qeyd edək ki, burada “electronics” deyərkən, ifa zamanı kompüterdən də istifadə olunması nəzərdə tutulur. Müəllif ifaçılıq qeydləri hissəsində Max/MSP-dən istifadə məsələlərinə toxunur: kompüterdə Max/MSP açılır və pianonun yaxınlığına qoyulur. Həmçinin iki səsgücləndiriciləri də pianonun yanına qoyulmalıdır. Max/MSP MİDİ pedal, və ya laptopun boşluq (probel) düyməsi ilə işə salınır” [5]. Bu zaman Max/MSP fortepianonun yazılmasını həyata keçirir və MİDİ pedal basılarkən qeydə alınmış musiqi səslənir. Bu da öz-özlüyündə ritualın konsepsiyasını əks etdirir.

“Zikr” əsərində məzmununun ifadə edilməsi və çatdırılmasında artırılmış texnika kontekstində tremolo və akkord-qlissandolar mühüm rola malikdir. Belə ki, burada təkrar edilən ritmik fiqurlar və bir-biri ilə kombinə olunmuş bu simvollar məhz dini ayinin xarakterik xüsusiyyətlərini xatırladır. Həmin işarələrə diqqət yetirək:



Bu işarə isə royalın daxilində simlər üzərində sürətli, enerjili və kəskin tremolonun ifasını əks etdirir. Tremolonun yerinə yetirərkən barmağın başqa simlərə toxunması məqbul hesab edilir.

Royalın daxilində barmaqlar vasitəsilə simlərdə çox qısa və sürətli akkord-qlissando edilməsini göstərir. Notda vizual olaraq akkord-qlissandonun yerinin göstərilməsinə baxmayaraq, onun yeri royalın daxilində ifaçı tərəfindən müəyyən edilir. Əgər işarədə dairə yoxdursa və təkcə ağ kvadrat müşahidə edilirsə, bu zaman fortepianonun daxilində simlərə vurulur:



Əsərdə digər ifaçılıq fəndləri də aşağıdakılardan ibarətdir:



Royalın registrlərini ayıran metal hissəsini əllə zərbə ilə vurulmasını göstərir.



Verilmiş notlarda bir əliniz ilə royalın daxilində simləri tutub saxlanmasını, digəri ilə ənənəvi formada klavişdə ifa edilməsini ehtiva edir.



Bu işarə pizzicatonu göstərir. Royalın daxilində göstərilən simi barmaqla dartılmasını mənasında verilir.

Preparasiya olunmuş fortepiano termininin mahiyyətinə uyğun olaraq əsərdə ifaçıdan əvvəlcədən hazırlıq görülməsi tələb olunur. Belə ki, bu terminə uyğun olaraq ifadan öncə royalın daxilində aşağıda verilmiş hər iki nümunədə qeyd olunan səslər üzərinə bəstəkarın tələb etdiyi əşyaları əvvəlcədən yerləşdirmək, simləri işarələmək mütləqdir (Nümunə №1; Nümunə №2). "Zikr"də bu iki yolla əldə edilir: birinci olaraq "səssiz not" effektinin əldə edilməsi, ikinci olaraq qonq alətinin səsinin alınması. "Səssiz not" effektinin alınması məqsədilə alətin daxilinə əvvəlcədən müəyyən edilmiş səslərə plastik və digər materiallar da yerləşdirilməsi göstərilir. Bu effekt aşağıdakı səsləri əhatə edir:

**Nümunə № 1.**



Alətin daxilində göstərilmiş səslərdə metal əşyalar yerləşdirilərək "rezonanslı", "metal" səslər əldə edilir. Bu səslər bizə vurğulandığı kimi qonq alətinin zərbələrini xatırladır. Həmin səslər aşağıdakılardır:

**Nümunə № 2.**



"Zikr"də tremolo və akkord-qlissando həm də konstruktiv mövqedən çıxış edir. Belə ki, əsərin melodiyasının qurulmasında yaxından iştirak edir.

Yuxarıda qeyd edilənlər nəzər alınaraq aşağıda "Zikr" əsərindən bəzi hissələr təhlil edilmişdir. İlk musiqi xanəsində otuzikilik və nöqtəli onaltılıq ölçülü notların növbələşməsindən sonra "a"-"$a^1$" səsləri verilir. Burada həmin səslərin üzərində

izahat vərəqəsində göstərildiyi kimi plastik və metal əşyalar qoyulduğundan həmin səslər “səssiz not” və qonqun səs effektini verir. Daha sonra gələn $a^{2}$” səsi üzərində çevik tremolo həyata keçirilir və yenidən həmin ritmik şəkil səslənərək ikinci cümlə verilir. Eyni zamanda “$a^{2}$”-də verilən tremolo ikinci cümlənin başlanğıcına çevrilir. Basda – sol əldə “a” klavişdə ifa edilir, sağ əldə “$a^{1}$-$fis^{2}$” və “$fis^{1}$” səsləri metal və plastik yerləşdirilən səslərin üzərinə düşür. “$fis^{1}$”-də isə yenidən tremolo səslənir və tremolo alətin metal hissəsinə vurulan zərbə ilə sonlanır. Burada həmçinin dinamik müxtəliflik də diqqəti cəlb edir və *pp, ppp, sfz* çalarlarının tez-tez dəyişməsi müşahidə edilir (Nümunə №3).

Üçüncü musiqi xanəsində də yenidən onaltılıq və otuzikilik notların növbələşməsini izləmək olar. “$b^{1}$” və “b” səslərinin effekt xarakterli verilməsi yenidən “$c^{2}$” səsində tremolo çalınır. Daha sonra gələn hissədə (dördüncü xanə) isə akkord-qlissando səs effekti kombinə olunaraq mürəkkəb strukturu yaradır. Belə ki, basda – sol əldə “Des” səsi effekt xarakterlidir (qonq səsinə bənzəyir) və daha sonra  akkord-qlissando ifa edilir, yenidən *pp* çalarında “Des” səsi verilir və “$d^{1}$” səsində kiçik tremolo edilir (Nümunə №3). Həmçinin burada olan növbələşmə ilə ritualın elementləri arasında oxşarlığı müşahidə etmək olar. Misal olaraq, təkrarlanan ritmik struktur ayin iştirakçılarının hərəkətlərini – eyni sözləri təkrar etmələrini, verilən tremolo və akkord-qlissando ritualdakı zəngin improvizə təbiətli ornamental melodiyanın əks sədası və s. kimi xarakterizə etmək mümkündür.

**Nümunə № 3.**




Bu işarələrin bir-biri ilə kombinə olduğu digər nümunələrdən biri də 9-11-ci xanələri əhatə edir. Misal üçün doqquzuncu xanənin sonunda “$a^{2}$” səsində ardıcıl olaraq tremolo edilməsi tələb olunur. Onuncu xanədə “$c^{1}$-$des^{1}$”-də verilmiş qonq səslərinin “$as^{4}$” səsi ilə növbələşməsindən sonra akkord-qlissandonun verilməsi və alətin metalına vurulan zərbələrin “səssiz” notlarla yenidən növbələşməsi müşahidə etmək olar. Xüsusilə, bu zaman əsərdə ritmik dəqiqliyə də diqqət yetirilməlidir (Nümunə № 4):

**Nümunə № 4.**



Qeyd edək ki, əsərin növbəti hissələrində tremolo və akkord-qlissando daha da mürəkkəb formada təqdim edilir. Bu həm də əsərin dramaturgiyasının inkişafı ilə bağlıdır. Sanki ritualın kulminasiyasını xatırladır. Nümunə üçün artıq 59-cu xanədən başlayaraq tremolonun daha uzun ölçüdə verilməsini müşahidə edə bilərik.

Digər tərəfdən 67-68-69-cu xanələrdə akkord-qlissando, tremolo, pizzicato və tremolonu müşahidə etmək olar ki, bu işarələr ənənəvi ifa ilə növbələşərək təqdim olunur (Nümunə № 5):

**Nümunə № 5**



72-ci xanədən ("here find yourself in the state of ectasy, dhikr..." qeydindən başlayaraq) isə tremolo, akkord-qlissandodan daha çox istifadə edilməyə başlanılır (Nümunə №6). Əsərin kulminasiya hissəsi 72-119-cu xanələri əhatə edir (Nümunə №7). Qeyd edilən bu hissələr ornamentallığı, mürəkkəbliyi ilə diqqəti cəlb edir. Bəzən bu hissələr tamamilə alətin daxilində ifa edilir. Misal olaraq, 72-ci xanədə sağ əldə "$g^1$" səsində simdə uzun tremolo, basda isə sol əlin simlərə vurulmasını vurğulaya bilərik. Burada artırılmış texnikanın növləri özünü parlaq formada göstərir. 72-75-ci xanələr bu formada davam edir və tremolo edilən səslər fərqlənir. Növbəti hissələrdə ifa prosesi daha da mürəkkəbləşir (76-102-ci xanələr). Belə ki, burada tremolo, simlərə zərbə, alətin metal hissəsinə zərbəni, akkord-qlissando növbələşməsini, bəzən eyni anda verilməsini (81-ci xanə) müşahidə etmək olar. Eyni zamanda burada notların ifa uzunluqları da qısalaşır. Bu isə məzmunu da gərginləşdirir. Xüsusilə, əsərdə həmin fəndlərin ritmik strukturu qorumaqla ardıcıl olaraq hər səs üzərindən həyata keçirilməsi ifaçıdan peşəkarlıq, alətin daxili konstruksiyasına yaxından bələd olma tələb edir. Əsərin sonuna doğru isə təlatüm azalmağa doğru gedir və bu zaman əsasən *pp* və ya *ppp* dinamik çalarlarından istifadə olunur. "Zikr" əsəri "$des^2$" səsində verilən tremolo (*pppp*-da) ilə yekunlaşır.

**Nümunə № 6.** **Nümunə № 7.**



Beləliklə, təqdim edilən məqalədə Türkər Qasımzadənin “Zikr” əsəri yenilikçi ideyaları ilə diqqəti cəlb edir. Eyni zamanda akkord-qlisando və tremolo not mətnində təcəssüm edilməsi və interpretasiya üsullarına görə seçilir. Bəstəkar əsərdə sufizm təriqətində mövcud olan bu ritualın musiqi təcəssümünü yaratmışdır və bu dini ayinin musiqidə ifadə edilməsində tremolo, akkord-qlissando mühüm komponent rolunda çıxış etmişdir.

Əsərdə tremolo, akkord-qlissando kimi iki bəzək növlərindən istifadə edilmişdir. Maraqlı məqam tremolo, akkord-qlissandonun artırılmış texnika kontekstində təqdim olunması, mahiyyət etibarı ilə yenilənməsi, “bəzəmək” funksiyasını itirərək əsərdə bərabər hüquqlu vahidə çevrilməsi və həmçinin bəstəkarın bu bəzəklərlə bağlı simvollarını icad etməsidir ki, bu da Azərbaycan fortepiano musiqisini müasir not yazısını daha da zənginləşdirmişdir. Bütün bunlar isə müasir Azərbaycan bəstəkarlarının fortepiano əsərlərində tremolo və akkord-qlisandonun yeni not yazısı kontekstində özünəməxsus formada əks olunmasını deməyə əsas verir.

## Ədəbiyyat siyahısı:

1. Mirzoev, S.Ə. Azərbaycan musiqisi kontekstində müasir fortepiano notasiya simvolları / S.Ə.Mirzoev. – Bakı: Qanun, – 2019. – 183 s.
2. Mirzoev, S.Ə. Fərəc Qarayev və yetirmələrinin əsərlərinə piano ifaçısı baxışı / S.Ə.Mirzoev. – Bakı: Qanun, – 2020. – 197 s.
3. Mirzoev, S.Ə. Fortepiano texnikasında müasir ifaçılıq effektləri işarələri / S.Ə.Mirzoev. – Bakı: RSXM-nin mətbəəsi, – 2010. – 63 s.

4. Мамедова, Л.М. Хоровая культура Азербайджана / Л.М.Мамедова. – Баку: Адилоглу, – 2010. – 231 с.
5. *Burtner, M. Making Noise: Extended Techniques after Experimentalism // –* Neq-York^ *New Music Box. – 2005. Issue 71, Vol.6, No. 11.*
6. *Gemolo, M.* Extended techniques on the traverso (part 2): the case of the fluttertonguing and microtones in the post-modernist repertoire for the one-keyed flute // – London: Online journal for artistic research, – 2019. – pp. 5-23
7. Qasimzadə, T.N. Dhikr. For piano and electronics [Scores]: / Clavier. – Baku: – 2016, – 10 p.
8. Dhikr [Electronic resource]: URL: https://en.wikipedia.org/wiki/Dhikr
9. Dhikr. For piano and electronics [Electronic resource]: URL: https://soundcloud.com/humay-qasimzade/turkar-gasimzada-dhikr-for-piano-and-electronics
10. Eyyubi Vakfı "Kadir Gecesi" Özel Zikir Sohbeti [Elektron resurs]: ŞAHİN Kamera & Fotoğraf. – 2020. URL: https://www.youtube.com/watch?v=OnE51yVedDc
11. Hadrah with Mawlana Sheikh Muhammad in the Osmanische Herberge 01.07.2022 [Electronic resource]: Naqshbandi Germany. – 2023. URL: https://www.youtube.com/watch?v=o-8gvlFgxuI
12. Islamic Mysticism Sufi Zikr Circle [Electronic resource]: Dr. Lefebure Methods España e Iberoamérica. Fosfenismo. – 2014. URL: https://www.youtube.com/watch?v=HN3h_rKKDIw
13. Turkar Gasimzada website [Electronic resource]: https://www.turkargasimzada.com/

**Гюнель Бекирова**

# О НЕКОТОРЫХ ИНТЕРПРЕТАЦИОННЫХ ХАРАКТЕРИСТИКАХ МЕЛИЗМОВ В ПРОИЗВЕДЕНИИ «ЗИКР» ТЮРКАРА ГАСЫМЗАДА

**Резюме:** В представленной статье рассматривается фортепианное произведение «Зикр» современного азербайджанского композитора Тюркара Гасымзаде. Как известно, Зикр – это вид религиозного богослужения в суфизме. Композитор стремился воссоздать в своем сочинении музыкальное воплощение этого ритуала. Наше внимание привлекло то, что тремоло и аккорды-глиссандо, отмеченные в нотном тексте произведения, отличаются некоторыми особенностями интерпретации. В контексте современного фортепианного исполнительского искусства они находят свое новое оригинальное воплощение, что мы видим в данном сочинении, где композитору Т.Гасымзаде удалось создать свойственные его стилю символы.

**Ключевые слова:** Азербайджанская фортепианная музыка XXI века, Тюркар Гасымзаде, произведение «Зикр», тремоло, аккорд-глиссандо, подготовленное фортепиано, расширенная техника, методы интерпретации

**Gunel Bakirova**

## ON SOME INTERPRETATION CHARACTERISTICS OF MELISMAS IN THE WORK "DHIKR" BY TURKAR GASİMZADA

In the presented article, some interpretation features of tremolo, as well as chord-glissando are reflected in the work “Zikr” by Turkar Gasimzade, a well-known representative of modern Azerbaijani piano music. Zikr is a type of religious worship in the sect of Sufism, and the composer T. Gasimzade created the musical embodiment of this ritual in his work. One of the points that attract attention in the work is that tremolo and chord-glissando are reflected in the context of modern performance and the composer creates his own symbols.

***Key words:*** Azerbaijani piano music of the XXI century, Turkar Gasimzada, “Dhikr”, tremolo, chord-glissando, signs, prepared piano, extended technique, interpretation methods.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 26.01.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

**UOT 78**
**DOI: 10.52094/3005-9941.45.2024.023**

**Sevinc Əmiraslan qızı Balabəyova**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**dissertant**
**ORCID: 0000-0003-1497-6664**
**E-mail: sevincbalabeyova@mail.ru**

# QƏRBİ AZƏRBAYCAN – "ÇƏMBƏRƏK/DABAN DURMA", "ÇƏMƏNKƏND" YALLILARININ ÖZƏLLİKLƏRİ

**Xülasə:** İrəvan xanlığı Azərbaycan tarixinin və dövlətçiliyinin ayrılmaz tərkibidir. Mədəni sərvətimiz, xalq rəqs janrının qədim növü sayılan yallılar milli varlığımızın, kimliyimizin təcəssümüdür.

Keçmişin dövr mərhələləri, tədricən dəyişən insan düşüncəsi, hisləri və zəruriyyətdən meydana gələn mistik inanclar oyun havasında izlərini qoymuşdur.

Məqalədə İrəvan ərazisində yaranmış yallı rəqslərindən "Çəmbərək/Daban Durma" və "Çəmənkənd" əhatəli məzmunda təhlil hədəfinə cevrilmişdir.

Bununla yanaşı tədqiqatçı R.Bəhmənlinin yallıları ustad ifaçılardan neçənci ildə nota köçürdüyü və hansı kitablarda tanıtdığı barədə bilgi paylaşılır. Nümunələrin forması, hissələrin, bölümlərin quruluşu, tempi, ölçüsü, mayəsi, məqamı, yönəlmə, modulyasiya, diapazonu, fərdiliyinə aid irəli sürülən cəhətlərin səlis izahı üçün not misalları və sxemlər göstərmişik.

**Açar sözlər:** "Çəmbərək/Daban Durma", "Çəmənkənd", məqam, mayə, rast, şur, xanə, ibarə, cümlə, variantlı

Yallılar ötən zamanın təsirini daşıyıb, ibtidai və sonrakı baş vermiş hadisələrin şahididir. Bütün sadalananlar oyun havasının təkmilləşməsinə, mürəkkəbləşərək vahid hala düşüb sabitləşməsinə zəmin yaratmış

Biz araşdırmada musiqişünas-alim R.Bəhmənlinin "Erməni plagiatına məruz qalmış Qərbi Azərbaycan yallıları" başlıqlı toplusundakı "Çəmbərək/Daban Durma" və "Çəmənkənd" not nümunələrinə əsaslanmışıq [1].

Tədqiqatçı İrəvan zonasına məxsus yallı havalarını obalarından didərgin salınmış, yurd-yuvalarından məcburi çıxarılılmış vətəndaşlarımızın, informatorların sayəsində notlaşdırmışdır.

"Azərbaycan yallıları" məcmuəsində [2]; "Azərbaycan qədim rəqs havaları" monoqrafiyasında işıqlandırıb [3].

"Çəmbərək/Daban Durma" (№ 6) və "Çəmənkənd" (№ 7) tərəfimizdən ilk dəfə elmi işimizdə incələnən 43 Qərbi Azərbaycan yallılarındandır.

Oyun havalarının forma və quruluşu, məqam-tonal, intonasiya münasibətləri, yönəlmə, modulyasiya, hissələrin oxşar, zidd xüsusiyyətləri acıqlanıb.

İki hissəni özündə cəmləyən yallını R.Bəhmənli 2007-ci ildə, Bakıda

şəhərində zurna ifaçısı Musa Məmməd oğlu Bayramovun səsləndirməsindən nota alıb.

*"Çəmbərək – Qərbi Azərbaycanın Göyçə mahalı və Qaraqoyunlu dərəsi ərazisində rayondur. 1920-ci ilin sonuna kimi Gəncə (Yelizavetpol) quberniyasının Qazax qəzasının tərkibində olmuş bu rayon sovet hakimiyyəti illərində Göyçə mahalının tərkibinə daxil edilmişdir. Yallıya verilmiş "Daban durma" adı isə onun xoreoqrafik oyun qaydası ilə əlaqədardır"* [1, s. 91].

"Çəmbərək/Daban Durma" I hissə: Andante tempində, 2/4 ölçülü, "fa"[1] mayəli rast məqamına da və variasiyaya oxşar formadadır.

Məqam-tonal ardıcıllığı: "fa" rast.

Diapazonu: böyük seksta (b.6) (I oktavanın do və lya səsi) həcmindədir.

Yallı quruluşuna görə araşdırmaya cəlb etdiyimiz digərlərindən nömrələrdən fərqlənir. Belə ki, dörd xanəli tək cümlə (a) musiqisi variantlı şəkilində yenilənir. Təkrar sayı dörddür. Hər parça keçidinin yekunu eyni tam kadansla bitir. Birinci melodiyada (a) tək sərbəst motiv xanələrdə sıralanaraq eşidilir. Ancaq, dördüncü xanədə tam kamil kadansla təsdiqlənir.

**Nümunə № 1.**




Cümlənin inkişafı üç pillə arasında əksin tapır (mayə, mayənin üst aparıcı tonu və mayənin tersiyası). Musiqi materialının axırında mayəyə alt aparıcı ton vaistəsilə tam kadans əhval-ruhiyyəsi köklənir. Parçanın ilk dəyişkənliyində ($a_1$) mayədən alt kvartalara sıçrayışlar və sonra dörd onaltılıqların ləpəvari gəzişmələri diqqət çəkir.

**Nümunə № 2.**




Növbəti variantlılıqda ($a_2$) melodiya fikir onaltılıq pauzayla başlayaraq sinkopalaşır, həmçinin mayədən alt kvartaya kəskin hərəkətlərlə yadda qalır.

Yeni bicimə bürünən üçüncü ($a_3$) cümlə əvvəlindəki sinkopa musiqi düzümünü təzələyir. Aşkarladığımız dəyişkənliklər zurna ifaçısının peşəkarlığının və bədii yanaşmasının nümayişidir.

Yönəlmə və modulyasiya yoxdur.

"Çəmbərək/Daban Durma" I hissənin təhlil sxemi:

| a | $a_1$ | $a_2$ | $a_3$ |
|---|---|---|---|
| ($4_x$) | ($4_x$) | ($4_x$) | ($4_x$) |

"Çəmbərək/Daban Durma" II hissə: Vivo tempində, 6/8 ölçülü, "fa"[1] mayəli rast məqamı üzərində qurulub və period formasındadır.

Məqam-tonal ardıcıllığı: "fa" istinadlı rast.

Diapazonu: xalis kvadrat (x.4) (I oktavanın mi və lya səsi) həcmindədir.

Yallı qoşa dörd xanədən ($a+a_1$) ibarət təkrar quruluşlu, kvadrat period çərçivəsindədir.

I hissədən seçilərək dörd xanəlik parça (a) iki dəfə variantlılıqla reallaşır. Onlar müxtəliflik daşımayan kadansla tamamlanır. Melodik xəttin birinci, dördüncü xanələrində musiqi qüvvətli, ikinci, üçüncüdə isə zəif zərbəyə düşür.

**Nümunə № 3.**




Digər cümlə də ($a_1$) yenilənərək keçir. Cüt parçada ($a+a_1$) ilk ibarə xanələri parçalanmış, ikincidə cəmləşmişdir. Məzmun gedişatına nəzər yetirsək görərik ki, hər melodik ifadə qoşa ibarəlidir və öncəki sual, sonuncu cavab, yekunlaşdırıcı xarakterdədir.

"Çəmbərək/Daban Durma"nın I hissəsi mayədən alt kvartaya sıçrayışlarla aktivdir. Artıq II hissədə həmin hərəkətlilik mövcud deyil. Səbəb: rəqs çox cəld tempdədir və texniki çətinliyi ilə əlaqədardır.

Yönəlmə və modulyasiyayla qarşılaşmırıq.

"Çəmbərək/Daban Durma" II hissənin təhlil sxemi:

| a | $a_1$ |
|---|---|
| $(4_x)$ | $(4_x)$ |

"Çəmənkənd"

İki hissəni özündə ehtiva edən yallını R.Bəhmənli 2007-ci ildə, Bakı şəhərində zurna ifaçısı Musa Məmməd oğlu Bayramovun səsləndirməsindən nota alıb.

*"Rəqsə yarandığı məkanın, İrəvan qəzasında Qarabağlar (1948-ci ildən Vedi rayonu) rayonunun inzibati ərazisinə daxil olan kəndin adı verilmişdir. Bu yallı havası Naxçıvanda "Çəmənli" adı ilə tanınmaqdadır"* [1, s.91].

"Çəmənkənd" I hissə: Andante tempində, 2/4 ölçülü, "re"[1] mayəli şur məqamı üzərində qurulub və variasiyaya oxşar formadadır.

Məqam-tonal ardıcıllığı: "re" şur.

Diapazonu: böyük septima (b.7) (I oktavanın do və si səsi) həcmindədir.

Yallıda dörd xanəli tək musiqi materialı xeyli sayda dəyişik tərzdə eşidilir. İlk cümlə iki-iki xanəli ibarəlidir və axırıncı parça əvvəlkindən bir pillə bəmə enərək, sanki dialoq münasibətini sərgiləyir. Vurğuladığımız ənənənə on yeddinci xanəyə kimi qalır. Melodiya dörd dəfə variantlı sıralanır.

On yeddinci xanədən faktura saxlanaraq ibarə musiqisi bir pərdə zilləşir.

Sonra ikinci, üçüncü ibarələr pillə-pillə aşağı sekvensiyalıqla mayəyə qayıdır.

Tamamlanmada sekvensiyalıq müəyyən qədər yenilənərək təkrarlanır.

İlk dörd ifadənin bütün keçidlərindəki ibarə parçası xalis kvarta yuxarı (2+2) bir, cümlə düzümündən etibarən ($a_4$) kvinta intervalına doğru sıçrayışla iki dəfə sekvensiyalıq (3+3) melodiyanı altı xanəyə çatır.

**Nümunə № 4.**




Musiqi fikrindən ($a_4$) başlayaraq cüt xanəlik ibarə xətti bəm istiqamətə ləpəvari sekvensiyalıqla “re” mayəli şurda bitir. On doqquzuncu və iyirminci xanələrdə birinci sekvensiya zamanı “mi” segaha yönəlir.

**Nümunə № 5.**




Habelə, iyirmi beşinci və iyirmi altıncı xanələrdə də eyni yönəlmə xatırladılır.

İbarələr qoşa xoreyli motiv yerləşir sonuncu öncəkini yekunlaşdırır. On yeddinci xanədən rastlaşdığımız “fa” səsindəki trelin “sol” bemol qeydi ifaçısının yallıya qatdığı gözəlliklə bağlıdır.

“Çəmənkənd” I hissənin təhlil sxemi:

| | | | | | |
|---|---|---|---|---|---|
| a | $a_1$ | $a_2$ | $a_3$ | $a_4$ | $a_5$ |
| ($4_x$) | ($4_x$) | ($4_x$) | ($4_x$) | ($6_x$) | ($6_x$) |

Oyun havasında “Çəmbərək/Daban Durma”dan fərqli trellə bərabər, mordent bəzək işarəsindən istifadə olunub.

“Çəmənkənd” II hissə: Vivo tempində, 6/8 ölçülü, “re”[1] mayəli şur məqamı üzərində qurulub və sadə iki hissəli formadadır.

Məqam-tonal ardıcıllığı: “re” istinadlı şur.

Diapazonu: böyük sekista (b.6) (I oktavanın do və lya səsi) həcmindədir.

II hissə qismən I-yə yaxındır. Məzmununda, kvadratlıqda və cümlələrin variantlı verilməsində özünü göstərir.

I bölüm (A) iki dörd xanəli, təkrar quruluşu, kvadrat period çərçivəsindədir.

Parçalar ($a+a_1$), cüt ibarəlidir və ikinci əvvəlkinə cavab rolunu daşıyır. İlk melodik materialda mayədən üst kvartaya edilən sıçrayışın qoşa xanəlik davamı, digər ibarədə əsas tondan tersiyaya sekvensiya üsulu ilə həyata keçirilir.

Cümlələr arasındakı seçicilik ($a_1$)-rin ikinci ibarəsində musiqi fikri bir pillə aşağı düşərək mayənin alt aparıcı tonundan, mayənin tersiyasıına hərəkətliliylə periodu tamlığını təsdiqləyir.

**Nümunə № 6.**
**Andante**



II bölüm (B) parçaları $(b+b_1)$ xanələri sayca çoxdur. Yəni mayədən, üst kvintaya sıçrayışlar nədəniylə əsas tona enmək üçün üç ədəd cüt xanəli ibarəylə gerçəkləşir.

**Nümunə № 7.**
**Andante**



II bölümün axırıncı melodiyasında $(b_1)$ həmin prinsip variantlı şəkildədir. Üç ibarəli, altı xanəlidir.

İfaçı kifayətlənməyərək II bölümün musiqisini yenidən təkrarlayır.

"Çəmənkənd" II hissənin təhlil sxemi:

| A | B | |
|---|---|---|
| $(a+a_1)$ | $(b+b_1)$ | $(b+b_1)$ |
| $(4_x+4_x)$ | $(6_x+6_x)$ | $(6_x+6_x)$ - tamamlayıcı təsdiq |

Nəticədə biz məqalədə ilk elmi işimizdə araşdırdığımız "Çəmbərək/Daban Durma", "Çəmənkənd" Qərbi Azərbaycan yallılarının forma və quruluşu, məqam-tonal, intonasiya, daxilindəki yönəlmə, modulyasiya həmçinin fərdi amillərini üzə çıxarıb, not misalları ilə, səlis izahda təqdim etmişik.

### Ədəbiyyat siyahısı:

1. Bəhmənli R.B. Erməni plagiatına məruz qalmış Qərbi Azərbaycan yallıları. Bakı, "Elm və zəka", 2022, 112 s.
2. Bəhmənli R.B. Azərbaycan yallıları. Bakı, "Mütərcim", 2018, 140 s.
3. Bəhmənli R.B. Azərbaycan qədim rəqs havaları. Bakı, "Şərq-Qərb", 2021, 672 s.

**Севиндж Амираслан кызы Балабекова**

## ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ ЯЛЛЫ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА – «ЧАМБАРАК/ДАБАН ДУРМА», «ЧАМАНКАНД»

**Резюме:** Иреванское ханство является неотъемлемой частью истории и государственности Азербайджана. Яллы, считающийся нашим культурным богатством, древний жанр народного танца, является воплощением нашего национального существования и самобытности.

Этапы прошлого, постепенно меняющиеся человеческие мысли, чувства и мистические убеждения, возникшие по необходимости, оставили свои следы в атмосфере танца

В статье всесторонне проанализированы «Чамберак/Дабан Дурма» и «Чаманкенд» из танцев Яллы, зародившихся в области Иреван.

В то же время в научных трудах Р.Бахманли сообщается информация о том, какие мастера-исполнители переписывали яллы, о датах зарождения и письменных источниках о древнем танце. В статье в нотных образцах, предоставлены примеры обозначений и схемы для наглядного пояснения предлагаемых аспектов, связанных со строением частей, разделов, темпом, размером, плавностью, ладах, отклонениями, модуляций, диапазоном, индивидуальностью.

**Ключевые слова:** «Чамберак/Дабан Дурма», макам «Чаменкенд», Майк, раст, шур, такт, фраза, предложение, вариация

**Sevinj Amiraslan kızı Balabejova**

## CHARACTERISTIC FEATURES OF YALLİ OF WEST AZERBAIJAN - "CHAMBARAK/DABAN DURMA", "CHAMANKAND"

**Summary:** The Iravan Khanate is an integral part of the history and statehood of Azerbaijan. Considered to be our cultural treasure, Yalli, an ancient genre of folk dance, is the embodiment of our national existence and identity.

The stages of the past, the gradually changing human thoughts, feelings, and mystical beliefs that arose out of necessity, left their traces in the atmosphere of the ancient dance.

The article comprehensively analyzes the Yalli “Chamberak/Daban Durma” and “Chamankend” that originated in Iravan.

At the same time, the scientific works of R. Bakhmanli provide information about which master performers copied the yalli, about dates, and books about the ancient dance. The article provides examples of notation and diagrams for a visual explanation of the proposed aspects related to musical examples, the structure of parts, sections, tempo, size, smoothness, modes, deviations, modulation, range, and individuality.

**Key words:** “Chamberak/Daban Durma”,makam “Chamenkend”, Mike, rast, shur, tact, phrase, sentence, variation

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.05.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

## TƏSVİRİ SƏNƏT

**УДК: 903.2/739.5**
**DOI: 10.52094/3005-9941.45.2024.024**

**Акмал Фозилжонович Улмасов**
**Институт искусствознания Академии наук Республики Узбекистан**
**E-mail: akmaljonu@gmail.com**

# ИССЛЕДОВАНИЕ МЕТАЛЛИЧЕСКОЙ КУРИЛЬНИЦЫ ИЗ ДАЛЬВЕРЗИНТЕПА: ТЕХНИКА, СИМВОЛИКА, ПРОИСХОЖДЕНИЕ

**Резюме:** В статье представлен новый археологический артефакт – металлическая курильница, обнаруженная в результате археологических раскопок на городище Дальверзинтепа. В статье описаны технические характеристики и художественные особенности этого предмета, а также проведен сравнительный анализ с аналогичными образцами изархеологических комплексов других историко-культурных регионов, таких как Парфия и Гандхара. Особое внимание уделено технике изготовления и символическому значению рукоятки в виде оленя. Также, предпринята попытка выявить происхождение и контекстуальное значение данного артефакта, исходя из исторических исследованиий и анализа существующих культурных практик.

**Ключевые слова:** металлическая курильница, находка, Дальверзинтепа, Бактрия, Кушан, ритуал, благовоние, олень, зооморфный, символ

Археологический памятник Дальверзинтепа в древности был одним из крупнейших городов древней Бактрии. Его формирование началось в греко-бактрийский период с цитадели, а в кушанский период он расширился до шахристана. Здесь, как и в других крупных городах кушанской Бактрии, развивались градостроительная культура, архитектура, религия, искусство, ремесла, торговля и т.д. Памятник был известен ещё в 1930-х годах и позднее был обследован археологом Л.И.Альбаумом. С 1967 года на городище начались стационарные археологические исследования “Узбекистанской искусствоведческой экспедицией” (УзИскЭ) Института искусствознания АН РУз и продолжаются по сей день (рис. 1).

В 2015-2017 годах экспедиция провела сезонные археологические исследования на территории Шахристана. В результате раскопок были обнаружены остатки строительного комплекса (Дт-32), состоящего из нескольких помещений. В культурных слоях было обнаружено большое количество керамики, чираги (светильники), терракотовые статуэтки, каменные пряслица, бронзовые зеркала, монеты и другие предметы домашнего обихода. Эти находки свидетельствуют о широком развитии изобразительного и прикладного искусства, ремесел и торговли в древности [1, с.25-27].

Среди археологических находок, выделяется одна уникальная по форме металлическая курильница для благовоний. Она состоит из двух частей: круглого диска в форме тарелки и ручки в виде оленя. Размеры курильницы: диаметр диска – 9 см, высота – 2,3 см, глубина – 1,5 см; длина ручки – 9,3 см, высота – 10,2 см, толщина – 2,2 см. После очистки и реставрации, детали курильницы стали четко видны.

Обнаруженная курильница была покрыта ржавчиной и остатками земли. После завершения раскопок предмет был отправлен в реставрационную лабораторию Института. В процессе реставрации были проведены механическая и химическая очистка. Сначала прилепшие остатки с поверхности курильницы были удалены механическим способом, а затем предмет подвергся химической обработке раствором "Трилон-В". В результате очистки находка приобрела первоначальноый облик, и все ее детали стали четко различимыми (Рис. 2 а, б).

По предварительным наблюдениям, диск и ручка курильницы были изготовлены отдельно и затем соединены. Два фронтальных копыта оленя были припаяны к металлической пластине, а затем прикрепились к диску. Тело оленя было сформировано методом литья, а затем обработано механически. Диск курильницы был выполнен методом чеканки и украшен концентрическими желобками и круглешками.

Ручка курильницы, выполненная в виде оленя, является важным элементом. Она изображает животное с приподнятым туловищем, широко открытой пастью и крупными рогами, детали оленя выполнены с высокой степенью реализма.

Находка уникальна, такого типа металлические курильницы неизвестны не только на Дальверзинтепе, но и на других древних памятниках Бактрии. Однако, два очень похожих по форме образца хранятся в галерее "Баракат" в Лондоне. Ручка одного из них точно также как у дальверзинской курильницы изображает оленя или горного козла, а у другой выполнена в виде барана. В краткой справке об этих предметах, говорится, что они были изготовлены из бронзы и использовались в период правления Сасанидов (200-600 гг. н.э.). На подписях к изображениям предметов, опубликованных на официальном сайте галереи, указано происхождение курильниц из Центральной Азии. Однако, согласно другим источникам, образец в виде рогатого горного барана был привезен из Парфии и датирован серединой I-II вв. н.э. [2, с.44-45].

Сравнительный анализ парфянских образцов с новыми образцами из Дальверзинтепе выявил как сходства, так и различия между ними. Во-первых, все образцы изготовлены из бронзы и выполняют сходные функции. Кроме того, одна из ручек имеет аналогичную форму, а другая прикреплена к круглому диску. Тем не менее, существует несколько отличий. Например, олень на курильнице лондонского образца идеально проработан с

анатомической точностью, но размеры чаши существенно различаются. Диск одного из аналогичных образцов имеет пятиугольную форму, тогда как другой – трапециевидную. Диск с одним выдвинутым краем опирается на три ножки. Информация о местонахождении и происхождении образцов из Центральной Азии пока остается неизвестной (Рис. 3 а, б).

Обнаружены сходные курильницы на территории Ирана, датируемые периодом Сасанидского правления. Один из примеров таких образцов хранится в коллекции Икуо Хираямы в Японии. В аннотации к фотографии, опубликованной в каталоге коллекции, написано следующее: "Ручка в форме крылатого грифона с рогами и львиным зевом закреплена двумя гвоздиками-скобами к краю изящного сосуда. В нижней части чаши имеется два отверстия, предположительно, для крепления ножек, аналогично предметам, найденным в Таксиле" [3, с.40].

Образец из коллекции Хираямы имеет очень близкую композицию к дальверзинскому образцу. Сходство также проявляется в размерах. Единственное различие заключается в том, что на иранском образце изображен грифон, держащий свое тело вертикально. Согласно описанию фотографии, бронзовая курильница для благовоний (в каталоге выставки указана как *Brazier* – лампа-жаровня) относится к периоду (II в. до н.э. – II в. н.э.) правления династии Аршакидов в Иране (рис. 4).

Еще две курильницы с зооморфными ручками, найденные в Иране, расширяют не только количество предметов этого типа, но и информацию о времени их использования. Один из них известен благодаря аукциону, а другой принадлежит Художественному музею Кливленда (*Cleveland Museum of Art*). Согласно источнику, они изготовлены из серебра (хотя по внешнему виду похоже что отлиты из бронзы – *А.У.*). Ручка одной из курильниц выполнена в виде пантеры. Хищник изображен с исключительной точностью и датируется I в. до н.э. – I в. н.э [4].

Второй образец, отлитый из бронзы, был найден в парфянском Иране, вероятно, в Буриджаре, и датируется 100 годом нашей эры [5]. Диск этой курильницы также имеет круглую форму и установлен на триножке, аналогично образцу из Дальверзинтепа. Ручка, прикрепленная к чаше, изображает хищника – гепарда (или леопарда), принадлежащего к семейству кошачьих. В обеих композициях животные изображены стоящими на задних лапах я. Реалистичный внешний виджривотных, изображенных в пропорциональном и анатомически правильном решении, свидетельствует о высоком мастерстве древних парфянских мастеров, создавших их. Благодаря химической очистке, можно разглядеть текстуру пятнистого узора на теле гепарда (рис. 5 а, б).

Известно, что в середине III века до н.э. между независимыми царствами Парфии и Греко-Бактрии, отделявшимися от государства Селевкидов,

развивались торговые и культурные связи. Вышеупомянутые аналогичные художественные образцы еще раз подтверждают, что эти связи были прочными. Государство Сасанидов, образовавшееся после упадка Парфянской империи, завоевало очень большую территорию, включая Согдиану и Бактрию. На обширной территории Узбекистана было найдено большое количество монет, металлических предметов и других артефактов, относящихся к периоду правления Сасанидов. Можно предположить, что новая курильница, найденная на Дальверзинтепе, возможно, была привезена из Ирана или изготовлена местным мастером по иранским образцам. Одним из доказательств этого является простой внешний вид оленя по сравнению с парфянскими образцами.

2020-ci ilin oktyabrın 13-də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Rəssamlıq fakültəsinin müəllim-professor və tələbə heyəti tərəfindən hazırlanan "Qarabağ Azərbaycandır!" plakat sərgisində təqdim olunan plakatlarda müzəffər ordumuza dəstək şüarları təsviri müstəvidə canlandırılıb.

Ümumiyyətlə, 2020-ci illərin Azərbaycan plakatında bir çox innovativ axtarışlar nəzərə çarpır. Plakat janrında çalışan gənc rəssamlar bu sənətinin yeni formalarından istifadə edərək fotomontaj, kompüter qrafikası geniş tətbiq edirlər. Kompüter texnologiyasının inkişafı rəssamlara yeni ifadə vasitələri ilə təmin etdi və bu da öz növbəsində müasir plakat sənətinə böyük təsir göstərdi. Plakatın effektli qalması üçün rəssamlar informasiyanın qavranılmasının incə psixoloji mexanizmləri haqqında biliklərə əsaslanan və tamaşaçıdan intellektual iş tələb edən yeni diqqəti cəlb etmək üsullarını axtarır və istifadə edirlər.

Plakatın dili müxtəlif etnomədəni ənənələrə malik insanlar üçün başa düşüləndir, plakat beynəlxalq və mədəniyyətlərarası ünsiyyətdə, xüsusən müasir şəhər mühitində mühüm əlaqə rolunu oynayır.

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan bu gün. Professional Azərbaycan plakatı (1994-2000). Müşayiət edici mətn T.İ.İbrahimov. Bakı: İncəsənət Mərkəzi, 2002.
2. Quliyev R. Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət. – Bakı – 2013.
3. Əliyev R. Müasir Azərbaycan plakat sənəti // “Elmi əsərlər”, 11 buraxılış. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı, 2011.
4. İbrahimov T. Azərbaycanda plakat sənəti – Bakı – 2004
5. Rüstəmova Z. Müstəqillik dövrü Azərbaycanda plakatın inkişafının bədii xüsusiyyətləri. Bakı Qızlar Universiteti. Elmi əsərlər 2019/1
6. Алиев Р. Тема независимости в творчестве художников – плакатистов Азербайджана // Культура народов Причерноморья – научный журнал (Крымский Научный Центр Национальной Академии наук Украины и Министерства Образования и Науки Украины). Украина, 2011.
7. Алиев Р. XX əsrin 90-cı illərində Azərbaycan plakatını inkişafı // “İncəsənət və Mədəniyyət problemləri», 3-4 (25-26) buraxılış. AMEA-nın Memarlıq və İncəsənət İnstitutu. Bakı, 2008.
8. Гаджиев П. Азербайджанская Советская графика. Баку: изд-во АН Азербайджанской ССР, 1962.
9. Ибрагимов Т.И. Азербайджанский плакат: Автореф. канд. дис. – Ташкент –1992.

**Хаяла Юсифова**

## РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОГО ПЛАКАТНОГО ИСКУССТВА

**Резюме:** Статья посвящена изучению плаката, который представляет собой особую ветвь графического жанра азербайджанского изобразительного искусства. Показано, что в период независимости азербайджанские плакатисты создавали художественные, общественно-политические и патриотические военные плакаты, используя новые формы этого искусства, широко применяя фотомонтаж и компьютерную графику. Чтобы плакат оставался эффективным, художники ищут и используют новые методы привлечения внимания, которые основаны на знании тонких психологических механизмов восприятия информации и требуют от зрителя интеллектуальной работы.

**Ключевые слова:** Азербайджан, плакат, жанр, художник, независимость, развитие, выставка, композиция

**Khayala Yusifova**

# DEVELOPMENT OF AZERBAIJANI POSTER ART

The article is devoted to the study of the poster, which represents a special branch of the graphic genre of Azerbaijani fine art. It is shown that during the period of independence, Azerbaijani poster artists created artistic, socio-political and patriotic military posters using new forms of this art, widely using photomontage and computer graphics. In order for the poster to remain effective, artists seek and use new methods of attracting attention, which are based on knowledge of the subtle psychological mechanisms of information perception and require intellectual work from the viewer.

**Key words:** Azerbaijan, poster, genre, artist, independence, development, exhibition, composition.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.01.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

**УДК 746**
**DOI: 10.52094/3005-9941.45.2024.027**

**Натаван Алиева**
**Диссертант**
**Азербайджанской Государственной Академии Художеств**
**E-mail: natavangallery@gmail.com**

# ХУДОЖЕСТВЕННАЯ ВЫШИВКА – КАК ЦЕНТР ДЕКОРАТИВНОЙ КОМПОЗИЦИИ НАЦИОНАЛЬНОГО ЖЕНСКОГО КОСТЮМА АЗЕРБАЙДЖАНА

**Резюме:** Статья посвящена роди и месту художественной вышивки в декоративном оформлении азербайджанского национального женского костюма. Отмечается, что в азербайджанской народной вышивке сохранился грандиозный пласт древних, геометрических, растительных, зооморфных, антропоморфных, астральных и эпиграфических орнаментальных мотивов, некогда имевших магическое значение и служивших оберегом от злых сил. Художественное оформление вышивок отличалось соблюдением ритма и симметрии композиции, колористического баланса, строящегося на сочетании ярких, мажорных тонов, а также разнообразием орнаментального убранства, состав которых в основном состоял из филигранной вязи растительных орнаментов, богато расшитых медальонов с куполами и т.д.

**Ключевые слова:** вышивка, национальный, женский, костюм, декоративный, композиция, орнамент, колорит

Народный костюм являлся частью традиционного уклада жизни, был органично включен в систему отношений членов сообщества и нес в себе значимую для них информацию. Костюм отражал место проживания человека, принадлежность к определенному обществу, его социальный статус в движении по возрастным стадиям, фиксировал все важные переходные моменты в его жизни (достижение детородного возраста, вступление в брак, рождение детей, вдовство). Основным носителем этой информации выступал орнамент, выполненный с помощью узорного ткачества или вышивки и нанесенный на различные части костюма в строго определенных местах. Именно орнамент нес основную семантическую нагрузку в народном костюме, отражал представления человека об окружающем мире.

В азербайджанской народной вышивке сохранился грандиозный пласт древних, геометрических, растительных, зооморфных, антропоморфных, астральных и эпиграфических орнаментальных мотивов, некогда имевших магическое значение и служивших оберегом от злых сил. С течением времени их семантика практически забылась, орнамент превратился в чисто декоративный элемент, тесно связанный с конструкцией кроя одежды.

Основной декоративной отделкой пышной дорогой одежды женщин на протяжении нескольких столетий была вышивка. Будучи одной из самых распространенных видов декоративно-прикладного искусства, вышивка (узорная вышивка) была распространена во многих городах и селах Азербайджана и в последующие столетия. Женщины и девушки из всех слоев азербайджанского общества в XIX – начале XX века занимались вышивкой. Их работы отличаются подбором цветов, высоким художественным мастерством и национальной оригинальностью.

Средства изображения азербайджанской вышивки, имеющей древнюю традицию, очень богаты и красочны. В число художественных материалов входят разные виды нитей, ткани, бисера и т.д. Однако в прошлом для этой цели широко использовались тонкие нити из золота и серебра, пластины из белой коры и слоновой кости, металлические блёстки и даже драгоценные камни. В сочетании с роскошными тканями: бархатом, шелками они придавали одежде завершенный вид.

Лучшие образцы традиционных вышивок азербайджанцев отличаются исключительным художественным вкусом, непревзойденным мастерством исполнения, изящной цветовой гаммой. Это подлинные шедевры не только национального декоративно-прикладного искусства. Шитье золоченными и серебряными, шелковыми и шерстяными нитями было традиционным ремеслом, насчитывающим несколько веков бытования.

Элитными материалами в украшении женского костюма было золото, серебро и шелк, поэтому их использование было ограничено социальными рамками. На протяжении веков, с развитием государственности, усилением власти, эти материалы становились все более востребованы. Создание и развитие придворного церемониала закрепило за ними статус привилегированности и исключительности. Они стали наравне с драгоценными камнями и жемчугом олицетворять могущество, богатство, силу и власть. Вышивка этими материалами в отдельные эпохи была возведена в ранг государственной важности. Сефевидские, Каджарские правители, а также ханы, которые правили азербайджанскими ханствами с 1840 по 1929 годы, соперничали друг с другом в богатстве декора своих костюмов. Придворные, следуя вкусам монархов, подражали им.

Металл давал чуть больше вариаций в использовании, создавая разновидности материалов. Золото в чистом виде применялось реже (в основном в костюмах монархов и членов их семьи), чаще всего это были серебряные позолоченные нити. Для того, чтобы нить была гибкой, тонкие расплющенные полоски металла наматывались на льняную нить, плотно ее облегая. Серебро, помимо такой же техники, служило основой для создания канители. Тонкая круглая проволока свивалась в тугие пружинки и в таком виде закреплялась на ткани. Из маленьких плоских кусочков металла делали

блестки-пиляк – в основном круглые кружочки с отверстием в центре. Их могли выполнять не только из золота и серебра, но и других металлов.

Серебряные, золоченные нити и канитель встречаются еще в одной детали украшения костюма – в шнурах с кистями на концах, которые имели различную форму тулова: круглую, плоскую, фигурную. Такие басонные изделия украшали концы поясов – плетенных шнуров, вправленных во вздёржку поясной одежды как мужчин, так и женщин.

Шелк в вышивке чаще всего применяли некрученый. Его ровная поверхность обладала способностью отражать свет, придавала нитям особый блеск. Крученый шелк имел более толстую нить, она была шершавой, матовой. Синель – пушистую шелковую нить использовали для создания ворсистой поверхности, которая чуть приподнималась над фоном, имитируя невысокий рельеф. Шелковые нити также скручивали в шнур для обводки контуров узора.

Золото, серебро и шелк были известны в Азербайджане на протяжении столетий, но с периода правления Сефевидов вплоть до XIX века включительно к этим материалам стали обращаться более активно и разнообразно. Стилистические особенности той или иной эпохи накладывали свой отпечаток в их предпочтении или комбинации друг с другом. Следует отметить, что вышивка из золота, серебра и шелка в декоре костюма никогда не покрывала ткани одежды целиком, так, чтобы не было видно фона. Подобная вышивка покрывала, как правило, пушистый бархат, гладкий атлас, шелковые узорные ткани, отливающую металлическим блеском парчу.

Техники, которые применялись в вышивке для украшения костюма на протяжении веков, можно разделить на два основных типа: плоские – «зяминдузи» и выпуклые – «мялихедуз». Причем ими могли пользоваться как в шитье металлическими нитями, так и шелковыми.

К числу плоских относится техника, в которой могли использовать шелковые, золоченные и серебряные нити, была гладь. Пожалуй, по временному диапазону, к ней обращались дольше всех, на протяжении многих веков, включая XIX столетие. Этот метод использовался для достижения более реалистичных изображений при создании сложных композиций. Вышивка этого типа привлекает внимание своим деликатным выбором цветов. Они использовали бледные, пастельные тона при шитье узкими узорами. Таким образом, они украшали разные виды тканей – шерсть, махуд, шелк и лен.

Техника этой вышивки выполнялась по готовому рисунку, наложенному на ткань. Плоско положенные на поверхности ткани стежками прямо по ткани зашивались отдельные детали узора. Они были ограничены по цветному пятну только одним оттенком, и имели четкие границы. Первый слой вышивки делался простыми желтыми нитями, служившими основой для золотых нитей, которые накладывались в горизонтальном направлении на рисунок и

стягивались по контурам орнамента шелковыми нитями, подобранными в тон золотых нитей и также составляющие рисунок контура чередованием определенных стежков. Также мастерица создавала различные узоры на самом рисунке благодаря нитям прикрепа, что придавало узорам большее художественное значение. Это были всевозможные ромбики, зигзаги, квадратики, косые линии, а кайма составлялась из шахматных или меандровых узоров. Этот вид вышивки особенно был распространен в Тебризе, Баку, Нахчыван и Шемахе. Эту технику любили использовать для украшения светского костюма. Вышивка обрамляла полочки, располагалась на рукавах, манжетах, подоле плечевой и поясной одежды, а также головных уборах – арахчынах, в виде цветочков, разбросанных по полотнищу ткани.

Золоченные нити, которыми вышивали в технике глади, также плоско стелились по поверхности тканей, образуя блестящие островки из нитей. Иногда они были чуть приподняты над фоном благодаря тонкой подложке из картона или кусочка ткани. Так удобнее было добиться ровной блестящей поверхности. Интересные сочетания давало чередование в одном изделии шелка и золоченных нитей, вышитых гладью, в одинаковой технике. Эффект был один – отражение света как от металлической поверхности, так и от зашитой некручёным шелком – блеск и сияние.

Вышивка гладью осуществлялась двумя способами: односторонней – «уз долдурма» и двусторонней гладью – «ортмя нахыш». Односторонняя гладь выполнялась различными способами. В одном случае прямые стежки плотными рядами заполняли поверхность вышиваемого узора. Второй вариант выполнялся перекрещивающимися швами, в результате чего поверхность вышивки декорировалась дополнительным узором.

Гладью вышит арахчын, датируемый концом XIX века и выполненный в Шуше. Арахчын сшит из цветной бязи, на которой посредством золотых нитей нанесен узор в виде концентрического круга. От круга отходят лучами, представленные в виде стоящими встык ромбами, которые чередуются с каплевидными элементами. Оба орнаментальных мотива декорированы зигзаговыми краями, которые по мнению искусствоведа С.Садыховой символизируют солнце, а ромбы олицетворяют плодородие, жизненное благо и имеют охранные функции [7, с.29].

Эта композиция вписана в каймовое кольцо, декорированное ковровым узором «моллабаши», выполненным пайетками – пиляк.

Костюм азербайджанской женщины XVIII века завершался рубендом – покрывалом на лицо, которое одевали все женщины, выйдя на улицу. Являясь атрибутом внешней одежды, рубенд богато расшивался по всей плоскости. Он был прямоугольной формы, а место для глаз состояло из сеточки, шитой из конских волос. Рубенд XVIII века из города Гянджи представляет собой вышивку гладью шелковыми нитями. Орнаментальный состав вышивки

соответствует ковровой орнаментации Гянджа-Казахской группы, которой свойственны преобладание геометрических форм и стилизованных зооморфных мотивов. На рубенде вышиты стилизованные птички и стилизованные изображения баранов, обращенных друг к другу. Рубенд обрамляет косая бейка, шитая из ткани тирме.

В музеях Азербайджана хранится большое количество элементов национальной одежды, украшенных богатой вышивкой, исполненной в технике гладь. Так, при выполнении вышивки гладью – «ортмя», использовались как шелковые, так и шерстяные нити. При выполнении этой техники художественного шитья, наносящиеся на поверхность ткани стежки, полностью заполняли пространство выбранного рисунка. Как правило, чаще всего использовали нити пастельных тонов, умело сочетая их с золотым шитьем. Тому примером может служить рубенд – покрывало для лица, носимый женщинами при выходе на улицу. Созданный в Гяндже в начале XIX века, рубенд шит из мадаполама – хлопчатобумажной ткани полотняного плетения и украшен мелким узором, выполненным гладью.

Еще одним примером использования этого вида техники является головной платок орпек из коллекции Азербайджанского Национального Музея ковра. Датируемый XIX веком крупный платок, выполненный из светлого шелка, украшен контурной вышивкой гладью и пайетками – пиляк.

Как отмечает искусствовед Ш.Меликова, подобная «*отделка выполнена во многом в традициях оформления таких головных уборов, сформировавшихся еще в Средневековье. Некоторые орпеки, особенно из плотных и очень дорогих тканей, богато расшивали золотом и серебром и даже украшали самоцветами. Здесь же ввиду тонкости материала (и, скорее всего, скромных доходов владелицы) в роли золотошвейной вышивки выступает цветная гладь – ортма, а в роли самоцветов – пайетки-пиляк. Да и уровень исполнения орнамента по уровню уступает профессиональным работам из вышивальных мастерских, являясь, тем не менее, аккуратным. Тонкий, нежный ажурный орнамент в виде вьющихся веточек заполняет все поле между центральным круглым медальоном, напоминающим солнце с лучами из бутов, и каймой, образованными теми же бутами. В углы платка среди веточек фона вписаны пышные пальметты. Все вместе создает нежный декор предмета, принадлежащего, судя по цвету, молодой девушке или женщине, и, возможно, собственноручно изготовленного ею*» [5, с.202].

В рельефных техниках использовали как золоченные и серебряные нити, так и шелковые. На ткань фона под нити, которым вышивался узор, подводили подложки. Они могли быть из толстых льняных нитей, уложенных слоями друг на друга, из кусочков грубого холста или картона, также размещенных в несколько слоев. Сверху их покрывали вышивкой нитями, также размещенных в несколько слоев. Сверху их покрывали вышивкой нитями, которые могли

укладывать по-разному: равномерно закрывая подложки нитями, получали гладкую поверхность, а чередуя через интервалы «прикреп», который создавал геометрические узоры, добивались игры фактуры на выпуклой поверхности. Когда использовали серебряные или золоченные нити, объемные формы узора, особенно в высоком рельефе, получали дополнительную игру бликов и сияния. Контур деталей иногда обводили шнуром, чтобы подчеркнуть рельеф.

«*Вышивка, украшающая одежду, выполнялась вокруг горловины, по плечам и по краю одежды, на рукавах, передних и задних полочках – композиция зависела от типа одежды и ее назначения. Орнамент этих вышивок в основном составляла филигранная вязь растительных мотивов, богато расшитые медальоны и т.д.*» [5, с.18].

Золотошвейное шитье достигло высочайшего уровня своего развития в сефевидском Тебризе. Изделия, выполненные в данной технике, являлись драгоценными подарками. Тому примером, роскошно вышитый золотом и серебром халат – аба, который был преподнесен турецкому султану Мураду III и до сих пор хранится в Стамбульском музее Топгапы как уникальный пример ткачества и золотошвейного искусства [1, с.60].

Согласно существующему в тот период принципу декорирования одежды, эта аба был богато расшита стилизованным растительным орнаментом, филигранный узором, расстилающимся у ворота, плеч и рукавов. Золотошвейная вышивка широкой каймой опоясывает сшитый из зеленого бархата халат по периметру и на рукавах сложным геометризованным растительным орнаментом. Эффектным завершением композиции является ажурный продолговатый фестончатый медальон, расположенный на задней полочке халата, по своему внутреннему оформлению сочетающийся с орнаментами каймы изделия. Подобный пример вышивального искусства свидетельствует о тесных связях всех видов декоративного искусства, базирующихся на единой системе орнаментального и композиционного состава. «*Медальонная композиция является классическим проявлением восточной культуры, своими корнями восходящая к искусству украшения книг. Ведь не секрет, что самым священным на Востоке считались книги, которые богато декорировались, производились из дорогих материалов и хранились как святыни. Впервые медальонная композиция была создана для украшения титульного листа книги профессиональными художниками-орнаменталистами, которые в свою очередь создавали эскизы для других видов декоративного искусства. Таким образом, медальонные композиции появились в ковроткачестве и соответственно на тканях и вышивках*» [6, с.403].

Итак, художественное оформление вышивок отличалось соблюдением ритма и симметрии композиции, колористического баланса, строящегося на сочетании ярких, мажорных тонов, а также разнообразием орнаментального

убранства, состав которых в основном состоял из филигранной вязи растительных орнаментов, богато расшитых медальонов с куполами и т.д.

**Литература:**

1. Əfəndi, R. Azərbaycan incəsənəti / R.Əfəndi – Bakı: Çaşıoğlu – 2001 – 247 s.
2. Əliyeva, G.M. Azərbaycanın bədii parça və tikmələri (XIX-XX əsrlər) / G.M.Əliyeva – Bakı: Elm – 1990 – 186 s.
3. Əzizbəyova, P.Ə. Azərbaycan tikmələri / P.Q.Əzizbəyova – M. – 1971 –105 s.
4. Гулиев, Г.А. Азербайджанские вышивки // С Э. – Москва –1959, №2.
5. Məlikova, Ş.Y. Azərbaycan Xalça Muzeyi kolleksiyasından bədii tikmələr. / Ş.Y.Məlikova – Bakı – 2017 – 210 s.
6. Меликова, Ш.Я. Ковровый орнамент на средневековых тканях Азербайджана // Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu. Elmi axtarışlar – Bakı – 2005, № XIII. – с.401-404.
7. Садыхова, С.Ю. Азербайджанский костюм XIX века / С.Ю.Садыхова – Баку: Элм – 2007 – 192 с.

**Natavan Əliyeva**

## BƏDİİ TİKMƏ – AZƏRBAYCAN MİLLİ QADIN GEYİMİNİN DEKORATİV KOMPOZİSİYANIN MƏRKƏZİ KİMİ

**Xülasə:** Məqalə Azərbaycan milli qadın geyiminin dekorativ tərtibatında bədii tikmənin mənşəyinə və yerinə həsr edilmişdir. Bildirilir ki, Azərbaycan xalq tikmələrində vaxtilə sehrli əhəmiyyət kəsb edən və şər qüvvələrə qarşı tilsim rolunu oynayan qədim, həndəsi, bitki, zoomorf, antropomorf, astral və epiqrafik ornamental motivlərin möhtəşəm təbəqəsi qorunub saxlanılıb. Tikmələrin bədii tərtibatı kompozisiyanın ritm və simmetriyasına riayət olunması, parlaq, əsas tonların vəhdəti üzərində qurulmuş koloristik tarazlıq, eləcə də tərkibi əsasən, filiqrandan ibarət olan müxtəlif ornamental bəzəklərlə seçilirdi. Nəbati ornamentlərin liqaturası, günbəzli zəngin naxışlı medalyonlar və s.

**Açar sözlər:** tikmə, milli, qadın, kostyum, dekorativ, kompozisiya, ornament, rəng

**Natavan Aliyeva**

## ARTİSTİC EMBROİDERY - AS THE CENTER OF A DECORATİVE COMPOSİTİON NATİONAL WOMEN'S COSTUME OF AZERBAİJAN

**Summary:** The article is devoted to the origin and place of artistic embroidery in the decorative design of the Azerbaijani national women's costume. It is noted that in Azerbaijani folk embroidery a grandiose layer of ancient, geometric, plant, zoomorphic, anthropomorphic, astral and epigraphic ornamental motifs have been preserved, which once had magical significance and served as a talisman against evil

forces. The artistic design of the embroideries was distinguished by the observance of the rhythm and symmetry of the composition, coloristic balance, built on a combination of bright, major tones, as well as a variety of ornamental decoration, the composition of which mainly consisted of filigree ligature of floral ornaments, richly embroidered medallions with domes, etc.

**Key words:** embroidery, national, women's, costume, decorative, composition, ornament, color.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.02.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

**UOT 747.**
**DOI: 10.52094/3005-9941.45.2024.027**

**Nərgiz Novruz qızı Quliyeva**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**E-mail: naraazizova@yahoo.com**

# YENİ TEXNOLOGİYALARIN MUSİQİLİ TAMAŞALARIN SƏHNƏQRAFİYASINDA ƏHƏMİYYƏTİ

**Xülasə:** Məqalədə musiqili teatr tamaşalarının strukturunda səhnəqrafiyanın yeri və əhəmiyyətindən söz açılır, opera və balet tamaşalarının səhnə tərtibatlarının özəllikləri haqda məlumat verilir. Qeyd olunur ki, müasir teatr bu gün müasir mədəniyyətin qloballaşmasının qarşısına qoyduğu əsas vəzifələrdən birini – yüksək texnologiyalı sivilizasiyanı və onda ənənəvi mədəniyyət formalarının birgə mövcudluğunu birləşdirmək zərurətini həll etməyə məcburdur. Müasir bədii məkanda informasiya (multimedia, proyeksiya, audiovizual) texnologiyalarının inkişafı çox dinamikdir, onlara sənətin bir çox növləri tərəfindən tələbat yaranır. Yeni texnologiyalar daha çox vizual obrazların yaradılmasına yönəlib, ona görə də onların səhnəqrafiyada istifadəsi tamaşanın yaradılmasının ideya, eskiz, maketdən tutmuş dekorasiyanın yaradılmasına qədər universallaşdırılması nöqteyi-nəzərindən əsaslandırılır. Vurğulanır ki, yeni texnologiyalar tamaşanın bədii ifadəliliyinə nail olmaq üçün vasitələrin çeşidini əhəmiyyətli dərəcədə genişləndirməyə imkan verir.

**Açar sözlər:** teatr, səhnəqrafiya, tamaşa, opera, balet, rəssam, texnologiya, bədii tərtibat

"Səhnəqrafiya" teatr əsərinin əsas məqamlarından biridir – tamaşanın məkan həllidir. Tamaşanın strukturunda səhnə qrafikasının əhəmiyyəti daha genişdir, çünki səhnədə təsvir olunanlar, ilk növbədə, müəyyən məkan mühitində aktyorun plastikliyinin mizan-səhnə rəsminin inkişafıdır. Bundan əlavə, dekorativ sənət tarixi əsasən rəssamların eskiz materialının öyrənilməsi ilə yaradılırsa, səhnə qrafikası tamaşanın bütün məkan şərhinə, teatr obrazının vizual əhəmiyyətini təşkil edən hər şeyə yönəlməlidir.

Müasir səhnəqrafiya bir sənət kimi uzun tarixi təkamül nəticəsində formalaşmışdır. Buraya teatr tamaşasının bütün maddi və görünən hissəsi, eləcə də bütün fəaliyyət boyu aktyoru əhatə edən hər şey daxildir: rekvizitlər, qrim, kostyumlar. Səhnəqrafiya sənəti müxtəlif ifadə vasitələrindən istifadə edir. Bu, real dünya, sənət dünyası (maskalar, geyimlər, əşyalar), dekorasiya (qrafika, heykəltəraşlıq, rəsm), eləcə də səhnə məkanı, səhnə işığı kimi konkret teatr elementləri ola bilər.

Əgər əvvəllər teatrşünaslıq quruluşçu rəssamların işini müəyyən dərəcədə dramaturqdan və aktyorlarla rejissordan sonra dayanan ikinci dərəcəli hadisə hesab edirdisə, indi rəssamlar tamaşanın tam həmmüəllifi ola bilirlər. Onlar tamaşalara

xüsusi özəllik bəxş etməyə çalışırlar ki, bu da pərdə arxasında və ya tamaşaçı qarşısında mənzərəni dəyişə bilən xüsusi səhnə mexanizmlərinin işləməsini tələb edir. Bu, xüsusi kulis sistemi, fırlanan səhnə və ya səhnə avadanlıqlarının vurğulanmış ifşası ola bilər. Məkanın uğurlu təşkili tamaşanın uğurunun ən vacib komponentlərindən biridir.

Hər bir musiqili tamaşada – opera, balet, həmçinin musiqili komediya və operettada işıq partiturası təkcə təsvir effektləri saxlamaqla kifayətlənməməli, ümumi koloritin, şəkilin "əhval-ruhiyyəsi"nin yaranmasına imkan yaratmalıdır. Özü də o, musiqiyə tam uyğun dəyişməli, musiqi partiturasına həmahəng olmalıdır. Tamaşadakı bədii işıqlandırma və səs tərtibatı müəlliflərdən və iştirakçılardan təkcə məsələlərin məğzini anlamağa deyil, səhnədə əks olunacaq şəklə səmimi və həyəcanlı münasibət tələb edir.

Hələ tamaşanın hadisələri başlamamış, pərdə qalxmamışdan əvvəl tamaşaçını həyəcanlandıran parlaq bədii obrazların yaranması tamaşanın səs tərtibatı və işıqlandırılma ilə yaradılır. "*Vahid bir ideya arxasınca gedən kollektivdə çıxış edərkən rəssamın yaradıcılığı bütün yaradıcı kollektivin tərkib hissəsindən biri olur. Burada söhbət yalnız səhnədə olan dekorasiyadan və ya kostyumdan, hər hansı bir aktyorun qrimindən və ya rejissor ilə birlikdə seçilən naturadan getmir, bunlar hamısı kollektivin birgə əməyinin nəticəsidir. Burada söhbət rəssamın rejissorla, aktyorla, bəstəkarla və başqaları ilə birlikdə kompozisiya üzərində apardığı axtarışlardan gedir"* [126].

Opera və nəticədə opera tamaşasının səhnəqrafiyası ənənə baxımından daha çevikdir. Belə ki, işin çox hissəsi təsirli, möhtəşəm dinamik sıranın yaradılmasına yönəlib. Opera teatrında incəsənətin sintezi musiqi materialı əsasında baş verir. Tamaşanın quruluşunda standart, tanış texnikalardan uzaqlaşmaq olduqca çətindir. Tamaşanın vizual dizaynının inkişafı ilə ənənəvi (təbii, konstruktiv, mənzərəli, qrafik) dizayn həllinə maraq eyni zamanda artır. Bu mənada səhnə rəssamları milli teatrda bir çox nəsillər boyu formalaşmış mədəni ənənələrin əsasını qoruyub saxlayırlar. Quruluşçular teatrı cəmiyyətin mənəvi ünsiyyət forması kimi aktuallaşdırmaqda davam edirlər.

Balet məsələsində ən maraqlı fakt budur ki, səhnəqrafiyanın real həlli ənənəsini rəssamlar klassik tamaşalara yaxın olan müasir tamaşalarda, həm aydın ifadə olunmuş süjeti, həm də xoreoqrafik dili vasitəsi ilə istifadə edirlər. Ənənəyə riayət etmək, balet tamaşasının stilistik dəyərini qorumaq üçün dizaynın ənənəvi estetikasına riayət etmək daxili ehtiyacdan irəli gəlir.

Rəssamın xoreoqrafik tamaşa üzərindəki işində başlanğıc nöqtəsi musiqiyə arxalanaraq əsərin dramaturgiyasını plastik obrazlarda müəyyən etməyə və açmağa çalışan xoreoqrafın ideyasıdır. Rəssam isə öz sənəti ilə buna töhfə verməyə çağırılır. O, dramaturq (libretto müəllifi), baletmeyster, bəstəkarla həmfikirdir və xoreoqrafik əsərin doğulması yaradıcılıq prosesində fəal iştirak edir.

Lakin yaradıcılığın əsas, hər şeyi müəyyən edən mənbəyi həyat təəssüratları, müşahidələr, nəticələrdir. Həyatı öyrənməklə teatr rəssamı öz yaradıcılığı üçün material toplayır. Bu material nə qədər zəngin olarsa, müşahidə dairəsi nə qədər geniş olarsa, sənətkar nə qədər dərin düşünürsə, onun səhnədə uğur qazanma ehtimalı bir o qədər çox olar, hər bir dramatik və musiqi əsərinin özünəməxsusluğunu bir o qədər aydın və dəqiq hiss edərsə, o, müxtəlif rejissorlarla daha yaxşı əməkdaşlıq edər.

Xoreoqrafik əsərin bədii tərtibatının keyfiyyətinin qiymətləndirilməsinin əsas meyarları bunlardır: effektivlik, musiqililik və rəqs sənətinin şərtlərinə uyğunluq. Balet tamaşalarının müasir bədii tərtibatı köhnə balet tərtibatlardan bir çox cəhətdən fərqlənir. Buna müxtəlif işıqlandırma avadanlıqları, kostyumlar üçün müxtəlif parçalar, dekorasiya yaradarkən yeni texnologiyalardan istifadə və daha çox şey kömək edir.

Teatr səhnəqrafiyasında XX əsr texnoloji sistemlərin tətbiqi ilə yadda qaldı. Müasir səhnəqrafiyanın inkişafına yeni informasiya texnologiyalarının nailiyyətləri şərait yaratmışdır ki, bu da səhnəqrafiya həllərində yeni bədii sintez yaratmağa imkan verir. Bu gün dominant ifadə vasitələri işıqlandırma dizaynı, kompüter sistemləri tərəfindən idarə olunan müxtəlif ekranların və video proyeksiyaların istifadəsidir. Bu vasitələr sayəsində səhnə hərəkəti zamanı zəruri olan müəyyən bir atmosfer yaranır. Dinamik rəng və işıq partiturası bizə bədii obrazın emosional və semantik strukturunun ən incə çalarlarını izləməyə imkan verir. Amma bu cür yaradıcı iş səhnə meydançasının müvafiq texniki təchizatını tələb edir. Beləliklə, bu gün yeni texnologiyalar teatrın bir sənət növü kimi inkişafına böyük təsir göstərir: unikal tamaşa formaları, yeni teatr ixtisasları, istehsal və teatr üçün spesifik texnologiyalar yaranır.

Elm teatrı yeni nailiyyətlərlə təmin etmişdir: LED displeylər, kiçik zallar üçün uyğunlaşdırılmış mobil proyeksiya displeyləri, dartma proyeksiya ekranları, plazma panellər, LED matrislər, duman ekranı, interaktiv döşəmə, interaktiv şüşə, video proyeksiya. Bu nailiyyətlər quruluşçu rəssama bədii obrazın yaradılması prosesini və dekorasiya üçün konstruktiv həlləri üzvi şəkildə birləşdirərək öz fəaliyyətinin yaradıcı və texniki hissələrini sintez etməyə imkan verir.

Səhnə kompozisiyasının işlənməsi və qurulmasında yeni texnologiyalar məkan mühitinin bütövlüyünü yaratmağa imkan verir.

Səhnənin yeni məkan mühiti obrazın yaradılması, dekorasiyanın qurulması və yaradıcı şəkildə dərk edilməsi üçün zəruri xüsusiyyətlərə malikdir. Məhz – dinamizm, bütövlük, həcmli-məkan quruluşu yaratmaq bacarığı, dəyişkənlik. Təkcə tamaşanın forması deyil, həm də rəngkarlığı təqlid edən dekorasiya, parçalar, müxtəlif fakturalar, məsələn, metal, daş, qar və s. yaratmaq dəyişdi. Tam rəngli çap və dekorativ rəsmlərin ekranlara proyeksiyası təsvirin rənglərinin və müəllifin dəst-xəttinin çatdırılmasında quruluşçu rəssamın eskizlərinə ən çox uyğun gələn dekorasiyalar hazırlamağa imkan verir. Yeni texnologiyalar tamaşanın bədii

ifadəliliyinə nail olmaq üçün vasitələrin çeşidini əhəmiyyətli dərəcədə genişləndirməyə imkan verir. Məhz buna görə də səhnədə keyfiyyətcə yeni məkanın yaradılması ilə əlaqədar olaraq, yeni səhnəqrafiya növünün məkan səhnəqrafiyası adlandırılması təklif olunur. Görünür, bu ad və termin səhnəqrafiyada yeni bir hadisənin mahiyyətini ən doğru şəkildə əks etdirir.

Müasir tamaşalarda video proyeksiyalardan, multimedia ekranlı elektron dəstlərdən, bir çox xüsusi işıqlandırma effektlərindən, LED kostyumlarından, konstruktiv elementlərdən və uzaqdan idarə olunan səhnələrdən geniş istifadə olunur. Bu gün kompüter qrafikası geniş yayılmış səhnəqrafiyaçıların alətinə çevrilmişdir. İndiki vizual dövrdə teatrda qabaqcıl texnologiyadan istifadə səhnəqrafiyada çox geniş yayılmışdır. Yeni informasiya proqramları kompüter məkanında səhnədə virtual aktyorların, dekorasiya elementlərinin, interyerlərin və digər obyektlərin göründüyü bir əsərin eskizini yaratmağa imkan verir. Səhnə məkanının belə modelləşdirilməsində səhnə hərəkətinin baş verəcəyi potensial mərhələ mənimsənilir ki, burada rejissor mizanssenanın kompozisiya strukturunu saniyələrə qədər dəqiqliklə canlandıra bilir.

Bu mürəkkəb məsələnin həlli teatrın ən müasir kompüter avadanlığı ilə komplektləşdirilmiş texniki təchizatından asılıdır. Kompüterləşdirmə ilə əlaqədar müasir musiqili teatrın işıqlandırma sistemi vahid effektivliyə malikdir. Teatr prosesində ən çətin məsələlərdən biri kompüteri idarə etmək, müxtəlif proqramların istifadəsi zamanı mürəkkəb işıqlandırma partituraların tərtib edilməsi, müasir təfəkkürə və dünyagörüşünə malik tamamilə yeni kadrların tərbiyəsini tələb edir. Hər bir teatr tamaşasının ifadə vasitələrini genişləndirən müasir işıqlandırma sistemləri, lazer qurğuları və s. kifayət qədər hiss olunacaq dərəcədə tamaşanın həm vizual, həm də estetik səviyyəsini gücləndirir. Bundan əlavə bu, rəssamın ideyasını daha qabarıq və yığcam əks etdirməyə, tərtibatın çətinliklərini aradan götürərək lazımi maddi-texniki bazadan daha effektiv istifadə etməyə kömək edir.

Qeyd etmək lazımdır ki, ötən illərin teatr sistemində səsyazma faktoru köməkçi xarakter, müəyyən mənada illüstrativ xarakter daşıyırdı və tamaşaçını mənəvi cəhətdən hazırlayırdı. Lakin, müasirliyin tələblərinə cavab verərək, bu məsələdə əsərin ideya-obrazlı məzmununun daha uğurlu qavranılmasına səbəb olan, müəyyən əhval-ruhiyyə yarada bilən köklü dəyişikliklər aparılmalıdır. Bundan çıxış edərək səsyazma qurğuları da estetik, psixoloji, bədii və ideoloji meyarlarla ölçülməlidir.

Dəyişkən dekorasiya və konstruksiya avadanlığı ancaq iri teatr binalarında istifadə oluna bilər, çünki bu avadanlığın işlənmə prinsipi sadə olduğu qədər mürəkkəbdir. Onun sadəliyi ondadır ki, səhnənin kənarlarında qısa müddətdə (təxminən 30-45 saniyə ərzində) qurulan dekorasiyalar hərəkət edən müstəvilər vasitəsilə səhnəyə gətirilir və qurulur. Səhnədən yığışdırılan əvvəlki aktların dekorasiyaları sökülür və yeniləri yığılır. Ehtiyatda olan bu dekorasiya məkanı

lazımi anda səhnədə olanı əvəz edir. Çətinlik avadanlığın mühəndis həllində və onun səhnə arxasında olan meydançalarda quraşdırılmasındadır. Bu kimi avadanlığın quraşdırılması teatr prosesini stimullaşdıra bilər, çünki o zaman o, zaman-məkan bağlılığının parametrlərini genişləndirməyə və səhnə imkanlarının yeni perspektivlərini açmağa imkan yaradar. Əslində elə onlar səhnə texnikasının əlverişli iş əmsalının əsas vahidləridir. Sonuncu məhsul, yəni yeni tamaşanın ən vacib dəyərləndirici faktoru – tamaşaçının teatr sənətinin təsirinə bağlılıqdır.

Qeyd etmək lazımdır ki, əgər rəssam əsas ifadə vasitələrindən biri olan işıqdan istifadə edə bilmirsə, hətta ən maraqlı dekorasiyalar tamaşaçı tərəfindən qavranılmayacaqlar. Lakin səhnə işığının funksiyaları bu və ya digər dekorasiyanı ifadəli təqdimatı ilə məhdudlaşmır. Peşəkar rəssamın əlində işıq teatr obrazının həlledici komponenti ola bilər.

Bilavasitə texnika ilə bağlı olan proyeksiya dekorasiyasının istifadəsi isə proyeksiya avadanlığının təchizatından və ekran materiallarının keyfiyyətindən asılıdır. Lakin çox zaman hər hansı bir həcmli dekorasiyanı əvəz edə bilər.

Teatr sənətinin vizual tərəfinin əsas tərkib hissələri olan dekorun və səhnə konstruksiyalarının primitivliyi və kobudluğu bir çox teatr tamaşalarının ifadəliliyinə mənfi təsir göstərə bilər. Köhnə texnologiya ilə ənənəvi material əsasında hazırlanan dekorasiyalar çox zaman müasirliyin tələblərinə cavab vermir. Daşıyıcı konstruksiyalar, iri masştablı qurmaların və estetik elementlərin bir araya gətirilməsi çox ifadəli və təsirli vizual görünüşün meydana gəlməsinə gətirib çıxardı ki, onun bir çox imkanları onun istifadəsi nəticəsində açılır. Buna bənzər tərtibat işi bilavasitə rəssamın iştirakı ilə keçirilir. Tamaşanın obrazının dolğunluğu və keyfiyyəti teatrın rəqiblik qabiliyyətinin yüksəlməsinə gətirib çıxarır.

XXI əsrdə səhnəqrafiya sənəti haqda təəssüratlar çox dəyişdi. Səhnə məkanının innovativ dizayn mərhələsi kimi səciyyələndirilə bilən yeni inkişaf mərhələsindədir. Müasir qloballaşma prosesi teatr formalarının ənənəvi stereotiplərini məhv edir. "Əgər XX əsrin əvvəllərində səhnəqrafiya yaradıcılığının meyarı ətraf mühitə adekvat münasibət, süjetin ehtimal etdiyi inandırıcılıq idisə, XX əsrin ortalarında səhnəqrafiya həllərinin kameralığı, real həyati təsvir getdikcə öz yerini metafizik plana verir, buna görə də teatr səhnəqrafiyasının şərtiliyinə, bu məkana redi-meyd obyektlər, instalyasiya, eyvaroment, aksiya və digər formalar kimi bədii yaradıcılıq növlərinin daxil edilməsinə maraq yaranır. Bu problemin səhnəqrafiya həllərində bədii sintezi görməyə imkan verən yeni texnologiyalar kömək edir" [2].

Müasir teatr bu gün müasir mədəniyyətin qloballaşmasının qarşısına qoyduğu əsas vəzifələrdən birini – yüksək texnologiyalı sivilizasiyanı və onda ənənəvi mədəniyyət formalarının birgə mövcudluğunu birləşdirmək zərurətini həll etməyə məcburdur. Müasir bədii məkanda informasiya (multimedia, proyeksiya, audiovizual) texnologiyalarının inkişafı çox dinamikdir, onlara sənətin bir çox

növləri tərəfindən tələbat yaranır. Yeni texnologiyalar daha çox vizual obrazların yaradılmasına yönəlib, ona görə də onların səhnəqrafiyada istifadəsi tamaşanın yaradılmasının ideya, eskiz, maketdən tutmuş dekorasiyanın yaradılmasına qədər universallaşdırılması nöqteyi-nəzərindən əsaslandırılır.

Hal-hazırda, tamaşa tərtibatçılarına proyeksiya cihazları, səs sistemləri, video görüntülər və işıqlandırma sistemləri kimi texnoloji avadanlıqların böyük seçimi təklif olunur. "Proyeksiya" səhnəqrafiyasında vizual eskizlər yaratmaq üçün proqramların geniş seçimi var. Bu gün teatr quruluşçuları səhnəqrafiyanın "media"sı ilə tamaşaçı marağını qazanmağa üstünlük verirlər. Rəssamlar öz dekorasiyalarında müxtəlif texniki, interaktiv ifadə vasitələrindən istifadə edirlər ki, bu da çox vaxt kompozisiyanı müstəqil sənət əsərinə çevirir. Belə dekorasiyalar tamaşada aktyorlardan ayrı ola bilər.

Səhnə geyimlərinə gəldikdə isə teatr sənəti üçün bu məsələ heç vaxt problematik olmayıb, bunu çoxsaylı fotosənədlər, təsviri sənət əsərləri, eskiz cızmaları təsdiq edir. Hazırda kostyumların hazırlanması zamanı daha çox keyfiyyət və səlisliyi ilə seçilən, bəzi hallarda isə təbii mallardan üstün olan sintetik materiallara müraciət olunur. Variantlar kifayət qədərdir: yuxarıda qeyd edildiyi kimi, teatr şəbəkəsinin müvafiq modellərindən çıxış edərək uyğun olduqları seçmək olar. Təbii ki, nadir əl işi də istisna deyil – tamaşanın bədii həlli bunu tələb edirsə, teatr öz imkanları daxilində bu problemi həll etməlidir.

Yuxarıda qeyd olunan problemlərin teatr prosesinin inkişafına və təkmilləşməsinə təsirini sübut etməyə ehtiyac yoxdur. Bazar iqtisadiyyatının baza tələblərinə cavab verən hər bir başqa proseslərin nəticələrinə və bu şərtlərin təsir gücünə diqqət yetirməyə kifayətdir. Teatr sənətinin bu istiqamətdə aparılan müasir modernləşdirilməsi onun üzvi xarakterinin bərpası deməkdir, çünki teatr prosesinin institusiya mənbələri məhz bazar iqtisadiyyatı ilə bağlıdır.

**Ədəbiyyat siyahısı:**

1. Астафьева Т.Ф. Сценография музыкального спектакля – Санкт-Петербург: Композитор-Санкт-Петербург, 2003.
2. Астафьева Т.Ф. Современное театральное искусство как новая форма творческих отношений // Проблемы образования, науки и культуры. 2010. №6(85).
3. Булгаров А.Е. Новая сценография музыкального театра – Барнаул,
4. Карпенко В.Н., Карпенко И.А., Татаринцев А.Ю. Сценографическое решение как составная часть художественного хореографического решения // Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики – Тамбов: Грамота, 2016, №3(65), с.68-71.
5. Рындин В.Ф. Как создается художественное оформление спектакля – М.: Изд-во Академии Художеств СССР, 1962, 37 с.

6. Рындин В.Ф. Художник и театр – М.: ВТО, 1966.
7. Шеповалов В.М. Сценография – пространственное решение спектакля.
8. Шифрин Н.А. Художник в театре – Л.: Художник РСФСР, 1964.
9. www.audiovisual.az/files/file/Mayis-REFERAT.pdf

**Наргиз Новруз кызы Кулиева**

## ЗНАЧЕНИЕ НОВЫХ ТЕХНОЛОГИЙ В СЦЕНОГРАФИИ МУЗЫКАЛЬНЫХ СПЕКТАКЛЕЙ

**Резюме:** В статье говорится о месте и значении сценографии в структуре спектаклей музыкального театра, а также приводятся сведения об особенностях сценического оформления оперных и балетных спектаклей. Отмечается, что современный театр сегодня вынужден решать одну из главных задач глобализации современной культуры – необходимость объединения высокотехнологичной цивилизации и сосуществования в ней традиционных культурных форм. Развитие информационных (мультимедийных, проекционных, аудиовизуальных) технологий в современном художественном пространстве очень динамично, они востребованы многими видами искусства. Новые технологии в большей степени ориентированы на создание визуальных образов, поэтому их использование в сценографии оправдано с точки зрения универсализации создания спектакля от идеи, эскиза, модели до создания декораций. Подчеркивается, что новые технологии позволяют существенно расширить спектр средств достижения художественной выразительности пьесы.

**Ключевые слова:** театр, сценография, спектакль, опера, балет, художник, технология, художественный замысел

**Nargiz Novruz Guliyeva**

## THE IMPORTANCE OF NEW TECHNOLOGIES IN THE SCENOGRAPHY OF MUSICAL PERFORMANCES

The article talks about the place and significance of scenography in the structure of musical theater performances, and also provides information about the features of stage design for opera and ballet performances. It is noted that modern theater today is forced to solve one of the main problems of the globalization of modern culture - the need to unite high-tech civilization and the coexistence of traditional cultural forms in it. The development of information (multimedia, projection, audiovisual) technologies in the modern art space is very dynamic; they are in demand by many types of art. New technologies are more focused on creating visual images, so their use in scenography is justified from the point of view of universalizing the creation of a performance from an idea, sketch, model to the

creation of scenery. It is emphasized that new technologies make it possible to significantly expand the range of means of achieving artistic expressiveness of a play.

**Key words:** theater, scenography, performance, opera, ballet, artist, technology, artistic concept.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.01.2024**

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

## FƏLSƏFƏ

**UOT:821.09**
**DOI: 10.52094/3005-9941.45.2024.029**

**Səxavət Nəsrəddin qızı Əliyeva**
**Bakı Dövlət Universiteti**
**psixologiya üzrə fəlsəfə doktoru, dosent**
**E-mail:saxavat aliyeva@ bsu.edu.az**
**https://orcid.org/0000-0002-5136-677X**

# KİŞİ VƏ QADIN ÜNSİYYƏTİNİN CİNSİ VƏ GENDER XÜSUSİYYƏTLƏRİ

